RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 94 (9549) 8 may 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan-Slovakiya əlaqələrində yeni səhifə

◆ Slovakiya Baş nazirinin Azərbaycana rəsmi səfəri



Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə təkbətək görüşü və geniş tərkibdə görüşü keçirilib.

Sonra Azərbaycan-Slovakiya sənədləri imzalanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Baş naziri Robert Fitso mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyevin adından Slovakiyanın Baş naziri Robert Fitsonun şərəfinə rəsmi nahar verilib.

Slovakiya Respublikasının Baş naziri Robert Fitso mayın 7-də Şəhidlər xiyabanını ziyarət edib.

Slovakiya Respublikasının Baş naziri Robert Fitsonun Azərbaycan Respublikasına rəsmi səfəri mayın 7-də başa çatıb.

## Azərbaycanın özü qədər əbədi

# Tarixin ən qüdrətli Azərbaycanının banisi



**Bəşəriyyətin inkişaf yolunun, bir çox xalqların tarixi inkişaf mərhələlərinin təhlili bir tezisi haqlı çıxarır ki, xalqların dünya miqyasındakı yeri və rolu ən çətin, taleyüklü məqamlarda məsuliyyəti öz üzərinə götürərək xalqının bayraqdarı və xilaskarına çevrilən böyük şəxsiyyətlərin tarixi missiyası ilə birbaşa bağlıdır.**

Məhz belə şəxsiyyətlər öz xalqlarının müstəqillik, azadlıq və tərəqqi amallarının həyata keçməsində, gələcək inkişaf meyillərinin müəyyənləşməsində müstəsna rol oynayır, onların yaratdıqları sarsılmaz miras onilliklər, yüzilliklər sonra da xalqlarının gələcəyinə işıq tutur. Azərbaycan xalqı üçün belə bir fövqəladə missiyanı həyata keçirən, bu gün müstəqil ölkəmizin nailiyyətlərinin əsasını qoyan böyük lider Heydər Əliyev olmuşdur.

### Heydər Əliyev Azərbaycanın müstəqillik tarixini yaradan, bu tarixə öz parlaq imzasını atan nəhəng şəxsiyyət olmuşdur

Heydər Əliyev kimi nəhəng şəxsiyyətlər üçün zaman və məkan fərqi yoxdur. Belələri şərait və mühitdən asılı olmayaraq, sahib olduqları ali mənəvi keyfiyyətlər, zəngin bilik və səriştələri sayəsində böyük liderlik bacarıqlarını nümayiş etdirməyə nail olurlar. Heydər Əliyev şəxsiyyətinin böyüklüyü həm də ondadır ki, dahi lider təkcə tarixi reallıqlar fonunda doğru qərar qəbul edərək, xalqımızı zamanın burulğanından xilas etməmişdir. Onun zəngin həyat yolu və fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sonsuz sevginin və bağlılığın, milli amallara və dövlətçilik ideyalarına sadiqliyin parlaq təcəssümü olmuşdur.

Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqillik tarixini yaradan, bu tarixə öz parlaq imzasını atan nəhəng şəxsiyyət olmuşdur. Heydər Əliyev həmişə zamana, siyasi vəziyyətə baxmayaraq, Azərbaycan xalqının maraqlarını qorumuşdur. Heç bir əngəl, heç bir məhdudiyyət Ulu Öndərə doğma xalqına xidmət etməyə, onun müstəqillik amallarının həyata keçməsini təmin etməyə mane ola bilməmişdir. Möhtərəm Prezident İlham Əliyev də Ulu Öndərin misilsiz xidmətləri haqqında danışarkən qeyd edir ki, sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir.

Sovet dövründə bütün ideoloji əngəllərə, mövcud siyasi sistemin yaratdığı çətinliklərə baxmayaraq, Ulu Öndərin həyata keçirdiyi islahatlar və strateji tədbirlər nəticəsində Azərbaycan sürətlə inkişaf edərək keçmiş ittifaq miqyasında xüsusi çəkiyə malik olan respublikaya çevrilmişdir. Əgər 1969-cu ilin iyul plenumuna qədər Azərbaycan SSRİ miqyasında yalnız xammal mənbəyi kimi çıxış edən, inkişaf tempinə görə ən geridə qalmış respublikalardan biri kimi səciyyələndirilirdisə, Heydər Əliyevin rəhbərliyi ilə görülən işlərin fonunda respublikamız sürətli inkişafa, həyatın bütün sahələrində nəzərəçarpan uğurlara imza atmış qabaqcıl respublikalardan birinə çevrilmişdir. Heydər Əliyev qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa, yeni istehsal sahələri, güclü sənaye potensialının yaradılmasına nail olmuşdur. Məhz o dövrdə formalaşmış iqtisadi potensial və icra edilmiş infrastruktur layihələri bu gün də müstəqil Azərbaycana xidmət göstərir.

1969-1982-ci illər Azərbaycanda xalqın tarixi yaddaşının özünə qaytarılması, milli ruhun oyanması, bu gün milli birliyimizin ideya əsasını təşkil edən azərbaycançılıq ideologiyasının formalaşdırılması baxımından da çox əlamətdar dövr olmuşdur. Bu illər ərzində Heydər Əliyevin təşəbbüsü ilə Bakıda və Moskvada Azərbaycanın tanınmış ədəbiyyat, incəsənət və elm xadimlərinin yubileyləri keçirilmiş, onların fəaliyyəti yüksək dövlət mükafatları və fəxri adlarla qiymətləndirilmiş, abidələri ucaldılmış, minlərlə azərbaycanlı gənc SSRİ-nin qabaqcıl ali təhsil müəssisələrinə göndərilmiş, azərbaycanlı hərbçi kadrların yetişdirilməsinə, respublikada hərbi təhsilin inkişafına xüsusi diqqət yetirilmişdir. Ulu Öndərin qətiyyəti nəticəsində Azərbaycan dilinin respublikanın dövlət dili olması ilə bağlı müddəa 1978-ci il Konstitusiyasına daxil edilmişdir. Dövrün reallıqlarını nəzərə alaraq bunun nə qədər böyük cəsarət və qətiyyət tələb edən tarixi bir addım olduğunu daha yaxşı dərk edirik.

→ 8

# Ulu Öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin güclü təməllərini yaratmışdır

**Mayın 7-də Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasın əlamətdar tarixi hadisə ərəfəsində keçirildiyini deyən Milli Məclisin Sədri Sahibə Qafarova mayın 10-da müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin doğum gününün qeyd ediləcəyini bildirərək, Ulu Öndərlə bağlı fikirlərini bölüşüb.**

Sədr qeyd edib ki, ən yüksək dövlət vəzifələrində çalışdığı otuz ildən artıq bir müddətdə Heydər Əliyev böyük bir missiyanı iki dəfə öhdəsinə götürmüşdür. Hər ikisində də zamanın çağırışlarına yaradıcı münasibət bildirməklə və düzgün qərarlar qəbul etməklə insanların ona bəslədiyi ümidləri doğrultmuşdur. Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin təməlini yaratmış, daha sonra isə bu təməl üzərində qurulan müstəqil dövləti qoruyub saxlamış və davamlı inkişaf yoluna çıxarmışdır. Bununla da o, böyük tarixi şəxsiyyətlərimizin dövlətçilik ənənələrini layiqincə davam etdirmiş və daha da zənginləşdirmişdir.

→ 7

# Ötən illərin Şuşa həsrətini bu günün sevinci və sabahın xoşbəxtliyi əvəz edir

Nə yaxşı ki, Şuşanın işğalı daha çox onilliklər çəkmədi. İşğalın 28-ci ili Şuşaya qayıdış ili kimi tarixə yazıldı. 8 may işğal gününü 8 Noyabr Zəfər Günü əvəzlədi. Həmin gün təkcə Azərbaycan xalqının deyil, bütövlükdə türk dünyasının qeyd etdiyi bayramların ən gözəli, ən əzizi oldu. Ali Baş Komandan 8 Noyabr günü Şəhidlər xiyabanında, üstəlik də, hərbi geyimdə xalqa müraciət edərək Şuşanın azad edilməsi xəbərini verdiyi an yaşadığımız hisslər, axıtdığımız sevinc göz yaşları tarixboyu yaddaşlardan silinməyəcək. Böyük qürurla bu xəbəri xalqına çatdırması dövlət başçısının da həyatının ən xoşbəxt günlərindən biri oldu. "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Azad günlərini yaşayan müqəddəs şəhərim, biz sənin qoynunda əbədi yaşayacağıq!" deyən dövlət başçısının da sevincdən doğan kövrəkliyini və titrək səsini hər kəs hiss etdi. O gün əlində əsa olan qoca da, körpə uşaq da "28 illik həsrət, qubar sona çatdı" deyib küçələrə axışdı.

→ 14

# Bolqarıstan Prezidenti Rumen Radev Azərbaycana rəsmi səfərə gəlib

Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev mayın 7-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər qarşıladılar.




# Sərhəd dirəklərinin quraşdırılması münasibətlərin normallaşması üçün önəmli addım oldu

Delimitasiya prosesi özlüyündə asan, tez bir zamanda başa gələn iş deyil. Bu, mürəkkəb, xeyli vaxt tələb edən geotexniki bir prosesdir. Mövcud istiqamətdə aparılan danışıqlarla bağlı yekun qərarın verilməsi xeyli zaman tələb edir. Sərhədin delimitasiya olunmuş hər hissəsindən sonra müvafiq protokol imzalanır, sonra ərazidə nişanlama işləri aparılır, sərhəd dirəkləri qurulur. İki ölkə arasındakı sərhədin delimitasiya və demarkasiyası tamamilə başa çatdıqdan sonra bununla bağlı yekun sənəd imzalanır və qeydə alınması üçün BMT-yə göndərilir.



→ 14

## Slovakiya Baş nazirinin Azərbaycana rəsmi səfəri

# Azərbaycan-Slovakiya əlaqələrində yeni səhifə

## Prezident İlham Əliyev ilə təkbətək görüş



Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Baş nazir Robert Fitsonu qarşıladı.

Sonra birgə foto çəkdirildi.

## Prezident İlham Əliyevin Slovakiyanın Baş naziri ilə geniş tərkibdə görüşü keçirilib



Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə geniş tərkibdə görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Hörmətli cənab Baş nazir.

Hörmətli qonaqlar.

Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Bu, Sizin birinci səfərinizdir, əminəm ki, səfər çox uğurlu keçəcək.

Biz indi təkbətək görüşdə bir çox önəmli məsələləri müzakirə etdik. Slovakiya-Azərbaycan əlaqələrinin perspektivləri haqqında fikir mübadiləsi apardıq və biz bir fikirdə həmrəyik ki, bu əlaqələrin çox gözəl gələcəyi var. Həm siyasi, həm iqtisadi, enerji, sənaye istehsalı sahələrində əməkdaşlığın perspektivləri çox müsbətdir.

Mən hesab edirəm ki, Sizin səfəriniz əlaqələrimizin yeni səhifəsini açacaq. Çünki bu gün müzakirə edilən məsələlərin əhatə dairəsi o qədər genişdir ki, bu məsələlərin həlli bizim münasibətlərimizi çox yüksək səviyyəyə qaldıracaqdır.

Eyni zamanda bu gün bundan bir qədər sonra biz Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalayacağıq. Bu da çox ciddi siyasi sənəddir, faktiki olaraq münasibətlərimizi ən yüksək səviyyəyə qaldıran bir sənəddir. Sənədin özü və onun məzmunu, təbii ki, bizim niyyətimizi göstərir, bir-birimizə olan hörməti, qarşılıqlı dəstəyi göstərir.

İndi biz nümayəndə heyətlərinin iştirakı ilə müzakirələrimizi davam etdirəcəyik. Əminəm ki, əldə ediləcək razılaşmalar vaxtlı-vaxtında icra olunacaq və beləliklə, bizim əməkdaşlığımız daha sürətlə inkişaf edəcək.

Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Slovakiyanın Baş naziri **Robert Fitso** dedi:

- Hörmətli Prezident.

Hörmətli qonaqlar və dostlar.

Bizi qəbul etdiyiniz üçün və ölkənizə xas ənənəvi qonaqpərvərliyinizə görə bütün Slovakiya nümayəndə heyəti adından Sizə minnətdarlığımı bildirirəm.

Hörmətli cənab Prezident, bu yaxşı haldır ki, biz artıq konkret layihələr barədə danışmağa hazırıq və indi bu mövzuları müzakirə edirik.

Hörmətli cənab Prezident, çox təfərrüata varmadan deyə bilərəm ki, bizi birləşdirən məfhumlar, birgə məqamlar çoxdur. Avropa İttifaqına üzv ölkə olmağımıza baxmayaraq, bizi birləşdirən praqmatik yanaşmadır. Bizi birləşdirən suveren xarici siyasətdir, o siyasət ki, Siz də həyata keçirirsiniz və biz də buna çalışırıq. Eyni zamanda bizi o fakt birləşdirir ki, biz dünyaya hər dörd istiqamətdə baxırıq, yalnız Qərb və ya bir istiqamətdə köklənmirik. Biz beynəlxalq hüquqa hörmətlə yanaşırıq. Əlbəttə ki, başqalarının işlərinə müdaxilə olunmaması, ərazi bütövlüyünün aliliyi bizim üçün ən başlıca amillərdir.

Cənab Prezident, Sizi yenidən seçilməyiniz münasibətilə təbrik edirəm. Bu, Sizin beşinci prezidentliyinizdir. Bu, çox mühüm bir nailiyyət və uğurdur. Eyni zamanda Sizi ölkənizdə aydın görünən tərəqqi münasibətilə təbrik edirəm.

Ərazi bütövlüyünün bərpası məsələsinə gəldikdə, Siz dünyanın digər bölgələri üçün nümunəsiniz. Məncə, bu, ən yüksək səviyyədə qiymətləndirilməlidir.

Cənab Prezident, Sizi Slovakiyada görməyimizə çox şad olardıq. Siz, sadəcə, tarixi seçin və özünüzlə ən böyük nümayəndə heyəti gətirin, işgüzar dairələri cəlb edin. İnanıram ki, müzakirə etməyə mövzularımız çox olacaq. Çünki bir az bundan öncə müzakirə etdiyimiz məsələlər onu nümayiş etdirir ki, perspektivlər çox böyükdür.

## Azərbaycan-Slovakiya sənədləri imzalanıb

**Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Slovakiya Respublikasının Baş naziri Robert Fitsonun iştirakı ilə Azərbaycan-Slovakiya sənədlərinin imzalanması mərasimi olub.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Baş naziri Robert Fitso "Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə"ni imzaladılar.



Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Vüqar Mustafayev və Slovakiya Respublikasının Baş nazirinin müavini, müdafiə naziri Robert Kalinak "Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi ilə Slovakiya Respublikasının Müdafiə Nazirliyi arasında hərbi-texniki əməkdaşlıq sahəsində Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycan Respublikasının müdafiə naziri Zakir Həsənov və Slovakiya Respublikasının Baş nazirinin müavini, müdafiə naziri Robert Kalinak "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Slovakiya Respublikasının Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i imzaladılar.

## Prezident İlham Əliyev və Baş nazir Robert Fitso mətbuata bəyanatlarla çıxış ediblər

**Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Baş naziri Robert Fitso mətbuata bəyanatlarla çıxış ediblər.** AZƏRTAC **xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı mətbuata bəyanatla çıxış etdi.**

### Prezident İlham Əliyevin bəyanatı



- Hörmətli cənab Baş nazir.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Bu gün Slovakiya-Azərbaycan əlaqələrinin tarixində çox əlamətdar bir gündür. Hörmətli cənab Baş nazir Azərbaycana səfər edir və səfər çərçivəsində strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır. Bu, çox ciddi siyasi sənəddir və bizim əlaqələrimizi ən yüksək səviyyəyə qaldıran sənəddir. Strateji tərəfdaşlıq Bəyannaməsində əks olunan maddələr bizim niyyətimizi əks etdirir, eyni zamanda gələcək əməkdaşlığın perspektivlərini də müəyyən edir.

Hesab edirəm ki, bu gün Slovakiya-Azərbaycan əlaqələrində yeni səhifə açılır və ümid edirəm, bizim müştərək yolumuz çox uğurlu olacaq.

Biz bu gün cənab Baş nazirlə həm təkbətək görüş əsnasında, eyni zamanda nümayəndə heyətlərinin iştirakı ilə keçirilmiş danışıqlarda bir çox məsələləri müzakirə etdik. Bizim siyasi əlaqələrimizin yüksək səviyyədə olmasını bir daha təsdiqlədik. Eyni zamanda bir çox sahələr üzrə aparılacaq işlərə də öz münasibətimizi bildirdik.

Bildiyiniz kimi, bu gün imzalanan sənədlər arasında müdafiə və müdafiə sənayesi sahələrinə aid sənədlər var. Bu iki istiqamət üzrə geniş fikir mübadiləsi aparılmışdır və müdafiə sənayesi sahəsində birgə istehsal sahələrinin yaradılması haqqında da artıq konkret danışıqlara da start verilmişdir.

Təbii ki, bu gün energetika sektorundakı əməkdaşlıq çox geniş müzakirə edilmişdir. Azərbaycan hazırda 8 ölkəyə öz təbii qazını ixrac edir və ümidvaram ki, 9-cu ölkə Slovakiya olacaq. Keçən ilin aprel ayında "Həmrəylik Halqası" adlanan sənəd imzalanmışdır və beləliklə, Azərbaycan qazını Slovakiya bazarına da nəql etmək üçün yaxşı imkanlar yaradılmışdır.

Avropa İttifaqı ilə Azərbaycan arasında qaz və enerji sahəsində imzalanmış strateji tərəfdaşlıq Bəyannaməsi icra edilir. Azərbaycan öz təbii qazını Avropa məkanına etibarlı yollarla nəql edir. Avropaya təchizat 2021-ci ildəki 8 milyard kubmetrdən bu il 12 milyard kubmetrə qədər qalxacaq. Bu da Azərbaycanın ümumi qaz ixracının 50 faizini təşkil edir. Bizim planlarımızda 2027-ci ilin sonuna qədər təkcə Avropa İttifaqı məkanına 20 milyard kubmetr qazın nəql edilməsi məsələsi dayanmışdır və mən hesab edirəm ki, biz buna nail olacağıq.

Azərbaycanda qaz hasilatı artır, yeni yataqlar kəşf olunur və o yataqlarda istismar artıq başlamışdır. Eyni zamanda bizim genişmiqyaslı "yaşıl gündəliyimiz" də icra edilir və bir çox bərpaolunan külək və günəş enerjisi stansiyalarının inşa olunması bizə qaza qənaət etmək imkanı yaradacaqdır və təbii ki, bu qazın əsas istiqaməti və əsas ünvanı Avropa olacaqdır.

Bu gün eyni zamanda ticarət dövriyyəsinin artırılması istiqamətində aparılacaq işlərə də diqqət yetirildi. Bildiyiniz kimi, bu gün Slovakiya-Azərbaycan biznes forumu keçirildi, onlarla slovakiyalı iş adamı Azərbaycanda səfərdədir. Bir çox sərmayə layihələri də müzakirə edilir. Bu gün bu məsələlər də müzakirə edildi və hər iki tərəfdən buna, necə deyərlər, yaşıl işıq yandırılmışdır.

Əməkdaşlığımızın bir əlamətdar istiqaməti də azad edilmiş torpaqlarda Slovakiya şirkətinin fəaliyyətidir. Ağdamın Qərvənd kəndinin yenidən qurulması Slovakiya şirkəti tərəfindən icra ediləcək. Bu da təbii ki, həm böyük rəmzi məna daşıyır, çünki əlaqələrimizin səmimiliyinin dərəcəsini göstərir. Eyni zamanda işğaldan azad edilmiş torpaqlarda ən müasir standartlara cavab verən "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası əsasında slovakiyalı mütəxəssislər tərəfindən görüləcək işlər, əlbəttə ki, oraya qayıdacaq insanları sevindirəcək.

Bir sözlə, bu gün müzakirə edilmiş gündəlik kifayət qədər geniş olub. Bu, cənab Baş nazirlə mənim birinci şəxsi tanışlığımdır və eyni zamanda, biz bir çox beynəlxalq məsələlərlə əlaqədar fikir mübadiləsi apardıq və burada da fikir ayrılığı yoxdur. Slovakiya və Azərbaycan bu gün suverenlik və ləyaqət əsasında qurulmuş siyasətlə idarə olunurlar. Mən cənab Baş naziri yenidən Baş nazir vəzifəsinə seçilməsi münasibətilə təbrik etdim və bildirdim ki, bu, onun fəaliyyətinə Slovakiya xalqı tərəfindən verilən böyük qiymətdir. Cənab Fitso birinci dəfə deyil ki, Baş nazir seçilib və onun yenidən seçilməsi Slovakiya xalqının müstəqilliyə, suverenliyə, milli ləyaqətə göstərdiyi münasibətin, hörmətin əlamətidir və bu seçim Slovakiya xalqının dostları kimi bizi də həddindən artıq sevindirir. Deyə bilərəm ki, cənab Fitso Baş nazir vəzifəsində yenidən fəaliyyətə başlamasından dərhal sonra konkret addımlar da atılmışdır, yüksəkvəzifəli şəxslər Slovakiyadan Azərbaycana və Azərbaycandan Slovakiyaya səfərlər etmişlər və bu gün biz hörmətli qonağımızı qəbul edirik.

Bir daha, hörmətli cənab Baş nazir, xoş gəlmisiniz. Əminəm ki, səfəriniz xoş keçəcək və əməkdaşlığımız üçün yeni imkanlar açacaqdır.

❖ ❖ ❖

Sonra Slovakiyanın Baş naziri bəyanatla çıxış etdi.

*Bax: səh. 3*

## Slovakiya Baş nazirinin Azərbaycana rəsmi səfəri

# Azərbaycan-Slovakiya əlaqələrində yeni səhifə

## Prezident İlham Əliyev və Baş nazir Robert Fitso mətbuata bəyanatlarla çıxış ediblər

### Baş nazir Robert Fitsonun bəyanatı





- Cənab Prezident.

Xanımlar və cənablar.

Bizə göstərilən qonaqpərvərliyə görə Slovakiya nümayəndə heyəti adından Sizə təşəkkür edirəm. Sizin ölkəniz qonaqpərvərliyi ilə məşhurdur.

Cənab Prezident, ümid edirəm, Sizin də münasib bildiyiniz bir vaxtda nümayəndə heyətinizlə Slovakiyaya səfər edəcəksiniz ki, biz bu gün başladığımız konstruktiv və faydalı müzakirələrimizi davam etdirək. Hesab edirəm ki, bu günün nəticələri gözlədiyimdən də artıq oldu.

Cənab Prezident, Siz beşinci dəfə prezident seçilmisiniz. Bu, həqiqətən onun göstəricisidir ki, Siz bu ölkə üçün çox önəmli bir şəxsiyyətsiniz və Sizi yenidən seçilməyiniz münasibətilə təbrik edirəm. Sizə açıq şəkildə deyə bilərəm ki, təkbətək görüşümüzdə müzakirələrimiz ölkəniz və Sizin haqqınızda düşündüyümün təsdiqi oldu. Siz suveren xarici siyasətin tərəfdarısınız. Siz beynəlxalq hüququ müdafiə edən şəxsiyyətsiniz. Siz praqmatik şəxsiyyətsiniz və Sizin xarici siyasətiniz təkcə bir istiqamətdə köklənməyib. Siz ərazi bütövlüyünün nə dərəcədə vacib olduğunu çox gözəl bilirsiniz. Bununla yanaşı, Avropa İttifaqının üzvü olan ölkənin nümayəndəsi kimi deyə bilərəm ki, Avropa İttifaqı ara-sıra digərlərinə təlimat verməyi xoşlayır. Mən isə siyasi təcrübəmdə heç vaxt heç bir ölkənin daxili işlərinə qarışmamağa üstünlük verirəm.

Cənab Prezident, bəzi beynəlxalq təsisatlarda kiçik ölkələrə qarşı ayrı-seçkilik, ədalətsizlik və qeyri-obyektivlik məni məyus edir. Çünki əhali sayına baxdıqda biz kiçik ölkə hesab edilirik. Sizi çox diqqətlə dinləyirdim və bunu dünən məni hava limanında qarşılayan nümayəndə heyətinə də bildirdim. Biz Azərbaycan ilə Avropa İttifaqı arasında körpü olmağa hazırıq və Azərbaycandakı obyektiv vəziyyəti Avropa İttifaqında təqdim etmək istəyirik. Biz haqq-ədalət uğrunda mübarizə aparmalıyıq. Slovakiya 2020-2023-cü illərdə Avropa İttifaqı tərəfindən nə dərəcədə biganə yanaşmanın nümunəsidir. O vaxt ölkənin cinayət məcəlləsindən müxalifətlə mübarizə üçün istifadə edilirdi. O zaman biz müxalifətdə idik, bu gün isə həmin dövrdə - 2020-2023-cü illərdə baş verənlərə görə parlamentimizdə çox mühüm qanunlar qəbul etdik. Ancaq Avropa İttifaqının diqqəti də məhz bunun üçün bizim üzərimizdədir. Yəni bizim bu təsisatlarla bağlı belə bir təcrübəmiz var. Mən həm buradan bizim Xarici İşlər Nazirliyinə və parlamentimizə deyə bilərəm ki, biz Azərbaycandakı vəziyyəti maksimum şəkildə obyektiv işıqlandırmalıyıq.

Cənab Prezident, biz böyük tərəqqiyə nail olmuşuq. Əlbəttə ki, ticarət dövriyyəmiz olduqca aşağıdır, ancaq burada hər hansı maneə yoxdur, bizim heç bir sahədə fikir ayrılığımız yoxdur.

Mən cənab Prezidentin Ukrayna ilə bağlı mövqeyini eşidəndə sanki Slovakiya hökumətinin mövqeyinin səsləndirildiyini düşündüm. Biz qlobal səviyyədə baş verənlər haqqında danışdıq, Ukraynada münaqişə bitəndən sonra işlər necə olacaq, Çinin dünyadakı rolu. Yəni bizim çox oxşar mövqeyimiz var. Təəssüf ki, ticarət dövriyyəmiz 70 milyon avrodan bir az çoxdur və əlbəttə, burada üstünlük də bizim tərəfimizdədir, çünki biz Azərbaycana avtomobillər ixrac edirik. Slovakiyada bu sahədə çoxsaylı müəssisələr var. Biz əməkdaşlığımızı genişləndirməliyik. Əgər güclü Prezident və siyasi baxımdan güclü Baş nazir varsa, biz bir neçə layihəni öz üzərimizə götürüb onu uğurla həyata keçirə bilərik.

Cənab Prezident, bu əməkdaşlığa, xüsusilə hərbi sahədə əməkdaşlığa böyük önəm verirəm, bunu yüksək qiymətləndirirəm. Azərbaycanda birgə istehsal sahələrinin yaradılması fikri hər kəs üçün cəlbedici olmalıdır. Biz bunun müəyyən detallarını artıq müzakirə etdik və bizim Baş nazirin müavini, müdafiə naziri cənab Kalinak bu sahədə də çox böyük fəallıq göstərir. O da əlindən gələni edəcək ki, bu layihələr uğurlu olsun. Söhbət Slovakiyanın xaricindəki istehsal sahələrindən gedir.

Cənab Prezident, Qarabağdakı təşəbbüsümüzü dəstəklədiyinizə görə Sizə təşəkkür edirəm. Bu, "ağıllı kənd" layihəsidir. Bu, çox maraqlı bir layihədir. Mən imkan düşən kimi böyük məmnuniyyətlə oraya səfər etmək istərdim və ümid edirəm ki, Siz də tez bir zamanda bizə - Slovakiyaya səfər edəcəksiniz. Orada biz bu irəliləyişlə bağlı müzakirələr apara bilərik. Eyni zamanda biz kiçik hava limanının inşası ilə də maraqlanırıq və enerji sahəsində əməkdaşlıq da bizə maraqlıdır.

Əlbəttə ki, Ukraynada baş verən müharibə səbəbindən Slovakiyanın nəqliyyat infrastrukturunun istifadəsi mürəkkəbləşib. Azərbaycan qazının Rusiya-Ukrayna sərhədindəki məntəqə vasitəsilə Ukrayna ərazisindən idxal edilməsi layihəsi var. Söhbət 20 milyard kubmetrlik həcmdən gedirsə, bu, hamı üçün maraqlı olmalıdır. Əlbəttə, mən hesab etmirəm ki, Azərbaycan xeyriyyəçiliklə məşğuldur. Biz, sadəcə olaraq, ədalətli qiymətlərə ümid edirik və sizin maraqlarınıza hörmətlə yanaşırıq.

Cənab Prezident, əminəm ki, biz Avropa səviyyəsində də müsbət ab-hava yaradacağıq. Bilirsiniz ki, Avropada hamı spekulyasiyanı xoşlayır, ən pis niyyət görməyə çalışır. Biz təkcə Azərbaycandan qaz almaq istəmirik, biz qazı Ukrayna ərazisindən Slovakiyaya idxal etmək istəyirik və bu məsələdə Sizin konstruktiv yanaşmanızı çox yüksək qiymətləndirirəm.

Ukraynanın Baş nazirinin dediyi kimi, Azərbaycan qazı olduğu yerdə Rusiya ilə Ukrayna arasında müəyyən razılığa gəlmək olar. Bu, hər kəs üçün faydalı olar, həm Slovakiya üçün, həm Sizin üçün, həm də Ukrayna üçün. Çünki onlar bunun tranzitini həyata keçirəcək. Bu, nümunəvi bir layihə ola bilər və cənab Prezident, bununla bağlı da verdiyiniz məlumata görə Sizə təşəkkür edirəm.

Cənab Prezident, şəxsən Sizə uğurlar arzulamaq istəyirəm, Sizin ölkənizə və xalqınıza ən xoş arzularımı çatdırıram.

Siz suveren bir ölkəsiniz və suverenliyə gəldikdə nümunəvi ölkəsiniz. Suveren mövqe və fikirlərə gəldikdə, mən hər zaman belə ölkələri yüksək qiymətləndirmişəm. Siz ədalətsizliyə sinə gərirsiniz. Eyni yanaşmanı mən Slovakiyada tətbiq etməyə çalışacağam ki, Slovakiya da suveren xarici siyasət apara bilsin və bizim kimi suveren ölkələr bir araya gəldikdə nəticələr çox gözəl ola bilər.

Cənab Prezident, Sizə, Azərbaycana və Azərbaycan xalqına ən xoş hisslərimi çatdırıram və işlərinizdə uğurlar arzu edirəm. Əməkdaşlığa görə təşəkkür edirəm və bu işdə Sizin çox böyük şəxsi töhfəniz var. Slovakiya-Azərbaycan əməkdaşlığına töhfənizə görə təşəkkürümü bildirirəm.

## Azərbaycan Prezidentinin adından Slovakiya Baş nazirinin şərəfinə rəsmi nahar verilib



Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Slovakiya Respublikasının Baş naziri Robert Fitsonun şərəfinə rəsmi nahar verilib.

*AZƏRTAC*

## Slovakiyanın Baş naziri Şəhidlər xiyabanını ziyarət edib

**Azərbaycanda rəsmi səfərdə olan Slovakiyanın Baş naziri Robert Fitso mayın 7-də Şəhidlər xiyabanını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, Baş nazir Robert Fitso Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonda Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.



## Slovakiya Baş nazirinin Azərbaycana səfəri başa çatıb

**Slovakiya Respublikasının Baş naziri Robert Fitsonun Azərbaycan Respublikasına rəsmi səfəri mayın 7-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazirin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.



Slovakiyanın Baş naziri Robert Fitsonu hava limanında Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.

## Slovakiya Baş nazirinin Azərbaycana rəsmi səfəri

# Azərbaycan-Slovakiya əlaqələrində yeni səhifə

## Slovakiyanın Baş naziri AZƏRTAC-a və AzTV-yə müsahibə verib

Mayın 7-də Slovakiya Respublikasının Baş naziri Robert Fitso AZƏRTAC-a və AzTV-yə müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.

*AzTV-nin əməkdaşı: Bizim televiziyaya və AZƏRTAC-a bu mühüm müsahibəni verdiyiniz üçün təşəkkür edirəm. Sizin səfərinizlə bağlı təəssüratlarınızı bilmək istərdik. Biz bilirik ki, bu gün Siz bizim Prezidentimiz İlham Əliyevlə görüşmüsünüz və demək olar ki, artıq Sizin səfərinizlə bağlı ilk nəticələr əldə edilib. Siz eyni zamanda bizim ikitərəfli əməkdaşlığımızın gələcəyi ilə bağlı da danışdınız. Bu səfərinizin nəticələri nədən ibarətdir?*

**Baş nazir Robert Fitso:** Bu səfərlə bağlı təəssüratlarımı bölüşmək üçün mənə yaratdığınız fürsətə görə təşəkkür edirəm. Həqiqətən də bu, Azərbaycana Baş nazir olaraq etdiyim çox mühüm və ilk səfərdir. Qonaqpərvərliyiniz məni məmnun etdi. Sizin Prezidentlə görüşdüm və çox praqmatikdir, konstruktivdir, həm daxili, həm də xarici siyasətdə praqmatik şəxsiyyətdir. Düşünürəm ki, biz bu sahədə eyni keyfiyyətləri bölüşürük. Eyni zamanda bu, mənim də yanaşmamdır. Deməliyəm ki, mən başqa ölkələrin daxili işlərinə qarışmayan siyasətçiyəm və hər bir ölkə öz yolunu seçmək haqqına malikdir. Yenə də deyirəm, əgər bir-birimizə bu şəkildə hörmətlə yanaşsaq, əminəm ki, əməkdaşlığımız fərqli keyfiyyətə malik olacaq. Prezidentinizi beşinci mandatı münasibətilə təbrik etmək istəyirəm. Proqramı imkan verdiyi zaman Slovakiyaya səfərə dəvət etdim və onu eyni səviyyədə qonaqpərvərliklə, dostluqla qarşılayacağıq.

Azərbaycanla problemimiz yoxdur. Həm təkbətək, həm də geniş tərkibdə görüşlərdə xarici siyasətdə fərqli fikirlərə sahib olmadığımızı gördük. Qarşılıqlı ticarət dövriyyəmizin həcmi çox aşağıdır. Bu, təxminən 70 milyon avrodan bir az çox təşkil edir. Aktiv balans Slovakiya tərəfindədir. Bu, maşınqayırma sənayesinə aiddir və bunun da təxminən 75-80 faizi Slovakiya avtomobil sənayesinin payına düşür. Səfərin hazırlanması zamanı təbii ki, bu, nəzərə alındı. Slovakiyada belə bir məsəl var: 10 işi eyni anda görə bilməzsiniz. Ona görə də cənab Prezidentlə bizim üçün vacib olan 3 əsas sahəyə diqqət ayırmağı razılaşdırdıq.

Azərbaycan Prezidentini və xalqını ərazi bütövlüyünü bərpa etdiyi üçün təbrik etmək istərdim. Slovakiya olaraq Qarabağdakı yenidənqurma işləri ilə maraqlanırıq və "ağıllı kənd" layihəsində slovak şirkətləri iştirak edir. Bildiyimə görə, işlər ilkin mərhələdədir. Cənab Prezident bu layihənin davam etdirilməsində maraqlı olduğunu bildirdi. Slovakiya şirkətləri kiçik hava limanının inşasında da iştirak edə bilər.

Hərbi sənaye sahəsində də iştirak etmək mümkündür. Slovakiyada müdafiə sənayesinin inkişafını dəstəkləmişəm. Cənab Prezidentlə bəzi layihələri müzakirə etdik. Texnologiya Slovakiyadan və maliyyə Azərbaycandan olacaq. İstehsal ediləcək silahlar ya ixrac olunacaq, ya da Azərbaycanda qalacaq. Bildiyimiz kimi, Ukraynadakı müharibə parametrləri tamamilə dəyişib. Hazırda silahlarla bağlı ciddi çatışmazlıq var. Bunu edə bilsək, hər iki ölkə üçün faydalı olacağını düşünürəm.

Azərbaycan təbii qazının Slovakiyaya idxalını da həyata keçirə bilərik. Detallara varmaq istəməzdim. Rusiya və Ukrayna bəlli səbəblərə görə Avropaya artıq qaz ixrac edə bilmir. Slovakiyaya böyük həcmdə qazın gətirilməsində təbii ki, maraqlıyıq. İldə təxminən 20 milyard kubmetr qazdan söhbət gedir. Bu, Avropaya gələn qazın böyük ölçüdə şaxələndirilməsinə töhfə verəcək. Bu müqavilənin imzalanmasına çox yaxınıq. Cənab Prezidentin çox praqmatik və dost yanaşmasını gördüm. Eyni zamanda o, təcrübəli siyasi xadimdir, bir çox məsələdə həmfikirik. Ölkənizlə bağlı məlumat almaq istədim və Prezidentiniz çox səmimi idi. Qarabağdakı əməkdaşlıqdan, enerji və müdafiə sahəsindəki əməkdaşlıqdan bəhs etdik. Bu üç sahədə Prezidentinizlə əməkdaşlıq etməyə hazırıq. Çox gözəl qonaqpərvərliyinizə görə bir daha təşəkkür etmək istəyirəm.

Azərbaycan tərəfi səfər zamanı Slovakiya nümayəndə heyəti üçün gözəl şərait yaratdı. Əvvəllər səfərlər az olmayıb, sadəcə, səfər xatirinə səfər etməyin tərəfdarı deyiləm.

*AZƏRTAC-ın əməkdaşı: Maraqlı cavabınız üçün sizə təşəkkür edirik, cənab Baş nazir. Aydın şəkildə görünür ki, Azərbaycan-Slovakiya əlaqələri əməkdaşlıq əlaqələridir və son illərdə inkişaf edir. Bratislavada Azərbaycan səfirliyi açılıb, eyni zamanda artıq yüksəksəviyyəli səfərlərin sayı artıb. Bizim ikitərəfli əməkdaşlığımız müsbət dinamika ilə artmaqdadır.*

**Baş nazir Robert Fitso:** Avropa İttifaqı ilə bağlı bir fikir söyləyəcəyəm, amma bunu bəyənməyəcəklər. Əvvəlcə onu demək istəyirəm ki, Bratislavada ticarət nümayəndəliyinizin açılması ilə bağlı Prezidentinizlə danışdım. Məncə, Mərkəzi Avropanı əhatə etmək üçün Bratislava uyğun yerdir. Bu şəhərin coğrafi mövqeyinə baxdığımız zaman görərik ki, Avstriyanın paytaxtı cəmi 70 kilometr məsafədədir. Macarıstanın paytaxtı Budapeştlə məsafə isə 100, ya da 120 kilometrdir. Beləliklə, xəritəyə baxsanız görərsiniz ki, bir üçbucaq yaranır.

Bizim iş adamları da hökumət üzvləri ilə birlikdə nümayəndə heyətimizin tərkibindədir. Burada da, Slovakiyada da hərbi sərgilərdə iştirak edə bilərlər. Bu barədə razılaşdıq. Altı aydan sonra yenidən Bakıya gələcəyəm. Çünki bildiyiniz kimi, COP29-a evsahibliyi edəcəksiniz. Cənab Prezident də il ərzində Slovakiyaya səfər etsə, çox gözəl olar.

Avropa İttifaqı ilə bağlı bir fikir söyləyəcəyəm, məncə orada bunu bəyənməyəcəklər. Avropa İttifaqı özünə aşiqdir. Özünü dünyada ən yaxşı yer olduğuna və başqalarına dərs vermək haqqına sahib olduğuna inandırıb. Amma digər ölkələr bizdən daha yaxşı ola bilər. Bəzən mənə elə gəlir ki, Avropa İttifaqında imkanlar getdikcə azalır. Avropa İttifaqında nəyin normal, nəyin anormal olmasını öyrənmək üçün mübarizə aparırıq. Bu yaxınlarda Strasburqda Avropa Parlamentinə seçkilər olacaq. Ancaq seçki kampaniyasında kimin ən yaxşı sosial və iqtisadi şərait yaradacağı haqqında söhbət getmir. Məni bağışlayın, bu kampaniyada bəzi yerlərdə 2 və ya 3 ayaqyolu olması müzakirə edilir, transgenderlərdən bəhs olunur. Bu mövzular indi orada - Avropada dəbdədir. Amma cəmiyyətə heç bir irəliləyiş gətirmir. Avropa İttifaqı çox ambisiyalı olmağa başlayıb və bu da bizim üçün zərərlidir. Gəlin, "yaşıl enerji" məsələsinə baxaq. Bu, Avropa İttifaqı sənayesinə açıq şəkildə ziyan vuracaq. Biz 2035-ci ildə artıq yanacaqla işləyən avtomobillər istehsal etməyəcəyimizə söz verdik. Müharibə və Ukrayna üçün çox pul xərcləyirik. Biz bunu Avropa İttifaqı üçün xərcləyə bilərik. Əsəblər tarıma çəkilir, çünki suveren və müstəqil fikirlərə hörmət itməkdədir. Boyun əysəniz sizi rahat buraxacaqlar, heç bir problem olmayacaq. Amma suveren fikrinizi bildirsəniz, problemlər yaşayacaqsınız.



Bu gün sizin Prezidentlə danışarkən mən qarşımda dünyanın gedişatını tam anlayan bir şəxsi gördüm. Gələcək əməkdaşlığımızın daha da inkişafı üçün bazanın olması məni həqiqətən sevindirir. Bu səfər hər iki tərəf üçün yaxşı başlanğıc nöqtəsini təşkil edir. Əksi çox üzücü olardı. Bu gün çox maraqlı mövzulardan bəhs etdik və bunu davam etdirmək yaxşı olardı. Daha tez-tez görüşlər keçirməyə çalışacağıq. Bir az əvvəl dediyim kimi, görüşlər gərək öz bəhrəsini versin. Bütün bu səfərlər, sadəcə, səfər xətrinə olmasın. Ona görə də bu səfərlərin sayı artırılmalıdır, amma bu səfərlər öz töhfəsini verməlidir.

*AzTV-nin əməkdaşı: Bəli, cənab Baş nazir, Siz Avropa İttifaqının daxilindəki bəzi problemlərdən danışdınız. Biz də ölkəmizə süni müdaxilələri, Avropa İttifaqından olan siyasətçilərin müdaxilələrini hiss etmişik. Məsələn, 30 il müddətində Avropa İttifaqından olan bəzi siyasətçilər ağızlarına su alıb susmuşdular, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalını sanki görmürdülər. İndi isə onlar süni şəkildə problemlər yaradırlar və Azərbaycana həmlə edirlər. Deyirlər ki, Azərbaycan Ermənistana hücum edərsə, biz Azərbaycana qarşı sanksiyalar tətbiq edəcəyik. Amma bizim xalqımız Avropa İttifaqının bu siyasətçilərindən açıq şəkildə soruşmaq istəyir - niyə sizin bu 30 ildə bizim ərazilərimizin Ermənistanın işğalı altında olduğu zaman səsiniz çıxmırdı. Ona görə də biz çox yaxşı başa düşürük, Sizin problemləri də yaxşı anlayırıq ki, Avropa İttifaqında daxili problemləriniz var. Məhz bunu qeyd etmək istərdim, cənab Baş nazir.*

**Baş nazir Robert Fitso:** Bu cür münasibət Avropa İttifaqının imicini aşağı salır. Bu, ikili standartlardır, çünki Avropa İttifaqında bunlar var. Ukraynadakı müharibəyə gəlincə, Avropa İttifaqının çərçivəsində tez bir zamanda bəzi sanksiyalar tətbiq etmək üçün razılığa gələ bilirik. Amma Qəzzaya gəlincə, razılığa gələ bilmirik. Çünki Avropa İttifaqının öz xarici siyasəti mövcud deyil və Atlantik okeanın o biri sahilinə üz tutur, oraya baxır və ABŞ-nin nə edəcəyini gözləyirik. Sizi Slovakiyanın daxili işləri ilə yormaq istəmirəm. Məni düzgün başa düşün, cənab jurnalist. Bütün Avropa bilir ki, 2000-ci illərdə Slovakiyada müxalifətə qarşı cinayət hüququndan sui-istifadə edilib. O zaman mən də müxalifətdə idim. Məni də cinayət törətməkdə ittiham ediblər və az qala həbs edəcəkdilər. Bu ittihamlar iqtisadi məsələlərə görə deyil, siyasi xarakter daşıyırdı. Avropa İttifaqı və Avropa Komissiyası Slovakiyada olan hadisələr barədə heç nə demədi. Çünki o vaxt Slovakiyada Avropa İttifaqının hər bir dediyini icra edən hökumət var idi. Ukraynadakı müharibə ilə bağlı isə Avropa İttifaqında fərqli düşünürlər. Vəziyyət dəyişir. Təkrar edirəm, bu müharibənin həlli hərb yolu ilə deyil. Sadəcə, Avropada yox, bütün dünyada məsələyə obyektiv baxan qüvvələr var. AŞPA-da nümayəndə heyətiniz olmadan siz hansı dialoqdan söhbət edə bilərsiniz? Cənab Prezidentlə görüşdə mən dedim ki, Avropa İttifaqının tamhüquqlu üzvü olaraq Şengen və avronun bir hissəsiyik. Kiçik ölkəyik, odur ki, hər zaman bizim fikirlərimizi nəzərə almırlar. Təəssüflər olsun ki, Avropa İttifaqında böyük və balaca ölkələrə bölünmüş bir vəziyyət hökm sürməkdədir. Bunu obyektiv şəkildə etiraf etmək lazımdır. Deməliyəm ki, sizin ölkənizlə bağlı Avropa İttifaqında məsələlər müzakirə olunarkən biz öz mövqeyimizi obyektiv şəkildə bildiririk. Mən bunu cənab Prezidentə də açıq şəkildə dedim ki, biz özümüz də Azərbaycan kimi böyük ədalətsizlik yaşamışıq. Çünki Azərbaycanın Avropa İttifaqına iddia etməməsini başa düşürəm. Bu cür hissləri mən dəfələrlə yaşamışam. Biz əməkdaşlığa davam etmək istəyirik.

*AzTV-nin əməkdaşı: Üzr istəyirəm, başqa bir sualımız olacaq. Cənab Baş nazir, Avropanın dəyərlərindən danışarkən Fransa Prezidenti bu məsələ ilə bağlı bilirsiniz nə dedi? O dedi ki, bütün hallarda biz Ermənistanı müdafiə edəcəyik. Ona görə də bilmək istəyirik, "bütün hallarda" ifadəsi nə deməkdir, əgər bir ölkə bizim ərazilərimizi 30 il müddətində işğal altında saxlayıbsa? Bu da bizim Fransa Prezidenti cənab Makrona cavabımızdır. Yəni 2-3 gün bundan əvvəl Fransanın daxili işlər naziri cənab Jerar Darmanən Azərbaycanı ittiham etdi, günahlandırdı. Dedi ki, guya biz Fransada separatizmi dəstəkləyirik. Amma biz nə dedik? Dedik ki, biz insan hüquqlarını, Yeni Kaledoniyada və ya Korsikadakı insanların fundamental hüquqlarını dəstəkləyirik ki, Fransa da bu hüquqları tanımalıdır. Yəni o insanlar bunu tələb edirlər. Onlar sadə xalqlardır. Məsələn, görə bilərsiniz ki, Korsikada etiraz hərəkatları var, mitinqlər keçirilir. Fransanın daxili işlər naziri Azərbaycanı ittiham etdi və dedi ki, guya biz ermənilərə qarşı soyqırımı törətmişik. Bu, ədalətsiz mövqedir, süni xarakter daşıyır və Avropa İttifaqı liderləri tərəfindən irəli sürülmüş bəhanələrdir, cənab Baş nazir. Əlbəttə, bu, bizim insanlara mənəvi cəhətdən çox toxunur. Siz cavablarınızda Avropa İttifaqında daxili məsələlərinizdən danışdınız, ona görə bu sualı Sizə vermək istədim.*

**Baş nazir Robert Fitso:** Cənab jurnalist, ikitərəfli əlaqələrdən bəhs etməyin mənim üçün çətin olduğunu yəqin ki, anlayarsınız. Amma narahat olmayın, sualdan qaçmayacağam. İndi isə təsvir etdiyiniz vəziyyətə tətbiq ediləcək ifadə var: böyük və güclü olan ölkələr çox vaxt ədalətli olmurlar. Amma ədalətli olmaq istəyəndə də böyük və güclü olmursunuz. Bu, beynəlxalq siyasətdə tez-tez görünür. Fransa ilə əlaqələrinizdəki bu gərginliyi görürəm. Sizin ölkənin - Azərbaycanın daxili işlərinə qarışmadığım kimi, Fransanın da daxili işlərinə qarışmıram. Yəni bu, ölkələrin daxili işləridir. Amma Slovakiyanın da daxili işlərinə qarışılarsa, o zaman danışa bilərəm. Məsələn, cənab Makron ölkəmizdə populyar siyasətçi sayılmır və bu prinsipdir ki, mən niyə ondan danışım? Amma Fransa Prezidenti Avropa əsgərlərinin müharibədə iştirakı barədə fikirlərini açıq şəkildə söylədi və mən bunu dərhal, tamamilə rədd etdim. Çünki bu, üçüncü dünya müharibəsinin başlaması olardı. Qaldırdığınız məsələdə bəlkə də bir az səbir lazımdır. Avropa İttifaqında Azərbaycanla baş verənlərlə bağlı çox ölkənin obyektiv yanaşması lazımdır. Ukrayna ilə bağlı da dedim, ərazi bütövlüyü qorunmalıdır. Sizin də ərazi bütövlüyünüzün qorunması lazımdır. Bu, sizin torpaqlarınızdır. Əgər Avropa İttifaqında 3-4 ölkə eyni mövqedən çıxış etsəydi, gərginlik bəlkə də bu səviyyədə olmazdı. Onlar ərazicə balaca ölkənin özünə güvənərək hərəkət etməsini sevmirlər. Bu cür ölkə olmağınızla fəxr etməlisiniz.

*AzTV-nin əməkdaşı: Bu cür çıxışlarınız və səmimi şəkildə dediyiniz sözləriniz üçün Sizə təşəkkür edirəm, cənab Baş nazir.*

*AZƏRTAC-ın əməkdaşı: Mən də Sizə təşəkkür edirəm. Enerji təhlükəsizliyi də Slovakiya və Azərbaycanın prioritetlərindən biridir. Xüsusilə də Azərbaycanın Avropanın enerji təhlükəsizliyi ilə bağlı roluna gəlincə, artıq layihələrdən bəhs edilir. Bu layihələrlə bağlı danışmaq istərdinizmi? Hər hansı təşəbbüslər varmı?*

**Baş nazir Robert Fitso:** Bu layihə ilə bağlı həmrəyliyə gəlincə, böyük həcmdə yatırım lazımdır. Bu, qısamüddətli yox, ortamüddətli həll yoludur. Yəni mən ölkəm Slovakiya üçün "Həmrəylik Halqası"ndan bəhs edirəm. Bu layihələr Avropa İttifaqı fondları və Avropa Komissiyası tərəfindən də maliyyələşdirilməlidir. Macarıstan ilə Bolqarıstan arasında mürəkkəb əlaqələr mövcuddur, axının həcmi aşağıdır. Avropa Komissiyası tərəfindən biz hələ də cavab gözləməkdəyik. Düşünürəm ki, bu layihə orta müddət üçün nəzərdə tutulmalıdır. Buna görə də Avropa istiqamətində Ukrayna və Slovakiya infrastrukturundan istifadə etmək fikri ortaya çıxdı. Yəni bu, oradan gəlməlidir. Biz burada milyardlarla kubmetr tutum həcmi olan borulardan danışırıq. Slovakiyanın istifadəsi üçün 4 və ya 5 milyard kubmetr qaza ehtiyac duyulur. Qalan həcm isə Slovakiyadan tranzit keçərək təbii ki, digər ölkələrə gedə bilər. Rus qazına gəlincə, "Qazprom" və Ukrayna şirkəti arasında müqavilə 2024-cü ildə bitir. Yəni bildiyiniz kimi, müqavilə siyasi və hərbi səbəblərə görə uzadıla bilməz. Ona görə də qazın Azərbaycandan alınmasına qərar verdik. Ukrayna-Rusiya sərhədindən Azərbaycan qazını nəql etmək olar. Beləliklə, tranzit həcm 20 milyard kubmetr təşkil edər. Ukrayna-Azərbaycan-Rusiya əməkdaşlığı sayəsində bu qaz həmin boru ilə Mərkəzi Avropa istiqamətində gedə bilər. Cənab Prezident bu layihəyə maraqla yanaşdı, çünki sizin qazın tranziti üçün o böyük fürsətdir. Prezidentiniz əsl menecerdir, bu layihədən fayda götürməkdə təbii ki, maraqlıdır. Amma təbii ki, bu sahədə də danışıqlara və maliyyəyə ehtiyac var. Əminəm ki, bu unikal layihə Azərbaycan qazının Rusiya, Ukrayna və Slovakiya infrastrukturundan istifadə etməklə Avropaya daşınması üçün çox yaxşı marşrutdur. Bu layihə gözəl nəticələr verə bilər. Neft də Slovakiya üçün önəmlidir. Çünki biz tamamilə Rusiya neftindən asılıyıq. Bildiyiniz kimi, Bratislavada böyük neftayırma zavodu var. Sizin neftin keyfiyyəti də hazırda ölkəmizdə araşdırılır. Mən neft üzrə ekspert deyiləm. Amma sizin neft də seçimlərdən biridir və ola bilər. Buna görə də bu layihə üzrə irəliləmək lazımdır.

Hərbi sahədə olduğu kimi, enerji sahəsində də əməkdaşlıq etmək mümkündür. Slovakiya inkişaf edən bir ölkədir. Bəlkə də külək və günəş enerjisi sahəsində də nələrsə edə bilərik. Yəni bizim ölkə inkişaf edir. Bu sahədə əməkdaşlığa tamamilə hazırıq. Bildiyiniz kimi, bu sahədə bizim böyük təcrübəmiz var. Yəni əlaqələrin inkişafı üçün biz hər zaman hazırıq, təcrübəmizi də sizinlə bölüşə bilərik. Dediyim kimi, istər külək enerjisi olsun, istər günəş enerjisi, istərsə də fotovoltaiklər. Yəni biz bunlara açığıq.

*AzTV-nin əməkdaşı: Cənab Baş nazir, biz sizinlə enerji sektorundakı əməkdaşlıqdan, müdafiə sənayesindən və başqa maraqlı sahələrdən danışdıq. Amma Sizə humanitar sektorla, mədəniyyət sektoru ilə, əməkdaşlıqla bağlı sual vermək istərdim. Çünki bilirsiniz ki, bizim ölkələr və xalqlar arasında tarixi bağlarımız vardır və çox gözəl əlaqələrimiz mövcuddur. Bu sahələrlə bağlı Sizin fikrinizi bilmək istərdik.*

**Baş nazir Robert Fitso:** Bilirsiniz ki, silahların səsi gəldiyi zaman, incəsənətin susduğunu görmək olar, çünki bu zaman incəsənətin inkişafı üçün heç bir imkan olmur. Yenə də Avropa İttifaqını tənqid edəcəyəm. Avropa İttifaqında Rusiyaya qarşı süni nifrət ab-havası yaradılıb. Mən bunu dəfələrlə demişəm, dəfələrlə. Bu yaxınlarda buz üzərində xokkey çempionatı olacaq və Slovakiya komandasının orada iştirak etməyəcəyi barədə söz-söhbətlər gəzir. Yəni bizim oyunçularımız orada ölkəmizi təmsil edə bilməyəcək. Bilirsiniz, Bratislava 1944-cü ildə Qızıl Ordu tərəfindən azad edilib. Mən Belarus və Rusiya səfirlərini bu tədbirə dəvət etdim. Çünki bu iki ölkənin əsgərləri o vaxt Qızıl Ordunu təşkil edib. Sizin ölkənizin nümayəndələri də bu Qızıl Ordunun tərkibində olub. Nə oldu? Avropa İttifaqının səfirləri gəlməkdən imtina etdilər. Rus dilindən və mədəniyyətindən heç danışmaq belə istəmirlər. Söhbət mədəni əlaqələrdən gedir. Sizin hökumətlə Azərbaycanda rus dilinin istifadəsindən danışdıq. Nümayəndə heyətindən mənə belə dedilər ki, Ukrayna ilə müharibə gedir, amma rus dili hərbin dili deyil. Yəni bu dil Ukrayna müharibəsi zamanı yaradılmayıb. Bu gözəl dili Puşkin, Tolstoy kimi insanlar cilalayıb yaradıblar. Siz SSRİ-nin tərkibində olduğunuz üçün ölkənizdə rus dilini yaxşı bilir və bu dildə yaxşı danışırlar. Bu da yaxın mədəni əməkdaşlığa imkan verir. İnsanlar bu dildə ünsiyyət qura bilirlər. Dillər bizi ayırmamalıdır, əksinə, birləşdirməlidir, insanları bir araya gətirməlidir. Əminəm ki, Prezidentiniz Slovakiyaya səfər edərsə, ya da bizim ölkədən kimsə sizin ölkəyə gələrsə, ya Slovakiyada, ya da Bakıdakı səfirliklərimizdə görüşlər olarsa, bu nümayəndə heyətlərinin tərkibində hər zaman təhsil və mədəniyyət sahələrini təmsil edən şəxslər olmalıdır. Beləliklə, mədəni əlaqələri də inkişaf etdirmiş olarıq. Amma indiki səfərin prioriteti iqtisadi məsələlərdir. Çünki ticarət dövriyyəmizin həcmi 75 milyon avro civarındadır və əlbəttə, bu, azdır.

*AzTV-nin əməkdaşı: Cənab Baş nazir, müsahibəmizin sonunda belə bir məşhur ənənəmiz var. Biz sözü qonağımıza veririk ki, o, birbaşa bizim Azərbaycan xalqına müraciət etsin. Buyurun, cənab Baş nazir.*

**Baş nazir Robert Fitso:** Asan iş deyil, çünki jurnalistlər müsahibənin axırında son sözü deməyi hər zaman siyasətçilərin öhdəsinə buraxırlar. Azərbaycana ilk səfərimdir. Əvvəllər gəlməyə heç vaxt fürsətim olmayıb. Səfərim bir gün çəkdi. Bu səfərin böyük hissəsi danışıqlara həsr olundu. Bakını təyyarə enərkən səmadan gördüm. Amma hava buludlu idi. Şəhidlər xiyabanında olduq, Vətən uğrunda mübarizə apararkən qətlə yetiriliblər. Təbii ki, biz Şəhidlər xiyabanında onların xatirəsini yad etdik.

Cənab Prezident və nümayəndə heyəti ilə danışıqlar barədə deyə bilərəm ki, çox gözəl insanlar gördüm, müdrik insanlardır. Əminəm ki, ölkənizin insanları da belədir. Buna görə də ölkənizi təbrik etmək istəyirəm. Ölkənizə gəlməmişdən əvvəl onun haqqında çox oxudum. Nail olduğunuz uğurlar valehedicidir və suverenliyinizi bərpa etmisiniz, öz yolunuzu seçmisiniz. Sizin üçün nəyin ən yaxşı olduğunu özünüz yaxşı bilirsiniz. Suveren və məğrur xalqınız var. Qonaqpərvərliyə görə Slovakiya nümayəndə heyəti adından sizə bir daha təşəkkür etmək istərdim. Çox dostcasına qarşılandım. Təyyarədən endiyim andan etibarən bunu hiss etdim. Bütün bunlar üçün sizə dərin təşəkkürümü bildirirəm. Mənə verdiyiniz fürsət üçün də sizə təşəkkür edirəm.

*AzTV-nin əməkdaşı: Çox maraqlı və faydalı müsahibə üçün təşəkkür edirəm, cənab Baş nazir. Bu, bizim televiziya və eyni zamanda AZƏRTAC üçün çox önəmli müsahibə idi. Sizdən müsahibə almaq bizim üçün həm zövq, həm də böyük şərəfdir, cənab Baş nazir, təşəkkür edirəm.*

**Baş nazir Robert Fitso:** Mən sizə təşəkkür edirəm, sağ olun.

# "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 8-ci və 20-ci bəndlərini rəhbər tutaraq, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797 (Cild I); 2024, № 1, maddə 7) 6.3.4-cü və 9.7-ci maddələrinə "fövqəladə vəziyyət" sözlərindən sonra ", sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

**Maddə 2.** "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 415 (Cild I) 18-ci maddəsinin ikinci hissəsinə "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

**Maddə 3.** "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 137 (Cild I) 19-cu maddəsinin II hissəsinə "Fövqəladə vəziyyət" sözlərindən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

**Maddə 4.** "Əhalinin radiasiya təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 138 (Cild I) 7-ci maddəsinin üçüncü hissəsinə "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

**Maddə 5.** "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 649 (Cild I) 8-ci maddəsinin VIII hissəsinə "Fövqəladə vəziyyət" sözlərindən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

**Maddə 6.** "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 3 (Cild I) 22.3-cü maddəsinə "Fövqəladə vəziyyət" sözlərindən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

**Maddə 7.** "Media haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 90 (Cild I) 7-ci maddəsinə "Fövqəladə vəziyyət" sözlərindən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

**Maddə 8.** "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 25 (Cild I) 8.10-cu maddəsinin ikinci cümləsinə "Fövqəladə vəziyyət" sözlərindən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2024-cü il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18; Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1069-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 43.1-ci maddədə "517, 517-1, 517-2" rəqəmləri "517-3" rəqəmləri ilə əvəz edilsin.
2. 517.0-cı maddənin sanksiyasında "qırx manatdan səksən" sözləri "yüz əlli manatdan iki yüz əlli" sözləri ilə, "on beş günədək" sözləri "bir ayadək" sözləri ilə, birinci halda "beş yüz" sözləri "altı yüz" sözləri ilə əvəz edilsin.
3. 517-1.1-ci maddənin sanksiyasında "əlli manatdan səksən" sözləri "iki yüz manatdan üç yüz" sözləri ilə, "miqdarda" sözü (hər üç halda) "məbləğdə" sözü ilə, "on beş günədək" sözləri "bir ayadək" sözləri ilə, "altı" sözü "yeddi" sözü ilə əvəz edilsin.
4. Aşağıdakı məzmunda 517-3-cü maddə əlavə edilsin:

"Maddə 517-3. Sosial xarakterli fövqəladə mühit rejiminin tətbiqi zamanı davranış qaydalarına riayət edilməməsi

Sosial xarakterli fövqəladə mühit rejiminin tətbiq edildiyi zaman müəyyən edilmiş davranış qaydalarına riayət edilməməsinə görə -

fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2024-cü il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1116-VIQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1116-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 517-3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1116-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2024-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 fevral tarixli 1819 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 fevral tarixli 1819 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 183 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin Nizamnaməsi"nin 1.6-cı bəndində "üzərində öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları, loqotipi (emblemi)" sözləri "öz adı və "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, həmçinin Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, müvafiq ştampları və blankları" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2024-cü il*

# "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 158-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 859 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 158-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 859 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 664 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 fevral tarixli 2464 nömrəli Fərmanı) 2-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2024-cü il*

# "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 21 fevral tarixli, 679 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 769 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 489 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində xidməti və mülki silahın satış Qaydaları"nın 16-cı hissəsinə "Fövqəladə vəziyyət" sözlərindən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş "Silahın geri alınması Qaydaları"nın 13-cü hissəsinə "Fövqəladə vəziyyət" sözlərindən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 3 aprel tarixli 74 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 219 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi haqqında Əsasnamə"nin 8.12-ci bəndinə "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

3. "Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığının fəaliyyəti Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 3 noyabr tarixli 1872 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1249 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. preambulaya "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin;

3.2. həmin Fərmanla təsdiq edilmiş "Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığının fəaliyyəti Qaydası"nın 1.1-ci və 1.3-cü bəndlərinə "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

4. "Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə yaradılan müvəqqəti xüsusi idarəetmə orqanı haqqında Əsasnamə"nin və "Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə yaradılan mərkəzi idarəetmə orqanı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 3 noyabr tarixli 1873 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1250 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. preambulaya "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin;

4.2. həmin Fərmanla təsdiq edilmiş "Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə yaradılan müvəqqəti xüsusi idarəetmə orqanı haqqında Əsasnamə"nin 1.1-ci və 1.3-cü bəndlərinə "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin;

4.3. həmin Fərmanla təsdiq edilmiş "Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə yaradılan mərkəzi idarəetmə orqanı haqqında Əsasnamə"nin 1.1-ci və 1.3-cü bəndlərinə "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2024-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 247** QƏRAR **Bakı şəhəri, 6 may 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nda dəyişiklik edilməsi haqqında

"Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1070-VIQD nömrəli Qanununun tətbiqi və "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 may tarixli 161 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 4 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869 (Cild I); 2024, № 1, maddə 80; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 mart tarixli 130 nömrəli və 3 aprel tarixli 197 nömrəli qərarları) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 12-ci hissəsində "su limanı sahəsində xidmətlər (liman qurğularının istismarı, və yükaşırma)" sözləri "dəniz limanı xidmətləri (dəniz limanı qurğularının istismarı və yükaşırma daxil olmaqla)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Baş nazirin müavini Şahin Mustafayev İranın Azərbaycandakı səfiri ilə görüşüb

Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev mayın 7-də ölkəmizdə diplomatik fəaliyyət müddətinin başa çatması ilə əlaqədar İran İslam Respublikasının səfiri Seyid Abbas Musəvi ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə İran arasında siyasi, iqtisadi-ticari, energetika, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri müzakirə olunub. Baş nazirin müavini Şahin Mustafayev səfir Seyid Abbas Musəviyə gələcək fəaliyyətində uğurlar arzulayıb.

# Bakıda Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupun yeddinci iclası olub

**Mayın 6-7-də Bakıda Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupun (YSİQ) yeddinci iclası keçirilib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, danışıqlarda Azərbaycan Respublikası (nümayəndə heyətinin rəhbəri - S.Şərifov), İran İslam Respublikası (nümayəndə heyətinin rəhbəri - A.Cahangiri), Qazaxıstan Respublikası (nümayəndə heyətinin rəhbəri - Z.Amanjolova), Rusiya Federasiyası (nümayəndə heyətinin rəhbəri - M.Petrakov) və Türkmənistanın (nümayəndə heyətinin rəhbəri - M.Atacanov) nümayəndə heyətləri iştirak ediblər. İclasa Azərbaycan nümayəndə heyətinin rəhbəri S.Şərifov sədrlik edib.

Tədbirdə tərəflər Xəzər dənizində düz çıxış xətlərinin çəkilməsi metodikasının müzakirəsini davam etdiriblər.

İclasda həmçinin Xəzər dənizində əməkdaşlığın icmalı baş tutub.

Nümayəndə heyətləri görüşün yüksək səviyyədə təşkilinə görə Azərbaycana minnətdarlıqlarını bildiriblər.

YSİQ-nin növbəti iclası iyunun 24-27-də İranda keçiriləcək.

# Azərbaycanın iqlim dəyişikliyi üzrə İkiillik Şəffaflıq Hesabatının hazırlanmasına dəstək təlimi keçirilib

Azərbaycanın COP29-a sədrliyi çərçivəsində mayın 6-7-də Bakı şəhərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) ekspertləri tərəfindən Paris sazişinə uyğun olaraq Təkmilləşdirilmiş Şəffaflıq Çərçivəsinin (ETF) əsas komponenti olan İkiillik Şəffaflıq Hesabatının (BTR) hazırlanmasına dəstək məqsədilə aidiyyəti dövlət qurumlarının iştirakı ilə təlim keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın xarici işlər nazirinin müavini, COP29-un baş danışıqçısı Yalçın Rəfiyev tədbirin açılış mərasimində çıxış edərək tərəf dövlətlərin, o cümlədən Azərbaycanın İkiillik Şəffaflıq Hesabatlarını təqdim etməsinin COP29 sədrliyinin prioritet istiqamətlərindən biri olduğunu vurğulayıb. Bununla əlaqədar o, ölkəmizin müvafiq dövlət qurumlarını qısa zamanda Azərbaycanın İkiillik Şəffaflıq Hesabatının hazırlanmasına töhfə verməyə çağırıb.

İkigünlük təlim zamanı UNFCCC katibliyinin nümayəndələri ETF-nin əsas elementləri, bu sahədə modallıqlar, prosedurlar və təlimatlar, eləcə də İkiillik Şəffaflıq Hesabatlarının hazırlanması prosesində yeni elektron proqram təminatından istifadə ilə bağlı iştirakçılara məlumat veriblər.

# Azərbaycanın Baş naziri Əli Əsədov Türkiyəyə rəsmi səfərə gedib





Mayın 7-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasına rəsmi səfərə gedib. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

# Baş nazir Əli Əsədov Ankarada Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib





Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və rəhbərlik etdiyi nümayəndə heyəti mayın 7-də Ankarada Heydər Əliyev Parkını ziyarət edib.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Əli Əsədov Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə əklil qoyub.

# Baş nazir Əli Əsədov Ankarada Anıtqəbri ziyarət edib





**Türkiyədə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti mayın 7-də Ankarada Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni - Anıtqəbri ziyarət edib.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Əli Əsədov Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoyub. Türk dünyasının böyük oğlunun əziz xatirəsi yad edilib.

Baş nazir Anıtqəbrin Xatirə kitabına ürək sözlərini yazıb.

# Azərbaycanın Baş naziri Əli Əsədov Türkiyə mediasına müsahibə verib





**Keçən il fevralın 6-da Kahramanmaraşda baş verən zəlzələnin nəticələri Türkiyə xalqı ilə yanaşı, Azərbaycan xalqını da dərindən kədərləndirib.**

Prezident İlham Əliyevin dərhal verdiyi reaksiyaya əsasən qərara alınmışdır ki, Kahramanmaraşda Azərbaycan məhəlləsi inşa olunsun.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyə Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 7-də jurnalistlərə müsahibəsində deyib. O bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mən işlərin gedişi ilə tanış olmaq üçün bu gün Kahramanmaraşa gəlmişəm. İşlər normal gedir, qrafikə uyğun olaraq icra olunur.

Baş nazir Azərbaycan məhəlləsindəki 20 sinif otağından ibarət 300 şagird yerlik Heydər Əliyev Məktəbinin tikintisi ilə də maraqlandı.

Qeyd olunub ki, Kahramanmaraşda Azərbaycan məhəlləsində məktəb Ulu Öndər Heydər Əliyevin adını daşıyacaq. Həm Azərbaycan məhəlləsi, həm də Ulu Öndər Heydər Əliyevin adını daşıyan məktəbin inşası ən yüksək keyfiyyətlə icra olunmalıdır və olunur.

Əli Əsədov inşaatçılarla da söhbət etdi. Baş nazirə məlumat verildi ki, onların arasında əsrin fəlakəti nəticəsində yaxınlarını itirən, evləri dağılan şəxslər də var.

# Baş nazir Əli Əsədov Kahramanmaraşda "Azərbaycan məhəlləsi"ndə aparılan tikinti işlərinin gedişi ilə tanış olub













**Türkiyə Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 7-də Kahramanmaraş vilayətində "Azərbaycan məhəlləsi"ndə aparılan tikinti işlərinin gedişi ilə tanış olub.**

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.

Bildirilib ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, ölkəmiz 2023-cü il fevralın 6-da Türkiyədə baş verən dağıdıcı zəlzələdən zərər çəkmiş Kahramanmaraş vilayətində yeni məhəllənin tikintisinə dəstək göstərib.

2023-cü il sentyabrın 25-də Naxçıvan şəhərində bununla bağlı imzalanmış hökumətlərarası Əməkdaşlıq Sazişinə uyğun olaraq layihənin həyata keçirilməsi üçün Azərbaycan hökuməti tərəfindən 100 milyon ABŞ dolları məbləğində vəsait ayrılıb.

Azərbaycan tərəfinin icraçı qurumu olan Mənzil İnşaatı Dövlət Agentliyi İdarə Heyətinin sədri Sadiq Sadıqov layihə çərçivəsində görülən tikinti işlərinin gedişi barədə Baş nazir Əli Əsədova məlumat verib.

Baş nazir tikinti işlərinin vaxtında və yüksək keyfiyyətlə həyata keçirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

# Addım-addım sülhə doğru

## Delimitasiya uğurla davam edir

**Ermənistan ilə Azərbaycan arasında sülh sazişinin imzalanması istiqamətində ardıcıl addımlar atılır. Diplomatik müstəvidə mühüm görüşlər keçirilir, sərhədlərin delimitasiya və demarkasiyası uğurla davam etdirilir.**

Baş nazirin müavini Şahin Mustafayevin Xidmətinin məlumatına görə, Azərbaycan ilə Ermənistan arasındakı sərhəddə koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində aparılan geodeziya ölçmələri əsasında artıq 40 sərhəd dirəyi quraşdırılıb. İki dövlətin ekspert qruplarının işi davam edir.

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində Prezident İlham Əliyev də bildirdi ki, indi biz müsbət tendensiyaya və sülhə doğru gedirik, sərhədlərin delimitasiyası başlayıb: "Buna iki ölkə tərəfindən hər hansı bir vasitəçi olmadan nail olunub".

### Davamlı təşəbbüs və səylər

İki ölkə arasında birbaşa görüşlərin keçirilməsi, dialoqların aparılması böyük əhəmiyyət kəsb edir. Belə ki, bu ilin fevralında Almaniyada həm Ermənistan və Azərbaycan liderlərinin, həm də xarici işlər nazirlərinin ikitərəfli görüşləri keçirilib, sülh sazişi üzrə müzakirələr aparılıb. Bu görüşlər sayəsində sülh müqaviləsinin imzalanması istiqamətində yuxarıda sadalanan irəliləyişlərə nail olunub. Azərbaycan və Ermənistan XİN rəhbərlərinin növbəti görüşü isə mayın 10-da Qazaxıstanın Almatı şəhərində keçiriləcək. Siyasi proqnozlara əsasən, Almatı görüşünün də məhsuldar keçəcəyi gözlənilir.



Göründüyü kimi, Azərbaycanın qazandığı qələbələr bölgədə münaqişələrdən uzaq, təhlükəsiz yaşam vəd edən sülh üçün münbit tarixi şərait formalaşdırıb. Postmünaqişə dövründə iki ölkə arasında sülhün əldə olunması üçün fəal iş həyata keçirən Bakı İrəvana təkmil sülh modeli təklif edib. Cənubi Qafqazda davamlı sülhün əldə edilməsi üçün Azərbaycan tərəfinin təşəbbüs və səylər göstərməsi artıq uğurlu bəhrəsini verməyə başlayıb.

"Münaqişədən sonrakı vəziyyətə gəldikdə, bir daha deyirəm, Azərbaycan çox fəal çalışır, Azərbaycan məhz Ermənistana sülh sazişi ilə bağlı danışıqlara başlamaq təşəbbüsünü irəli sürdü. Azərbaycan məhz o ölkədir ki, baza prinsiplərini, hətta sülh sazişinin layihəsini hazırladı", - deyə yuxarıda sözügedən forumda dövlətimizin başçısı da vurğuladı ki, indi iki ölkə arasında danışıqlar gedir və bu danışıqlar bizim təkliflərin layihəsi üzərində aparılır.

Qeyd edək ki, razılaşmaya əsasən, Qazax rayonunun işğal altında olan kəndləri - Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin qeyd-şərtsiz qaytarılması məsələsini Prezident İlham Əliyev hələ 2020-ci ildə qaldırmış və ötən müddətdə bu mövzu daim gündəlikdə saxlanılmışdı. Əldə olunmuş razılıq delimitasiya istiqamətində atılan ilk addımdır və delimitasiyanın məhz bu istiqamətdən başlaması Azərbaycanın təkidi ilə olub. Delimitasiya prosesində 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanılacaq.

Dörd qeyri-anklav kəndin qaytarılması ilə bağlı əldə olunan razılaşma NATO, BMT kimi nüfuzlu beynəlxalq təşkilatlar, eyni zamanda Böyük Britaniya, Almaniya, İsveç, Norveç və digər ölkələr tərəfindən alqışlandı, bu, sülh prosesində mühüm addım kimi qiymətləndirildi.

### Münaqişə planları iflasa uğradıldı

Gerçəklikdir ki, ötən müddət ərzində qərəzli Qərb təsisatlarının Azərbaycanın sülh təşəbbüslərinə kölgə salmaq cəhdləri, Ermənistana siyasi, hərbi dəstək verərək müharibə avantürasına qapılmasına rəvac vermələri regionu təhlükəyə sürükləmək məqsədi güdüb. Cənubi Qafqazda ayırıcı xətlər cızmaq istəyən başda ABŞ və Fransa olmaqla bölgədə maraqları olan bəzi Qərb ölkələri Azərbaycan ilə Ermənistan arasında danışıqlar aparılmaması, razılaşmalar əldə edilməməsi, bir sözlə, sülhə nail olunmaması üçün əllərində olan bütün rıçaqlardan istifadə edərək pozucu fəaliyyətlə məşğul olublar. Korrupsiya yuvasına çevrilmiş Avropa Parlamenti kimi qərəzli beynəlxalq təşkilatlarda Azərbaycana qarşı bədnam qətnamələrin qəbulundan tutmuş, adını müstəqil media qoyub, sadəcə, siyasi sifarişlər yerinə yetirməklə məşğul olan riyakar beynəlxalq KİV vasitəsilə aparılan qarayaxma kampaniyalarına qədər, bütün çirkinliklərə əl atıblar.

Xüsusilə də riyakarlıqla sülh prosesində vasitəçi adı altında iştirak etmək üçün dəridən, qabıqdan çıxan Fransa faktiki olaraq barışa əngəl olmaq, dialoqu əngəlləmək üçün əlindən gələn hər şeyi edib. O da reallıqdır ki, Parisin məkrli həmləri hər dəfəsində Bakı tərəfindən fiaskoya uğradılıb. Neolonialist ölkənin müstəmləkəçi əməlləri kimi, Cənubi Qafqazda koloniya yaratmaq planları da ifşa olunub. Makron hakimiyyətinə başa salınıb ki, Azərbaycan bölgədə ikiüzlü oyunlara heç zaman imkan verməyəcək.

Dövlət başçısı da beynəlxalq forumda qeyd etdi ki, bizə vasitəçi lazım deyil. Xüsusən də o insanlar ki, məhz öz məqsədlərini güdürlər və yardım etmək istəmirlər. Onlar bizim bölgəyə öz fərdi, siyasi və iqtisadi maraqları naminə müdaxilə etmək istəyirlər. Onlar həmin alova yenidən odun atmaq istəyirlər: "Biz Cənubi Qafqazda buna icazə verməyəcəyik, imkan verməyəcəyik".

Necə ki, Azərbaycan hərbi gücü ilə torpaqlarının 30 illik işğalına son qoyub, suverenliyini tam bərpa edib, eləcə də siyasi qətiyyəti ilə bölgədə sülhü təmin edəcək. Cənubi Qafqazda sülhün bərqərar olması yalnız Azərbaycanla Ermənistan arasında normallaşma vasitəsilə həll oluna bilər.

Delimitasiya ilə bağlı görülən işlər, ikitərəfli dialoqlar vasitəsilə masa arxasında əldə edilən razılaşmalar göstərir ki, ötən müddətdə xarici himayədarlarının yalan vədlərinə aldanıb sülhdən yayınan Ermənistan da artıq reallıqları aydın şəkildə anlayır və sülhdən başqa çıxış yolu olmadığını yaxşı bilir.

***Yasəmən MUSAYEVA,
"Azərbaycan"***

Milli Məclisin iclasında

# Ulu Öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin güclü təməllərini yaratmışdır

*Əvvəli 1-ci səh.*

"Heydər Əliyev dünya miqyaslı siyasi və dövlət xadimi idi. Onu dünyanın ən böyük siyasətçiləri və dövlət adamları ilə müqayisə etmək olar. Ulu Öndər mənsub olduğu xalqı yeni minilliyə, qloballaşma əsrinə hazırlayıb çatdıran bir liderdir" - deyə Milli Məclisin Sədri bildirib.

Ümummilli Liderin başladığı möhtəşəm işlərin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini deyən Sahibə Qafarovanın sözlərinə görə, son iyirmi bir il Azərbaycanın dövlətçilik tarixinə dinamik və hərtərəfli inkişaf dövrü kimi daxil olmuşdur. Ölkə həyatının bütün sahələrində böyük uğurlar, misilsiz və qürurverici qələbələr əldə edilmişdir: "Azərbaycanın zəngin iqtisadi, siyasi və hərbi potensialı yaradılmışdır. Bu isə xalqımızın və dövlətimizin müqəddəratı ilə bağlı olan ən mühüm problemi həll etməyə imkan vermişdir.

Müzəffər Ali Baş Komandanın sərkərdəlik məharəti və Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzmi və rəşadəti 44 günlük Vətən müharibəsində tarixi qələbəni təmin etmişdir. Ötən ilin sentyabr ayında həyata keçirilmiş bir günlük antiterror tədbirləri isə Azərbaycanın suverenliyini onun bütün ərazisində bərpa etməyə şərait yaratmışdır. Bu böyük uğur Vətən müharibəsində əldə edilmiş Zəfərin məntiqi davamı və yekunu olmuşdur.

30 ilə yaxın Ermənistanın işğalı altında qalan Azərbaycan torpaqlarının azad edilməsi ilə Ümummilli Liderin ən böyük arzusu həyata keçmiş, onun başladığı tarixi missiyanın önəmli bir istiqaməti layiqincə sona çatdırılmışdır".

Milli Məclis Sədrinin sözlərinə görə, biz bir məqamı da həmişə qürurla vurğulayırıq ki, 1993-cü ilin iyununda Heydər Əliyev böyük siyasətə qayıdışa bu binada başlamış, dörd aya yaxın Azərbaycan parlamentinin sədri vəzifəsində çalışmışdır: "Ulu Öndərin sayəsində yeni inkişaf səviyyəsinə yüksəlmiş parlamentarizm ənənələri bu gün dövlət başçısının qayğısı və Milli Məclis deputatlarının birgə səyləri ilə daha da inkişaf etdirilir".

Sahibə Qafarova daha sonra qeyd edib ki, mayın 10-da Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 20 ili tamam olur: "Fondun yaradılması Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, Azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gəlmişdir.

Heydər Əliyev öz həyatının mənasını xalqa xidmət etməkdə, xalq yolunda hər bir çətinliyə hazır olmaqda görürdü. Onun adını daşıyan fond da öz fəaliyyətində bu ali idealları rəhbər tutur".

Diqqətə çatdırılıb ki, bu gün milyonların sevgisini qazanmış Heydər Əliyev Fondunun nailiyyətlərinin təməlində fondun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın birinci xanımı, Azərbaycan Mədəniyyəti Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müstəsna təşkilatçılıq qabiliyyəti və rəhbərlik məharəti, yüksək səriştəsi və peşəkarlığı, böyük zəhməti və fədakarlığı dayanır. Onun hər bir məsələyə yaradıcı münasibəti, insanları vahid məqsəd naminə səfərbər etmək bacarığı, humanizmi və səmimiyyəti fondun hamıya yaxşı tanış olan simasını müəyyən edir.

"Fəaliyyətə başladığı ilk gündən Heydər Əliyev Fondu həm Azərbaycanda, həm də ölkəmizin hüdudlarından kənarda sosial rifahın, mədəni inkişafın dəstəklənməsinə, humanizm, mərhəmət və birlik ideallarının reallaşmasına yönələn çoxsaylı təşəbbüslərin ön sırasında olmuşdur. Fondun fəaliyyətinin ən mühüm istiqamətləri elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə, idmanın inkişafına, sosial müdafiənin gücləndirilməsinə, ekoloji mühitin yaxşılaşdırılmasına, informasiya-kommunikasiya texnologiyalarının inkişafına dair proqramların və layihələrin gerçəkləşdirilməsi ilə bağlıdır.

Milli-mənəvi dəyərlərə, humanizm prinsiplərinə sadiq olan gənc nəslin formalaşdırılması, gender bərabərliyinin təmin edilməsi, sivilizasiyalararası dialoqa rəvac verilməsi, Qarabağda işğal dövründə talan edilmiş abidələrimizin bərpası, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması fondun fəaliyyətində önəmli yer tutur.

Bildirilib ki, Azərbaycan barəsində doğru-düzgün məlumatların yayılması və dövlətimizin milli maraqlarının qorunması istiqamətində ən uğurlu layihələrdən biri Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə aparılan "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyasıdır. Bir çox dünya ölkələrini əhatə edən bu kampaniya Xocalı həqiqətlərinin dünyada yayılmasına, cinayətkarların beynəlxalq ifşasına yönələn tədbirlərin vahid konsepsiyası əsasında sistemli şəkildə həyata keçirilmişdir.

Bu sahədə görülən məqsədyönlü tədbirlərin nəticəsidir ki, Xocalı soyqırımı ətrafında qurulmuş informasiya blokadası yarılmış, İslam Əməkdaşlığı Təşkilatının Parlament İttifaqı, bir çox ölkələrin parlamentləri Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğunu təsdiq etmiş və bir sıra ölkələrin parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləmişlər" - deyə Sahibə Qafarova bildirib.

Milli Məclis Sədrinin sözlərinə görə, Heydər Əliyev Fondunun fəaliyyətinin ana xətlərindən biri olan xeyriyyəçilik missiyası xüsusi qeyd edilməlidir. Dara düşən, yardıma ehtiyacı olan insanların Heydər Əliyev Fonduna pənah aparması cəmiyyətin fond rəhbərliyinə dərin inamından irəli gəlir. Minlərlə insanın sağlamlığının bərpa edilməsi, ağır xəstəliklərə düçar olan uşaqların, sənət adamlarının, ziyalıların xarici ölkələrdə müalicə etdirilməsi xalqımızın ən yüksək milli-mənəvi dəyərlərindən olan humanizmin və xeyirxahlığın parlaq ifadəsidir.

Qeyd olunub ki, Heydər Əliyev Fondu İkinci Qarabağ müharibəsində qələbəmizə mühüm töhfələr vermişdir. Xalqın dövlət başçısı ətrafında yumruq kimi birləşməyə çağırılması, cəbhədə işğalçılara qarşı döyüşən, şəhid olan və yaralanan əsgər və zabit valideynlərinə hərtərəfli dəstək göstərilməsi tarixi Zəfərimizi təmin edən amillərdən biridir.

Bu gün Heydər Əliyev Fondu işğaldan azad olunmuş ərazilərimizin bərpası prosesində yaxından iştirak edir, Qarabağ müharibəsi əlillərinə, şəhid ailələrinə, veteranlara böyük diqqət və qayğı göstərir. Müharibədə yaralanan qazilərimiz yüksək texnologiyalı protezlərlə təmin olunur, zərurət yarandıqda yaralı hərbçilərimizin xaricdə müalicəsi təşkil edilir, onların sosial durumunun yaxşılaşmasına kömək göstərilir.

Heydər Əliyev Fondunun beynəlxalq fəaliyyətinin dünyanın müxtəlif bölgələrini əhatə etdiyini deyən Milli Məclisin Sədri bildirib ki, bir çox ölkələrdə fondun nümayəndəlikləri fəaliyyət göstərir: "Heydər Əliyev Fondu xarici ölkələrdə təbii fəlakət nəticələrinin aradan qaldırılmasına yardım göstərmiş, məktəblərin inşasını, yenidən qurulmasını və əsaslı təmirini, dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrinin bərpasını təmin etmişdir. Bu gün Azərbaycanın yumşaq gücünü təcəssüm etdirən Heydər Əliyev Fondu geniş bir coğrafiyada humanizm və mərhəmətin simvolu kimi qəbul olunur".

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Prezident İlham Əliyev Heydər Əliyev Fondunun fəaliyyətini çox yüksək qiymətləndirmişdir. O, ölkə Prezidentinin Heydər Əliyev Fondu ilə bağlı bu fikirlərini diqqətə çatdırıb: "Fondun xətti ilə aparılan işlər, görülən tədbirlər, irəli sürülmüş təşəbbüslər göz qabağındadır.

... Bu fond sübut etdi ki, əgər istək olarsa, əgər iradə olarsa və əgər xoş niyyət olarsa, istənilən sahədə istənilən məsələ həll oluna bilər.



Fondun çoxşaxəli fəaliyyətini əgər bir sözlə xarakterizə etmək mümkündürsə, mən "Xoş niyyət" deyərdim. Çünki bütün sahələrdə biz bunu görürük".

Milli Məclis Sədrinin sözlərinə görə, əminliklə söyləmək olar ki, Heydər Əliyev Fondu başladığı bütün layihələri və proqramları eyni əzmlə davam etdirəcək və bununla birlikdə, yeni təşəbbüslər irəli sürəcək, özünün böyük potensialından xalqın və dövlətin maraqları naminə səmərəli surətdə istifadə edəcəkdir.

Sonra spiker təklif edib ki, Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 20 illiyi münasibətilə fondun prezidenti Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubu göndərək, şərəfli və nəcib missiyanın həyata keçirilməsində Mehriban xanım Əliyevaya və fondun kollektivinə yeni böyük uğurlar arzulayaq. Spikerin təklifi alqışlarla qarşılanıb.

Sahibə Qafarova Heydər Əliyev Fondunun yubileyi münasibətilə deputat Soltan Məmmədovun təqdimat hazırladığını bildirib və deputatları bu təqdimatla tanış olmağa dəvət edib.

Deputat Soltan Məmmədov Heydər Əliyev Fondunun 20 illik fəaliyyətinə həsr olunmuş təqdimatla çıxış edib. Millət vəkilinin çıxışı zamanı fondun gördüyü işlərdən bəhs olunan fotogörüntülər nümayiş etdirilib.

Soltan Məmmədov diqqətə çatdırıb ki, Heydər Əliyev Fondu görkəmli dövlət xadimi, müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin zəngin irsinin, milli dövlətçilik ideyalarının təşviqi, gələcək nəsillərə çatdırılması, xalqımızın milli-mənəvi dəyərlərinin, ənənələrinin təbliği, ölkəmizin sosial-iqtisadi inkişafına töhfə vermək məqsədilə yaradılıb. O, qeyd edib ki, fondun çoxşaxəli fəaliyyətini ümumbəşəri dəyərlərə, milli, dini və mədəni irsə dərin ehtiramın ifadəsi kimi bir neçə mühüm aspektdən qiymətləndirmək mümkündür. Sosial-humanitar sahədə fondun gördüyü işlər təhsil, səhiyyə, ekologiya, idman və ehtiyacı olan insanlara qayğı kimi istiqamətləri əhatə edir. Həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində 100 mindən çox şagirdin təhsil aldığı 500-ə yaxın məktəb binası inşa edilib və yenidən qurulub. "Təhsilə dəstək" layihəsi artıq neçə illərdir uğurla davam edir. Səhiyyə sahəsində fondun proqram və layihələri çərçivəsində Bakıda Psixonevroloji Uşaq Mərkəzi, Talassemiya Mərkəzi, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Reabilitasiya Mərkəzi, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzi, Autizm spektr pozuntulu uşaqlar üçün Bərpa Mərkəzi və bir sıra digər tibb müəssisələri inşa olunub. Pandemiya dövründə fondun prezidenti Mehriban xanım Əliyevanın tapşırığına əsasən, müxtəlif ölkələrdən gətirilən tibbi ləvazimatlar müvafiq tibb müəssisələrinə təqdim olunub. Fond təhsildə fərqlənən, valideyn himayəsindən məhrum uşaqları, şəhid ailələrini, müharibə veteranlarını və müharibə əlillərini hər zaman diqqət mərkəzində saxlayır. Həmçinin ekoloji tarazlığın qorunması, nəsli kəsilməkdə olan heyvan və bitki növlərinin mühafizəsi, əhali arasında ekoloji təbliğatın gücləndirilməsinə də xüsusi diqqət yetirir.

Təqdimatda Heydər Əliyev Fondunun mədəni irsimizin qorunması, tanıdılması və multikultural dəyərlərin təbliği istiqamətində təqdirəlayiq fəaliyyət göstərdiyi vurğulanıb. Bildirilib ki, fondun təşəbbüsü ilə Beynəlxalq Muğam Mərkəzi, Müasir İncəsənət Muzeyi, Azərbaycan Xalça Muzeyi və bir sıra digər mədəniyyət obyektləri inşa olunub, dünyanın bir sıra ölkələrində Azərbaycan Mədəniyyət Mərkəzləri yaradılıb. Fondun təşkil etdiyi beynəlxalq festivallar mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə öz töhfəsini verir. Sivilizasiyalar arasında dialoqun dərinləşməsinə xidmət edən "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi xüsusi əhəmiyyət kəsb edir. Fond Almaniyada, Bolqarıstanda, Vatikanda, Romada bir çox muzey və digər tarixi abidələrin bərpasına və təmirinə də öz töhfəsini verib. Eyni zamanda Bakıda və regionlarda yerləşən bir sıra məscidlərdə əsaslı təmir və yenidənqurma işləri aparılıb.

Soltan Məmmədov Heydər Əliyev Fondunun fəaliyyətinin digər bir mühüm aspektinin həyata keçirilən layihələrin tarixi-ideoloji və siyasi məzmunu ilə bağlı olduğunu vurğulayıb. O bildirib ki, XX əsrin ən dəhşətli soyqırımı hadisələrindən biri olan Xocalı faciəsinin acı nəticələrinin, Ermənistanın ölkəmizə vurduğu ekoloji, sosial-psixoloji, iqtisadi və maddi-mənəvi zərərin aradan qaldırılması fondun daim diqqət mərkəzində saxladığı mövzulardır. İşğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən bərpa-quruculuq işlərində də fond fəal iştirak edir. Bununla yanaşı, Heydər Əliyev Fondu İSESCO, UNESCO, BMT-nin İnkişaf Proqramı, ÜST, UNICEF və digər beynəlxalq təşkilatlarla birgə əməkdaşlıq çərçivəsində mədəniyyət, səhiyyə, uşaqların müdafiəsi ilə bağlı layihələr reallaşdırıb.

Soltan Məmmədov Heydər Əliyev Fondunun 20 illiyinin parlament platformasında qeyd edilməsinə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürünü bildirib.

Sonra iclasın gündəliyi qəbul olunub və cari məsələlərlə bağlı müzakirələr aparılıb.

Müzakirələrdə komitə sədrləri Zahid Oruc, Tahir Rzayev, Fazil Mustafa, deputatlar Musa Qasımlı, Vüqar Bayramov, Sahib Alıyev, Kamal Cəfərov, Etibar Əliyev, Qüdrət Həsənquliyev, Azay Quliyev çıxış ediblər. Millət vəkilləri Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət və siyasi xadim, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin doğum günü, Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətinin 20-ci ildönümü ilə bağlı fikirlərini bölüşüblər.

Çıxışlarda Ümummilli Liderin Azərbaycan dövləti və xalqı qarşısındakı tarixi xidmətləri vurğulanıb. Heydər Əliyevin fəaliyyətinin bütün mərhələlərində Azərbaycanın dirçəlişi, xalqın rifahı naminə gördüyü işlərdən söhbət açılıb. Bildirilib ki, bu gün ölkəmizdə qazanılan zəfər və uğurların, o cümlədən iqtisadi tərəqqinin əldə edilməsinin, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasının təməlində Heydər Əliyev siyasəti, onun müəllifi olduğu azərbaycançılıq ideologiyası dayanır.

Millət vəkilləri Azərbaycanın ictimai həyatında xüsusi rolu olan, öz fəaliyyətində Ümummilli Liderimizin ideyalarına əsaslanan Heydər Əliyev Fondunun ölkəmizin hərtərəfli inkişafı, milli-mənəvi dəyərlərin qorunması, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində gördüyü işləri təqdir ediblər. Fondun bir çox sahələri əhatə edən ölkədaxili və beynəlxalq səviyyədə həyata keçirdiyi uğurlu layihələrdən danışıblar. Deputatlar Heydər Əliyev Fonduna və onun prezidenti Mehriban Əliyevaya gələcək fəaliyyətlərində müvəffəqiyyətlər diləyiblər.

Müzakirələr zamanı bir sıra digər aktual mövzularda da fikirlər səsləndirilib.

Sonra parlamentin sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyə 18 məsələ daxil edilib. İlk olaraq "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" və "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova növbəti iki məsələnin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu deyib. O qeyd edib ki, bunlar "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Peşə təhsili haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələridir.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev həmin məsələləri diqqətə çatdırıb. O, "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə layihənin ikinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirə edildiyini, deputatların sənədi dəstəklədiklərini və onun qəbul olunduğunu bildirib. Bununla yanaşı, o, millət vəkillərinin verdiyi bəzi təkliflərin qanunvericilik təşəbbüsü subyekti ilə müzakirə edildiyini söyləyib, hazırda layihəyə əlavə dəyişikliklərin edilməsinin məqsədəmüvafiq olmadığını deyib.

Komitə sədri digər qanun layihəsində təklif olunan dəyişikliklərin "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə uyğunlaşdırma xarakteri daşıdığını deyib.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Sonra "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi müzakirəyə çıxarılıb. Birinci və ikinci oxunuş zamanı layihə barədə geniş məlumat verildiyi, əlavə heç bir təklifin olmadığı bildirilib.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, növbəti məsələ "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 900-VIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında qanun layihəsidir. O, sənədin uyğunlaşdırma xarakteri daşıdığını və qanunvericiliyin tələbinə əsasən bir oxunuşda qəbul ediləcəyini deyib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov layihə barədə məlumat verib. Qeyd edib ki, layihədə ümumilikdə 3 məcəllədə və 5 qanunda (Cəzaların İcrası Məcəlləsi, Miqrasiya Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi, "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri Nizamnaməsi" "Hauptvaxt haqqında" 4 saylı əlavəsi", "Uşaq hüquqları haqqında" Qanun, "Psixiatriya yardımı haqqında" Qanun, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanun, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanun) dəyişikliklərin edilməsi nəzərdə tutulur. Bildirilib ki, dəyişikliklərdə milli preventiv qrup tərəfindən həyata keçirilən başçəkmələr zamanı müəssisənin şəraiti və orada saxlanılan şəxslərə göstərilən rəftarın protokollaşdırılması üçün texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyat aparmaq hüququ verilir.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Vergi Məcəlləsində, Gömrük Məcəlləsində, "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda qəbul edilib.

Parlamentin Sədri Sahibə Qafarova növbəti iki məsələnin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu deyib. Spiker qeyd edib ki, bu məsələlər - "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi və Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihələridir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov qanun layihələri barədə məlumat verib. Nəzərə çatdırıb ki, hər iki sənəd Azərbaycan Prezidentinin 2018-ci il 23 noyabr tarixli 739 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın icrası ilə bağlı hazırlanıb. Qeyd olunub ki, müzakirələr zamanı deputatların səsləndirdiyi suallara aydınlıq gətirilib, mətndə hər-hansı dəyişiklik edilməyib.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Müzakirələrdən sonra Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 960-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları"nda dəyişiklik edilməsi haqqında, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Əmək Məcəlləsində və Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihələri səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Elnur Allahverdiyev Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, birinci oxunuşda məsələ barədə geniş məlumat verildiyini, heç bir irad və təklifin olmadığını deyib.

Qanun layihəsində COP29-un Azərbaycanda keçirilməsi ilə əlaqədar qeyri-rezidentlərə 2024-cü il martın 1-dən 9 ay müddətinə vergi azadolmalarının nəzərdə tutulduğu bildirilir. Sənəddə malların təqdim edilməsinə, işlərin görülməsinə və xidmətlərin göstərilməsinə cəlb olunmuş qeyri-rezident şəxslərin bu fəaliyyət çərçivəsində əldə etdiyi gəlirlərin gəlir vergisindən, mənfəət vergisindən, həmçinin malların idxalı da daxil olmaqla ƏDV-dən azad olunması təklif edilir.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova gündəliyin sonuncu məsələsinin Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi olduğunu bildirib. O, sənədin birinci oxunuşda müzakirəyə təqdim edildiyini deyib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov bu qanun layihəsi barədə məlumat verib. O diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuş layihədə yeni 405-1-ci və 451-1-ci maddələrin əlavə edilməsi təklif olunur.

Dəyişikliklərə əsasən, Mülki Məcəllədə nəzərdə tutulmuş müddətdə məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının tamamilə ödənilməməsinə görə vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər iki min manat məbləğində cərimə edilir.

Habelə məhdud məsuliyyətli cəmiyyətin tamamilə ödənilmiş nizamnamə kapitalı barədə məlumatın "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda nəzərdə tutulmuş müddətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana verilməməsinə görə vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər min manat məbləğində cərimə edilir.

Bununla yanaşı, layihədə bildirilir ki,"Tütün və tütün məmulatı haqqında" qanunda nəzərdə tutulmuş qaydada qeydiyyata alınmadan tütün məmulatının istehsalı fəaliyyəti ilə məşğul olmağa görə vəzifəli şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə, hüquqi şəxslər on min manatdan on iki min manatadək məbləğdə cərimə edilir.

Deputat Aydın Hüseynov məsələ ilə bağlı fikirlərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

1923 *Azərbaycanın özü qədər əbədi* 2024

# Tarixin ən qüdrətli Azərbaycanının banisi

*Əvvəli 1-ci səh.*

Ümumiyyətlə, əgər Heydər Əliyev tərəfindən ötən əsrin 70-ci illərində və 80-ci illərinin əvvəlində qəbul edilən qərarların məntiqinə, bu addımların hədəflədiyi məqsədlərə diqqətlə nəzər yetirsək, onda aydın şəkildə görərik ki, atılmış bütün addımlar Azərbaycanın müstəqilliyinə yönəlmiş, həmin dövrdə yaradılmış milli ideoloji əsas sonrakı illərdə xalqımızın müstəqillik mübarizəsinin zəfər çalmasında baza rolunu oynamışdır.

## Harada, hansı vəzifədə çalışmasından asılı olmayaraq, Heydər Əliyev həmişə Azərbaycanı düşünmüşdür

Ulu Öndər Heydər Əliyevin bir siyasətçi, dövlət xadimi kimi bir çox üstün məziyyəti var idi. Böyük liderlərə məxsus bütün müsbət keyfiyyətlər onun şəxsiyyətində cəm olmuşdur. Ulu Öndər Heydər Əliyevin böyük bilik və təcrübəsi, yüksək idarəçilik və liderlik qabiliyyəti, təşəbbüskarlığı, ən mürəkkəb problemləri həll etmək bacarığı və Azərbaycanda onun rəhbərliyi ilə əldə edilmiş uğurlu nəticələr Ümummilli Liderin keçmiş ittifaq miqyasında da nüfuzunun getdikcə artmasını və ittifaq rəhbərliyinə qədər yüksəlməsini şərtləndirmişdir. Heydər Əliyev 1976-cı ilin mart ayında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş, eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdir. O, həmin yüksək vəzifədə çalışdığı dövrdə 60-dan çox nazirlik, komitə və müxtəlif mərkəzi idarələrin fəaliyyətinə rəhbərliyi həyata keçirmiş, keçmiş ittifaq miqyasında ən böyük layihələrə, strateji əhəmiyyətli tədbirlərə məhz Heydər Əliyev rəhbərlik etmiş, üzərinə götürdüyü vəzifələri layiqincə yerinə yetirmişdir. Bir neçə gün öncə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iştirakı ilə 50 illik yubileyi qeyd olunan Baykal-Amur Magistralının tikintisinə də məhz Ulu Öndər Heydər Əliyev rəhbərlik etmiş, bu mürəkkəb layihənin həyata vəsiqə almasına nail olmuşdur. Həmin tədbirdə iştirak edənlərin, vaxtilə bu magistralın tikintisində çalışanların Ümummilli Liderimiz haqqında dedikləri də bir daha Heydər Əliyevin necə heyrətamiz, fenomenal bir şəxsiyyət olduğunu təsdiqləyir. Heydər Əliyevi tanıyan, onun müasirləri olmuş hər kəs bu böyük şəxsiyyət haqqında yalnız yüksək fikirlər səsləndirir, ona etimadını, sevgisini ifadə edir.

Ümummilli Lider SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışarkən də onun Azərbaycanın inkişafı ilə bağlı verdiyi tapşırıqlar, qəbul etdiyi qərarlar ölkəmizin inkişafına xidmət etmişdir. Heydər Əliyev respublikamızdakı prosesləri daim diqqət mərkəzində saxlamışdır. O, bütün varlığı ilə sevdiyi doğma xalqının mənafelərini hər zaman hər şeydən üstün tutmuş, böyük qətiyyətlə xalqımıza xidmət etməyə davam etmişdir.

Məlumdur ki, 1987-ci ilin oktyabrında Heydər Əliyev Sov.İKP MK-nın Siyasi Bürosunun və şəxsən baş katib M.S.Qorbaçovun yeritdiyi yanlış xəttə, onun anti-Azərbaycan siyasətinə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermişdir. Bu istefadan sonra xalqımız üçün bir çox problem, çətinlik başlamış, respublikamıza qarşı o vaxta qədər Heydər Əliyev amilinin qarşısına sədd çəkdiyi təxribat planları, məkrli iddialar baş qaldırmışdır. Azərbaycanın ərazi bütövlüyünə qarşı təhdidlər, separatçı meyillər geniş vüsət almışdır.

1990-cı ilin 20 yanvar tarixdə Azərbaycan xalqına qarşı törədilmiş qanlı qırğınlara ilk etiraz səsini ucaldan, informasiya blokadasını yararaq baş verən hadisələri beynəlxalq ictimaiyyətə çatdıran məhz Heydər Əliyev olmuşdur. Özünün və ailə üzvlərinin həyatlarına təhdidlərə, təzyiqlərə baxmayaraq, Ulu Öndər hadisənin ertəsi günü - yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək, xalqımıza qarşı törədilən cinayəti pisləmiş, onun törədilməsi səbəblərini, təşkilatçılarının, günahkarlarının adlarını açıq mətnlə bəyan etmiş və Azərbaycan xalqı ilə həmrəyliyini ifadə etmişdir. Bununla da Ümummilli Lider tərəfindən bütün dünya ictimaiyyəti bu böyük faciə haqqında tam detalları ilə məlumatlandırılmışdır. Heydər Əliyev qanlı cinayətə etiraz olaraq, daha bir cəsarətli addım ataraq, Kommunist Partiyasının sıralarını tərk etmişdir.

Ulu Öndər 1990-cı il iyulun 20-də Bakıya dönsə də, respublikanın ovaxtkı rəhbərliyi bu böyük liderin Bakıda yaşamasına imkan verməmiş və iyulun 22-də Heydər Əliyev doğulduğu Naxçıvan Muxtar Respublikasına getmişdir.

## Heydər Əliyevin Azərbaycan xalqının xoşbəxt və firavan gələcəyi, müstəqilliyimiz naminə mübarizəsinin növbəti mərhələsi

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının xoşbəxt və firavan gələcəyi, müstəqilliyimiz naminə mübarizəsinin növbəti mərhələsini onun Naxçıvan Muxtar Respublikasında çalışdığı dövr təşkil edir. Bu mərhələdə də Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasını çox böyük müvəffəqiyyətlə həyata keçirdiyinin şahidi oluruq.

1990-cı illərin əvvəllərində Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması, sosial-iqtisadi durumun getdikcə daha da ağırlaşması, Bakıdakı mərkəzi hakimiyyətin muxtar quruma qarşı təxribatçı planları Naxçıvanda mövcud olan mürəkkəb vəziyyəti daha da gərginləşdirmişdi. Həmçinin erməni separatçılarının və onların havadarlarının Azərbaycana qarşı məkrli planlarında muxtar respublikanın işğal edilməsi də var idi. Ulu Öndər Heydər Əliyev isə Naxçıvana qarşı təxribat planlarının qarşısını alaraq, muxtar respublikanı qorumağa nail olmuş və növbəti dəfə xilaskarlıq missiyasını yerinə yetirmişdir.

Ulu Öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərliyi Azərbaycan tarixində müstəsna əhəmiyyətə malik, tariximizə qızıl hərflərlə yazılmış bir sıra qərarların qəbul olunması ilə yadda qalmışdır. Məhz bu dövrdə uzaqgörən dövlət xadimi Heydər Əliyevin təşəbbüsü və sədrliyi ilə Naxçıvan Ali Məclisinin - ovaxtkı Ali Sovetin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət bayrağı elan edilmiş, eyni qərarın Azərbaycan Ali Soveti tərəfindən də qəbul olunması üçün vəsatət qaldırılmışdır. SSRİ-nin saxlanması məqsədilə respublikada keçirilən referendum Ulu Öndərin rəhbərliyi ilə Naxçıvanda boykot edilmiş, Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublikanın Ali Məclisi onun adından "sovet" və "sosialist" sözlərinin çıxarılması haqqında qərar qəbul etmişdir. 31 Dekabr tarixinin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi təsis olunması haqqında qərar da məhz həmin dövrdə qəbul edilmişdir.

Bu dövrdə muxtar respublikada dövlət quruculuğu, hakimiyyət və idarəetmənin təkmilləşdirilməsi sahəsində mühüm işlər görülmüş, siyasi böhran aradan qaldırılmış, iqtisadi islahatlar həyata keçirilmişdir. Hərbi quruculuq məsələlərinə xüsusi diqqət yetirilmiş, keçmiş sovet ordusunun bu ərazidəki bütün silahları və texnikası alınıb Milli Ordu hissələrinə verilmişdir.

Azərbaycanın müasir siyasi sisteminin əsasları da həmin dövrdə qoyulmuşdur. Ulu Öndərin sədrliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması ölkəmizdə siyasi münasibətlər sisteminə yeni müsbət dəyərlər gətirmiş, yeni siyasi mədəniyyət formalaşdırmışdır. Yeni Azərbaycan Partiyası Ulu Öndərin rəhbərliyi ilə yeni dövlət quruculuğu prosesinə mühüm töhfələr vermiş, eyni zamanda ölkəmizdə müasir demokratik ənənələrin formalaşmasında öncüllük etmişdir.

## 1993-2003-cü illər sabitlik və inkişaf dövrü kimi xalqımızın tarixində şərəfli yerini tutmuşdur

Heydər Əliyevin rəhbərliyi ilə muxtar respublikada çox mühüm dəyişikliklərin baş verdiyi bir vaxtda respublikanın mərkəzində - paytaxt Bakıda tamamilə fərqli hadisələr yaşanırdı. Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən çox qısa vaxt sonra mərkəzi hakimiyyətin səriştəsizliyi, dövlət idarəetməsində yol verilən ciddi nöqsanlar səbəbindən ölkədə ictimai-siyasi münasibətlər gərginləşmiş, xaos və anarxiya dərin böhrana səbəb olmuşdu. İqtisadiyyat iflic olmuş, vətəndaşların güzəranı kəskin pisləşmişdi. Respublikanın bir çox rayonunda qanun pozuntuları, hakimiyyətə yaxın qrupların özbaşınalığı, hərc-mərclik və zorakılıq halları artmış, siyasi böhran son həddə çataraq, vətəndaş müharibəsinə gətirib çıxarmışdı. Hərbi hissələrdə nizam-intizamın zəifləməsi, orduda vahid komandanlığın və təşkilatçılığın olmaması Ermənistanın işğalçılıq siyasətinin və ərazilərimizin işğalının daha da genişlənməsinə rəvac vermişdi. Beləliklə, Azərbaycan 1993-cü ilin may-iyun aylarında dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı.

Azərbaycan xalqının xoşbəxtliyi ondadır ki, belə ağır bir şəraitdə məsuliyyəti və xilaskarlıq missiyasını cəsarətlə öz üzərinə götürərək, xalqı bu bəlalardan qurtaracaq bir liderə - Heydər Əliyev kimi nəhəng bir şəxsiyyətə sahib idi. Ona görə də ölkəmizin başının üstünü qara buludlar alanda xalqımız tərəddüd etmədən Heydər Əliyevə müraciət edərək onu Bakıya, siyasi hakimiyyətə dəvət etdi. Çünki Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin Vətən və xalq sevgisinə, səriştə və bacarığına, qətiyyətinə, bənzərsiz liderlik keyfiyyətlərinə yaxşı bələd idi. Bu səbəbdən də xalqımız Heydər Əliyevə inanırdı, Ona güvənirdi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, *"Xalq ona böyük dəstək verirdi, o da gücü xalqın inamından, məhəbbətindən alırdı"*.



1993-cü il iyun ayının 15-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi Azərbaycan tarixinə "Milli Qurtuluş Günü" kimi daxil olmuşdur. Çünki bu tarixi seçim xalqımızın qurtuluşuna, müstəqil dövlətçiliyimizin xilasına səbəb olmuşdur. Ulu Öndərin qətiyyəti, idarəçilik məharəti sayəsində Azərbaycan dövlətçiliyinin məhv edilməsi, vətəndaş müharibəsi və ölkənin parçalanması təhlükəsi aradan qalxmışdır. Bununla da ölkəmizin siyasi tarixində yeni mərhələ başlamışdır.

Azərbaycan parlamentarizminin ən parlaq tarixinin də müəllifi məhz Heydər Əliyev olmuş, bu dövrdə qanunvericilik orqanının fəaliyyətində dönüş yaranmışdır. Milli Məclisin üzvləri olaraq, bizim hər birimiz üçün böyük bir qürur mənbəyidir ki, 1993-cü ilin iyununda Heydər Əliyev böyük siyasətə qayıdışa parlamentdən başlamış, dörd aya yaxın Azərbaycan parlamentinin sədri vəzifəsində çalışmışdır. Ulu Öndər Heydər Əliyevin respublikanı xilas etmək üçün keçirdiyi bütün görüşlərə, qəbul edilən bütün qərarlara məhz Milli Məclis evsahibliyi etmişdir. 15 iyun tarixə qədər parlamentdə siyasi intriqalara, hakimiyyəti zəbt etmiş qrupların çəkişməsinə, məzmunsuz müzakirələrə vərdiş etmiş ictimai rəy üçün Heydər Əliyevin formalaşdırdığı nizam-intizam, demokratik mühit, siyasi mədəniyyət tamamilə yeni bir mənzərə idi. Artıq Heydər Əliyev Azərbaycan parlamentinin rəhbəri kimi, ictimai-siyasi həyatdakı gərginliyin aradan qaldırılması üçün lazımi tədbirlər görməyə, vətəndaş həmrəyliyinin, ictimai-siyasi sabitliyin əsaslarını yaratmağa, parlament özünün qanuni funksiyalarını və vəzifələrini yerinə yetirməyə, milli maraqları müdafiə edən demokratik bir təsisat kimi özünü göstərməyə başlamışdır. 1993-cü il oktyabrın 3-də isə ümumxalq səsverməsi nəticəsində Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyət göstərdiyi 1993-2003-cü illər sabitlik və inkişaf dövrü kimi xalqımızın tarixində öz şərəfli yerini almışdır. Hər bir inkişafın təməlində sabitlik amili dayanır. Ümummilli Lider Azərbaycanın inkişafa doğru irəliləməsi üçün ilk olaraq ölkədə vətəndaş birliyi və həmrəyliyi amilinə söykənən möhkəm sabitlik yaratmış, ölkəmizin müstəqilliyinə qarşı təxribat cəhdlərinin və separatçı meyillərin qarşısı alınmışdır. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl tədbirlər reallaşdırılmış, ölkədə insan hüquq və azadlıqlarının, qanunun aliliyinin başlıca prinsiplərinin bərqərar olması üçün möhkəm əsaslar yaradılmışdır. Yeni iqtisadiyyat quruculuğu, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkənin yeni enerji strategiyasının icrasına başlanılmışdır. Azərbaycanda çoxpartiyalı sistem, siyasi plüralizm, fikir və ifadə azadlığı təmin edilmiş, demokratik institutların formalaşdırılması və inkişafına etibarlı zəmin yaranmışdır.

Bu gün hər birimiz haqlı olaraq Ulu Öndər Heydər Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin memarı, banisi adlandırırıq. O, bütün sahələrdə dərin, universal biliklərə, geniş təcrübəyə malik rəhbər idi. Ona görə də hər zaman ən doğru həll yolu tapırdı. Necə ki, 1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayandan sonra respublikanın sürətli inkişafını təmin edərək, onun aqrar respublikadan qabaqcıl sənaye respublikasına çevrilməsinə müvəffəq olmuşdusa, 1993-cü ildən sonra isə müstəqil Azərbaycanı sovet "şinel"indən, tipik postsovet ölkəsi platformasından çıxararaq, onun müasir, dinamik inkişaf edən, beynəlxalq münasibətlər sisteminin fəal aktoru kimi tanınmasına nail olmuşdur.

## Regionun görkəmli şəxsiyyəti, qlobal miqyaslı siyasətçi

Bu gün bir çox analitik, siyasətçi Ulu Öndər Heydər Əliyevin misilsiz fəaliyyəti haqqında danışarkən onu Azərbaycan xalqını və dövlətçiliyini uçurumdan, məhv olmaq təhlükəsindən xilas etmiş xilaskar lider kimi xarakterizə etməklə yanaşı, Ümummilli Liderimizi qlobal məkanda da böyük nüfuza malik, adı hörmət və ehtiramla anılan dövrünün nəhəng siyasi və dövlət xadimlərindən biri kimi təqdim edirlər. Çünki Heydər Əliyev əməlləri ilə dünyanın ən qüdrətli siyasi xadimləri ilə bir sırada dayanmaq haqqı qazanmışdır. Onun beynəlxalq münasibətlər sistemində mövcud olan problemlər və çağırışlarla bağlı fikirləri, mülahizələri beynəlxalq siyasi mərkəzlər tərəfindən daim diqqətlə izlənilmiş, Ulu Öndərlə görüşlərə böyük maraq göstərilmişdir. Dünya liderləri Heydər Əliyevi böyük bir regionun ən əsas şəxsiyyəti adlandırarkən Ulu Öndərimizin misilsiz xidmətlərinə istinad edirlər. Ona görə də biz bu gün Ümummilli Liderimiz haqqında danışarkən tam obyektiv olaraq, onu qlobal miqyaslı şəxsiyyət kimi xarakterizə edirik.

Heydər Əliyevin xarici və regional siyasətlə bağlı baxışları kifayət qədər praqmatik və konseptual idi. O, geosiyasi məkanda baş verən dəyişikliklərin məntiqini çox dəqiq duyur, Azərbaycanı xarici təhdidlər qarşısında qətiyyətlə qoruyurdu. Ölkəmizin çox gərgin regionda yerləşməsinə baxmayaraq, Ulu Öndərin yanaşmasında geopolitik maraqların toqquşması deyil, milli mənafelərimizə uzlaşdırılması qırmızı xətti təşkil edirdi. Heydər Əliyev üçün xalqımızın ali mənafeləri hər şeydən üstün idi. Bu, onun müəllifi olduğu xarici siyasət strategiyasının dəyişməz tələbi idi. Bu siyasət qısa müddət ərzində Azərbaycanın beynəlxalq inteqrasiyasını təmin etmiş, ölkəmiz mühüm beynəlxalq platformalarda uğurla təmsil olunmağa başlamışdır. Azərbaycan qlobal əməkdaşlıq məkanı, beynəlxalq dialoq və sülhün ünvanı kimi geniş nüfuz qazanmışdır.

Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Qələbə sayəsində *"Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur"* deyən Ulu Öndər Heydər Əliyevin arzuları həyata keçmişdir. İndi Ulu Öndərin ruhu şaddır! Çünki bu gün Azərbaycanın üçrəngli bayrağı Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda qürurla dalğalanır!

## Heydər Əliyev ideyalarının həyata keçirilməsinə və onun irsinin geniş təbliğ olunmasına misilsiz töhfələr

Müstəqil Azərbaycan dövləti Ulu Öndərin indiki və gələcək nəsillərə ərmağanı, onun zəngin və əvəzsiz irsi xalqımızın milli sərvətidir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Ümummilli Lider Heydər Əliyevin əvəzsiz siyasi irsindən faydalanacaq, bu irsi gələcək nəsillər üçün zəngin xəzinə olacaq. Bu sərvəti, bu irsi qorumaq, onu gələcək nəsillərə ötürmək hər birimizin borcudur. Bu işdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti möhtəşəm bir örnək, mayak təşkil edir.

20 il öncə fondun təntənəli açılış mərasimində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev demişdir: *"Fondun qarşısında böyük vəzifələr durur... Ümid edirəm ki, Azərbaycanın ictimai həyatında fondun rolu böyük olacaqdır"*.

Heydər Əliyev Fondu ötən dövrdə çoxşaxəli fəaliyyəti ilə üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetirmiş, xalqımızın inam və etimadını doğrultmuşdur. Fond bu 20 ildə Azərbaycanın ictimai həyatında oynadığı böyük roluna, qarşıya qoyduğu məqsədlərin əhəmiyyətinə, həyata keçirdiyi layihələrin miqyasına və bənzərsizliyinə görə ölkəmizdə analoqu olmayan yeni qurum olduğunu, ictimai fəaliyyətlər seqmentinə yeni nəfəs gətirdiyini sübut etdi.

Mehriban xanım Əliyeva fondun rəhbər tutduğu dəyərləri, qarşısında duran vəzifələri bu sözlərlə ifadə edib: *"İnsanlarla ünsiyyətdə olmaq, onları dinləmək və eşitmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir. Hesab edirəm ki, bu, dövlət qurumlarında çalışan bütün insanların əsas borcu və vəzifəsidir. Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır"*. Əlbəttə, bu gün Heydər Əliyev Fondunun əldə etdiyi misilsiz nailiyyətlərin əsasında fondun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq və rəhbərlik qabiliyyəti, səriştəsi və peşəkarlığı, gərgin əməyi və böyük zəhməti dayanır. Hörmətli Mehriban xanım Əliyevanın xeyirxahlığı, humanizmi fondun fəaliyyət prinsiplərinə sirayət edir. Heydər Əliyev Fondu ona üz tutan insanlara ümid olur, onların gümanlarını boşa çıxarmır.

Əsas qayəsi Ümummilli Liderin qurub-yaratdığı müstəqil Azərbaycanın daha da çiçəklənməsində yaxından iştirak etmək, insanlara daim kömək əli uzatmaq, xeyirxah işlər görmək olan Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən genişmiqyaslı tədbirlər elm, təhsil, səhiyyə, idman, ekologiya da daxil olmaqla, həyatın bir çox sahəsini əhatə edir. O cümlədən ölkəmizdə bir sıra sosial problemlərin həlli, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək Heydər Əliyev Fondunun ali məramlı fəaliyyətinin əsas istiqamətlərindəndir. Mədəniyyət və incəsənət xadimlərinə, yaradıcı potensiala malik insanlara dəstək göstərilməsi, Azərbaycan mədəniyyətinin dünyada geniş təbliğ olunması, qədim mədəniyyət ənənələrimizin tanıdılması istiqamətində həyata keçirilən tədbirlər fondun ölkəmizdə mədəniyyət sahəsində həyata keçirilən dövlət siyasətinə əhəmiyyətli töhfələridir. Bundan başqa, ölkəmizin beynəlxalq nüfuzunun artırılması ilə bağlı görülən işlər, bu məqsədlə çoxsaylı kitabların çap olunması, təbliğat materiallarının hazırlanması və yayılması, sərgilərin, elmi-praktik konfransların, simpoziumların təşkili Azərbaycan reallıqlarının dünyaya çatdırılmasında vacib rol oynayır.

Heydər Əliyev Fondu İkinci Qarabağ müharibəsində qələbəmizə, xalqın müzəffər Ali Baş Komandanın və Ordumuzun ətrafında yumruq kimi birləşməsinə yüksək töhfələr vermişdi. Fond tərəfindən şəhid ailələrinə, döyüşlər zamanı sağlamlığını itirmiş əsgər və zabitlərimizə hərtərəfli dəstək göstərilməsi tarixi Zəfərimizi təmin edən amillərdən biri qismində çıxış etmişdir. Bu gün isə Heydər Əliyev Fondu işğaldan azad olunmuş ərazilərimizin bərpası prosesində, quruculuq işlərində yaxından iştirak edir.

## Heydər Əliyevin parlaq əməlləri xalqımızın yaddaşında əbədi yaşayır

Mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil dövlətimizin qurucusu və banisi Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü tamam olur. Zaman sürətlə ötüb keçsə də, Heydər Əliyevin tariximizdəki yeri dəyişmir, parlaq əməlləri əbədilik hüququ qazanaraq, xalqımızın milli yaddaşında yaşayır, O, bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. "İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezident kimi mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub" deyən Heydər Əliyev bütün mənalı ömrü boyu qüdrətli Azərbaycan yaratmaq uğrunda çalışmış, istedadını, bilik və bacarığını milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə sərf etmişdir. Ulu Öndərin xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətləri Azərbaycan tarixinin şanlı, parlaq səhifələrini təşkil edir.

İndi ən böyük vəzifə Ümummilli Liderin başlatdığı islahatların, əldə olunan nailiyyətlərin davamlılığının, uğurlu dövlət idarəçiliyinin, siyasi varisliyin hüquqi, demokratik yolla təmin olunmasının həyata keçirilməsidir. 2003-cü ildən Heydər Əliyev ideyalarının, siyasi xəttinin ən layiqli davamçısı möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qarşısında duran bütün vəzifələri uğurla yerinə yetirmiş, özünün çoxəsrlik dövlətçilik tarixində ən böyük nailiyyətləri qazanmışdır. Prezident İlham Əliyev möhtəşəm fəaliyyəti ilə xalqımızın etimadını və inamını doğrultmaqla yanaşı, Ulu Öndərin də arzuladığı qüdrətli, güclü Azərbaycanı yaratmışdır. Bu gün gələcəyə doğru inamla irəliləyən müasir qüdrətli Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir!

**Sahibə QAFAROVA,**
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

# "Azərbaycanın 4-cü Könüllü Milli Hesabatına dair maraqlı tərəflərlə məsləhətləşmələr və 5-ci DİM üzrə irəliləyiş" mövzusunda 4-cü DİM Dialoqu keçirilib

**Bakıda "Azərbaycanın 4-cü Könüllü Milli Hesabatına dair maraqlı tərəflərlə məsləhətləşmələr, Qadınların iqtisadi hüquq və imkanlarının genişləndirilməsi və 5-ci DİM üzrə irəliləyiş" mövzusunda 4-cü DİM Dialoqu keçirilib.**









AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycanın Baş nazirinin müavini Əli Əhmədov, BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva, Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov, BMT-nin Qadın Agentliyinin Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Belen Suns Luke, BMT Baş katibinin köməkçisi Markos Neto, Laos Xarici İşlər Nazirliyinin departament direktoru Daovi Vonqsay çıxış ediblər.

Çıxışlarda BMT-nin Dayanıqlı İnkişaf Məqsədi layihəsinin həyata keçirilməsi, üzv dövlətlər tərəfindən bu layihəyə verilən dəstək, dövlətlərin gördüyü işlər və Milli Hesabat Proqramlarının hazırlanması haqqında danışıblar. Qeyd olunub ki, Azərbaycan dünyada baş verən gərgin siyasi proseslərə baxmayaraq, sosial-iqtisadi inkişafını davam etdirə bilib və bu istiqamətdə bir sıra uğurlu layihələri həyata keçirib. Bu gün Azərbaycan dövləti tərəfindən reallaşdırılan sosial, iqtisadi, humanitar, ekologiya, "yaşıl enerji" ilə bağlı layihələr BMT-nin DİM proqramına uyğunlaşdırılır.

Çıxışlarda vurğulanıb ki, Azərbaycan 30 il ərzində erməni işğalında qalan ərazilərini azad edib və 1 milyona yaxın qaçqının qayıtması üçün böyük quruculuq işləri həyata keçirir. Bu işlərin görülməsi üçün hazırlanan proqram və layihələr də DİM-ə uyğun şəkildə aparılır. Misal üçün, azad edilən Qarabağda "ağıllı kənd"in salınması, bu regionun enerji təminatının, əsasən "yaşıl enerji" istehsalı hesabına ödənilməsi və digər işlər onu deməyə əsas verir ki, Azərbaycan qlobal prosesləri nəzərə alaraq inkişaf istiqamətində addımlar atır. Tədbirdə vurğulanıb ki, Azərbaycan təcrübəsindən bir sıra dövlətlər də istifadə etmək və təcrübə mübadiləsi aparmaq istəyindədirlər.

Çıxışlardan sonra tədbir "Azərbaycanın 4-cü Könüllü Milli Hesabatına baxış: əsas məqamlar və mesajlar" və "Beynəlxalq Əmək Təşkilatının Azərbaycanda qayğı işi: gender bərabərliyinin daha güclü olduğu iş dünyası naminə qayğı məzuniyyəti və xidmətinə sərmayə" mövzularında təqdimat və müzakirələrlə davam edib.

# Bakıda "Heydər Əliyev 101: Türkiyə yüz ili" adlı tədbir olub

**Mayın 7-də Heydər Əliyev Mərkəzində "Heydər Əliyev 101: Türkiyə yüz ili" adlı tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, "Azərbaycan-Türkiyə: Ortaq Yüzüncü il" Platformasının sədri Elmin Sadıqov tədbirin Ulu Öndər Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin qurulmasının 101 illiyinə həsr edildiyini söyləyib.**








Türkiyə ilə Azərbaycan arasında münasibətlərdən danışan E.Sadıqov ölkələrimizin bir-birinə sarsılmaz tellərlə bağlı olduqlarını deyib. Bildirib ki, Azərbaycan-Türkiyə əlaqələri müasir dünya liderləri Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə yüksələn xətlə inkişaf edir.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Ulu Öndər Heydər Əliyev istər fərqli siyasi-ideoloji mühitin, o cümlədən sərt qadağaların mövcud olduğu SSRİ dönəmində, istərsə də Azərbaycanın mürəkkəb geosiyasi şəraitdə çoxsaylı təhdid və çağırışlarla üzləşdiyi müstəqillik dövründə türk dünyasında siyasi həmrəyliyin - milli birliyin təmin olunmasına, türk dövlətləri ilə münasibətlərin inkişafına xüsusi diqqət yetirib.

Çoxəsrlik tarixi köklərə, milli-mənəvi dəyərlərə əsaslanan Azərbaycan-Türkiyə münasibətləri müasir tariximizdə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü əsasında Araz çayı üzərində inşa olunaraq əzəli Azərbaycan torpağı - qədim türk yurdu Naxçıvanla Türkiyəni birləşdirən "Ümid" körpüsü ilə yeni məzmun alıb. Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illərdə "bir millət, iki dövlət" olaraq səciyyələndirdiyi Azərbaycan-Türkiyə münasibətlərinin möhkəmləndirilməsi istiqamətində prinsipial siyasət həyata keçirib, nəticə etibarilə iki qardaş ölkənin dostluq və tərəfdaşlıq əlaqələri dünyada nümunəvi xarakter alıb.

YAP sədrinin müavini qeyd edib ki, bu gün yeni reallıqlar fonunda türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Təqdirəlayiq haldır ki, Azərbaycanın ardıcıl təşəbbüsləri ölkələrimiz arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyaraq daha da möhkəmlənməsinə xidmət edir. Xüsusilə də Azərbaycan ilə Türkiyənin sinxron fəaliyyəti Türk Dövlətləri Təşkilatının qarşıdakı müddətdə geniş təsir imkanlarına malik güc mərkəzinə çevrilməsinə əlverişli şərait yaradır.

"Bu gün iftixarla qeyd edirik ki, Azərbaycanın möhtəşəm Qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsindən sonra hər iki dövlətin liderlərinin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan-Türkiyə münasibətləri tamamilə yeni bir səviyyəyə qalxıb, 2021-ci il iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanması ilə müttəfiqlik zirvəsinə yüksəlib", - deyə Tahir Budaqov diqqətə çatdırıb.

AMEA-nın vitse-prezidenti, akademik Gövhər Baxşəliyeva qeyd edib ki, Azərbaycan-Türkiyə münasibətləri dostluq və qardaşlıq prinsipinə əsaslanır, eyni zamanda bu əlaqələrin dərin tarixi kökləri var. O, həmçinin deyib ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində iki ölkə arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

G.Baxşəliyeva diqqətə çatdırıb ki, ötən 101 il ərzində Türkiyə Cümhuriyyəti böyük inkişaf yolu keçərək iqtisadi-siyasi inkişafa nail olub. Tarixin sınaqlarından üzüağ çıxan Türkiyə gündən-günə inkişaf edərək bölgədə, Avropa məkanında güc mərkəzi kimi tanınır.

Tədbirdə çıxış edən energetika nazirinin müavini Orxan Zeynalov, gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, Milli Məclisin deputatları Anar İsgəndərov, Musa Qasımlı Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti, Azərbaycan dövlətinin inkişafı yolundakı misilsiz xidmətləri barədə geniş məlumat veriblər. Vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına xüsusi önəm verib. Bu gün Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə ölkələrimiz mühüm uğurlara imza atıb. Çıxışçılar iki ölkə arasında münasibətlərin bundan sonra daha səmərəli, faydalı və məqsədyönlü şəkildə, uğurla davam edəcəyinə əminliklərini ifadə ediblər.

# "Heydər Əliyev 101: dövlət idarəçiliyində liderlik" mövzusunda görüş təşkil edilib





**Mayın 7-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurası və YAP Gənclər Birliyinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş "Heydər Əliyev 101: dövlət idarəçiliyində liderlik" mövzusunda gənclərlə görüş keçirilib.**

YAP-dan AZƏRTAC-a bildiriblər ki, Prezident yanında Dövlət İdarəçilik Akademiyasında keçirilən görüşdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Tədbirin moderatoru - YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxıb. Gənclər siyasətinin başlıca məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdir.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə çıxışında qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin genişmiqyaslı fəaliyyəti dövlətçilik məktəbidir. Onun sözlərinə görə, gənclər Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yolla getməlidirlər. Çünki bu yolun alternativi yoxdur. A.Rəhimzadənin sözlərinə görə, millətinin və dövlətinin ali mənafeyini öz fəaliyyətində daim təməl prinsip kimi qəbul edən Ümummilli Lider bugünkü müstəqil Azərbaycanın banisidir. Ulu Öndərin həyatı daim mübarizələrdə keçib və o, hər zaman qalib gəlib. Ona görə də Ulu Öndərin həyat və fəaliyyəti gənclərimiz üçün nümunədir.

YAP Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru Dilarə Seyidzadə Ümummilli Lider Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı misilsiz xidmətlərindən bəhs edib. Heydər Əliyevi böyük dövlət xadimi və güclü sərkərdə kimi xarakterizə edən D.Seyidzadə bildirib ki, bu dahi şəxsiyyət bütün həyatını Azərbaycana həsr edib. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı həm yaradan, həm möhkəmləndirən, dünyada tanıdan, həm də gələcəyə doğru uğurla aparan şəxsiyyət idi.

D.Seyidzadə çıxışında Ulu Öndər Heydər Əliyev haqqında xatirələrini tədbir iştirakçıları ilə bölüşüb. YAP Veteranlar Şurasının üzvü gənclərə tariximizi, o cümlədən Heydər Əliyev irsini dərindən öyrənməyi tövsiyə edib. Çünki bu irs, əslində, böyük dövlətçilik irsidir. "Hər bir gənc yüksək biliklərə yiyələnməli, qazandığı bilik və bacarıqları müstəqil ölkəmizin inkişafına həsr etməli və Prezidentimiz İlham Əliyevin siyasətinə dəstək olmalıdır", - deyə o qeyd edib.

YAP Veteranlar Şurasının üzvü, Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov bildirib ki, Azərbaycanın qazandığı uğurların bünövrəsi Heydər Əliyev amili ilə bağlıdır. Çünki Heydər Əliyev dünya miqyasında dahi siyasətçi və görkəmli dövlət xadimidir. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin siyasətində ən vacib məqamlardan biri milli kadr potensialının formalaşdırılması ilə bağlı olub.

YAP Veteranlar Şurasının üzvü qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının müəllifi Ümummilli Lider Heydər Əliyevdir. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan davamlı olaraq inkişaf edir və güclənir.

Daha sonra gənclərin sualları cavablandırılıb.

# Azərbaycan-Slovakiya biznes forumu

**İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO və Slovakiyanın İnvestisiyalar və Ticarətin İnkişafı Agentliyinin (SAIRO) birgə təşkilatçılığı ilə Bakıda Azərbaycan-Slovakiya biznes forumu keçirilib. Tədbirdə hər iki ölkədən rəsmilərlə yanaşı, müdafiə sənayesi, İKT, maliyyə və logistika sahələrini təmsil edən 90-dan çox şirkət nümayəndələri iştirak edib.**





AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov və Slovakiyanın Baş nazirinin müavini, iqtisadiyyat naziri Denisa Sakovanın iştirakı ilə keçirilən biznes forumda tərəflər ikitərəfli iqtisadi əlaqələrin səmərəsini yüksəldən birgə fəaliyyət istiqamətlərinin genişləndirilməsi, ticarət, energetika, sənaye, nəqliyyat, turizm sahələri üzrə tərəfdaşlığın gücləndirilməsi ilə bağlı fikirlərini bölüşüblər. Tədbirdə Azərbaycanla Slovakiya arasında investisiya imkanlarının dəyərləndirilməsi, biznes subyektləri arasında əməkdaşlığın və qarşılıqlı sərmayələrin təşviqi barədə müzakirələr aparılıb.

Tərəflər həmçinin iki ölkə arasında ticarət dövriyyəsinin artırılması və əməkdaşlığın diversifikasiyasının əsas məqsədlərdən olduğunu qeyd edib və bu müstəvidə təşkil olunan biznes forumların iqtisadi-ticarət münasibətlərinə mühüm töhfə verdiyini vurğulayıblar.

Biznes forumda AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev və SAIRO-nun baş icraçı direktoru Robert Simonçic iki ölkənin investisiya və ixrac perspektivləri barədə məlumat veriblər.

Forum çərçivəsində qurumlar arasında sənədlərin imzalanması mərasimi keçirilib. Slovakiyanın "SEAK s.r.o." və "Itech Group" MMC, eləcə də Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) və "Eximbank SR" arasında memorandumlar imzalanıb. Sənədlərin icrası tərəflər arasında birgə investisiya imkanlarının qiymətləndirilməsi, biznes, rabitə və kibertəhlükəsizlik, smart texnologiyalar kimi sahələrdə əməkdaşlığın inkişafını təmin edəcək.

Biznes forum B2B formatda görüşlər ilə davam edib.

1923 *Azərbaycanın özü qədər əbədi* 2024







# Sumqayıt Heydər Əliyevin

**Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilməsi və torpaqlarımızda erməni separatizminə son qoyulması Azərbaycan xalqının son bir neçə əsrlik tarixinin ən möhtəşəm hadisələrinə çevrilərək hər birimizə vətəndaş olaraq dərin qürur və sevinc hissi yaşatdı. Bu hadisələr respublikamız üçün yeni tarixi dövrün başlanğıcı oldu və fevral ayının 7-də keçirilmiş prezident seçkilərində xalqımız bir daha Ulu Öndər Heydər Əliyevin ideyalarına söykənərək və növbəti dəfə özünün müdrik seçimini edərək qələbələr və nailiyyətlər silsiləsinin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yeni mərhələdə də davamına səs verdi.**

Aprel ayının ortalarından etibarən Rusiya Federasiyasının sülhməramlı kontingentinin respublikamızı tərk etməsi, bunun ardınca Qazax rayonunun 4 kəndinin azad edilməsi ilə bağlı razılığın əldə olunması və dövlət sərhədinin bu istiqamətində demarkasiya işlərinə başlanılması Prezident İlham Əliyevin müəllifliyi ilə yazılan zəfər salnaməsinin növbəti qürurdoğuran səhifələri oldu.

Torpaqlarımızın azadlığının baş memarı olan Prezident İlham Əliyev bununla Heydər Əliyevin vəsiyyətini yerinə yetirdi, Azərbaycanı Ulu Öndərin arzuladığı zirvəyə yüksəltdi. Olduqca xoşdur ki, Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünü bu cür uğurlarla qeyd edirik.

## 50 il əvvəl başlanan intibah

Müasir Azərbaycanın 1969-cu ildən başlayan dövrünü xalqımız haqlı olaraq Heydər Əliyev epoxası kimi qəbul edir. Hansı ki, bu epoxanın hər bir mərhələsi dövlətçilik tariximizə ən möhtəşəm nailiyyətlərin əldə olunduğu illər kimi həkk olunub. Bu epoxanın hər bir dövründə tənəzzüldən xilas olaraq inkişaf yoluna qədəm qoymuşuq, hər bir tarixi mərhələdə Azərbaycan güclənib və Heydər Əliyev yolunun ən layiqli davamçısı olan İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövlətinə çevrilib.

Böyük siyasət adamı, görkəmli dövlət xadimi olan Heydər Əliyev həm də vətənpərvər, öz ölkəsinə və xalqına son dərəcə bağlı insan idi. Heydər Əliyevin sovet dövründə Azərbaycanı geridə qalmış aqrar əyalətdən inkişaf edən sənaye respublikası səviyyəsinə yüksəltməsi, istər 1993-cü ilin iyun ayında Naxçıvandan Bakıya gələrək öz böyük dühası ilə müstəqilliyimizi və dövlətçiliyimizi təhlükələrdən xilas etməsi bütün yüksək məziyyətləri ilə yanaşı, həm də Ulu Öndərin vətənpərvərliyinin təcəssümüdür.

Bu gün öz göstəriciləri ilə Azərbaycanın müasir inkişaf tarixinin parlaq nümunələrini yaradan, öz intibahının yeni mərhələsini yaşayan Sumqayıt şəhəri də əldə etdiyi uğurlara, gəlib çatdığı hazırkı yüksəliş səviyyəsinə görə böyük şəxsiyyət Heydər Əliyevə minnətdardır. Sumqayıtı hələ sovet dövründə dünyada tanıdan, şəhərin indiki sürətli tərəqqisinin etibarlı təməllərini yaradan yüksəliş yolunun banisi Ulu Öndərdir.

Tək Azərbaycanın deyil, bütün Cənubi Qafqazın mühüm sənaye mərkəzi və ən abad ünvanlarından biri kimi şöhrətini gündən-günə artıran Sumqayıtın müasir tarixi XX əsrin 30-cu illərinin sonundan başlayır. Sovet hökumətinin Abşeron yarımadasında növbəti sənaye mərkəzi yaratmaq barədə qərarından irəli gələrək 1939-40-cı illərdə Sumqayıt ərazisində Sintetik Kauçuk, Boruyayma və Kimya zavodlarının bünövrəsi qoyulmuş, lakin Böyük Vətən müharibəsinin başlaması ilə tikinti işləri yarımçıq qalmışdır. Yalnız 1945-ci ildə Kimya zavodu, 1952-ci ildə isə Boruyayma zavodu ilk məhsulunu istehsal etmişdir. Boruyayma zavodunun istifadəyə verilməsi ilə Azərbaycanda qara metallurgiya sənayesi inkişaf etməyə başlamış, 1953-cü ildə Marten sobalarında ilk dəfə polad əridilməsi həyata keçirilmişdir. O cümlədən Sintetik Kauçuk zavodu da işə salınmış və ilk dəfə neftdən etil spirti əldə edilmişdir.

1955-ci ildə Alüminium zavodu işə düşmüşdür. 60-cı illərdə Polimer Tikinti Materialları Kombinatı, Superfosfat zavodu yaradılaraq istehsala başlanılmışdır. Göründüyü kimi, yeni sənaye müəssisələrinin bir qisminin yaradılması və Sumqayıta şəhər statusunun verildiyi 1949-cu ildən sonraya təsadüf etsə də, bütövlükdə ötən əsrin 50-60-cı illərində görülən işlərin miqyası Sumqayıtın mövcud potensialı ilə müqayisədə çox aşağı olmuşdur və bu vəziyyət 1969-cu ilin iyulundan Azərbaycana rəhbərlik etməyə başlayan Heydər Əliyevin diqqətini cəlb etməyə bilməzdi. Ulu Öndər bilirdi ki, Sumqayıtın potensialı olduqca böyükdür. Bu baxımdan Azərbaycanın aqrar ölkədən inkişaf etmiş sənaye respublikasına çevrilməsi yönündə Heydər Əliyevin başlatdığı iqtisadi islahatların bir istiqamətini Sumqayıtın iqtisadi potensialının hərəkətə gətirilməsi, o cümlədən mövcud neft-kimya müəssisələrinin inkişaf etdirilməsi və şəhər üçün tamamilə yeni olan maşınqayırma və yüngül sənayenin yaradılması olmuşdur.

O illər görülən işlərə misal olaraq əhalinin məişət kimyası mallarına olan tələbatını maksimum ödəmək məqsədilə 70-ci illərin əvvəllərində yaradılan Sumqayıt Məişət Kimyası Zavodunu göstərmək olar. Heydər Əliyevin sayəsində bu zavod Cənubi Qafqazda ilk olaraq Sumqayıtda yaradılmışdır. Yaxud Superfosfat zavodunda yüksək texnologiya əsasında inşa edilən dənəvər superfosfat gübrəsi istehsalatının işə salınmasını göstərə bilərik. 1970-73-cü illərdə "Üzvi sintez" zavodunda bir-birinin ardınca qliserin, benzol, izobutilen və poliizobutilen, həmçinin xlor və diafraqma üsulu ilə kaustik soda istehsalı sexlərinin fəaliyyətə başlaması, 1974-cü ildə Sintetik Kauçuk zavodunda yüksək markalı kauçuk istehsal edən sexin yenidən qurulması ilə onun istehsal gücünün xeyli artırılması, Kompressorlar zavodunun, Üst trikotaj və Xovlu İplik fabriklərinin, Süd və Yeyinti məhsulları kombinatlarının yaradılması məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə Sumqayıtda sənaye sahələrinin inkişafı ilə bağlı əldə olunmuş nailiyyətlərdir.

Ümumiyyətlə, Heydər Əliyev Sumqayıtda sənayenin inkişafına qayğı ilə yanaşmış, bunun üçün bütün imkan və vasitələrdən yararlanmışdır. Ulu Öndərin hələ 50 il əvvəl - 1974-cü ildə şəhər statusu verilməsinin 25 illiyi ilə əlaqədar Sumqayıta gəlməsini, ictimaiyyət nümayəndələri ilə görüşünü sumqayıtlılar hər zaman Heydər Əliyevin şəhərimizə xüsusi diqqətinin təzahürü kimi qiymətləndirmişlər. Həmin vaxt 25 illik yubiley tədbirində çıxış edən Heydər Əliyev kimyaçıların heç də asan olmayan, gərgin, fədakar əməyini, əldə olunmuş nailiyyətləri yüksək qiymətləndirməklə yanaşı, kimya sənayesinin prioritet inkişaf istiqamətləri barədə fikirlərini söyləyərək qarşıda duran vəzifələrlə bağlı kimyaçılara gələcək üçün fəaliyyət proqramı ola biləcək dəyərli tövsiyələrini də vermişdi. Bundan sonra, daha dəqiq desək, 1975-76-cı illərdə Sumqayıtın neft-kimya kompleksi üçün ən yeni texnologiyalar əsasında yaradılmış, Almaniya və Çexoslovakiya istehsalı olan EP-300 qurğusunun - layihə gücü etilenə görə 300 min, propilenə görə isə 138 min ton olan həmin nadir kompleksin əldə edilməsi üçün Heydər Əliyev Moskvaya müraciət etmişdi. Ulu Öndər özünəməxsus uzaqgörənliklə həmin kompleksin respublikamızın iqtisadiyyatı üçün böyük əhəmiyyəti və perspektivi olduğunu yaxşı bilirdi. Lakin Kreml rəhbərləri həmin nadir kompleksin xaricdən alınması üçün külli miqdarda vəsait tələb edildiyini, buna isə guya SSRİ-nin imkanı olmadığını əsas gətirərək Heydər Əliyevin müraciəti ilə bağlı heç bir tədbir görmürdü.

Belə olduqda hər zaman vəziyyəti düzgün qiymətləndirməyi və müvafiq qərar qəbul etməyi məharətlə bacaran Heydər Əliyev respublikamızın neft-kimya sənayesinin yeni inkişaf mərhələsinə qaldırılması, bu sahənin ixrac məhsullarının daha yüksək keyfiyyətinə nail olmaq məqsədilə 70-ci illərin sonlarında SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini N.Tixonovu respublikamıza dəvət etdi. Məhz bundan sonra çox keçmədən ittifaq rəhbərliyi Heydər Əliyevin təklifini nəzərə alaraq xaricdən böyük həcmdə valyuta ilə alınan EP-300 texnoloji kompleksinin Sumqayıtda inşasına qərar verdi. Artıq 1981-ci ildə həmin müasir texnoloji kompleksin Azərbaycana gətirilərək Sumqayıtda inşasına başlanılması Heydər Əliyev siyasətinin böyük qələbəsi idi.

1969-82-ci illərdə Sumqayıtda digər müəssisələr də istifadəyə verilmişdi. Bunlardan Kompressorlar Zavodunu, Üst trikotaj və Xovlu İplik fabriklərini, Süd və Yeyinti məhsulları kombinatlarını, 20-dən çox orta məktəbi, uşaq bağçalarını, Ü.Hacıbəyov adına "Kimyaçılar" mədəniyyət sarayını və başqa obyektləri misal göstərmək olar.

70-ci illərdə əsaslı tikintinin geniş miqyas alması nəticəsində Sumqayıt nəhəng tikinti meydançasına çevrilmişdi. Şəhərə gələn qonaqlar, xarici nümayəndələr burada aparılan nəhəng quruculuq prosesinin miqyası və vüsətinə heyran qalırdılar. Həmin illər Sumqayıtda hər il 80 min kv.m. mənzil sahəsi tikilib istifadəyə verilirdi. Hazırda fəaliyyət göstərən istehsalat sahələrinin çoxu, 40-dan artıq ümumtəhsil məktəbi, uşaq tərbiyə müəssisələri, saysız- hesabsız mədəniyyət, məişət xidməti, ticarət obyektləri, səhiyyə ocaqları məhz Ümummilli Liderin o dövrdəki məqsədyönlü siyasətinin bəhrələridir. Bu gün şəhərimizdəki bir çox inzibati bina, o cümlədən Sumqayıtın ən gözəl ünvanlarından olan Ü.Hacıbəyov adına "Kimyaçılar" Mədəniyyət Sarayı həmin illərdə inşa edilmişdir.

1970-80-ci illərdə Sumqayıt öz iqtisadi potensialına görə SSRİ məkanında tanınmağa başlamışdı. Şəhərdə istehsal edilən məhsullar keçmiş ittifaqın 700 şəhərinə ixrac olunurdu. Bütün bunlar Ulu Öndərin Sumqayıta olan münasibətini nümayiş etdirirdi. Azərbaycan imperiya tərkibində olmasına baxmayaraq, respublika rəhbərinin diqqət və qayğısı sayəsində şəhər əhalisinin rifahı durmadan yüksəlirdi. Adamlar yaradıcı əməkləri ilə şöhrət qazanır, ucalırdılar. Sumqayıt keçmiş sovetlər birliyində dostluq, qardaşlıq, metallurqlar, kimyaçılar, energetiklər, inşaatçılar, əmək qəhrəmanları şəhəri kimi şöhrət qazanmışdı.

Heydər Əliyev vaxtaşırı olaraq Sumqayıtda olur, şəhər fəalları ilə görüşür, onları narahat edən problemlərlə maraqlanırdı. Sovet illərində dəfələrlə Sumqayıtda olan Heydər Əliyevin hər səfəri şəhərin yaddaşında böyük tarixi hadisəyə çevrilirdi. Heydər Əliyev Sumqayıtda zəhmət adamlarının əməyini yüksək qiymətləndirir, onların keçmiş SSRİ-nin ən yüksək orden və medalları, müxtəlif fəxri adlarla təltif edilməsinə nail olurdu. Şəhəri qurub-yaradan insanlar öz növbəsində əməyi daim uca tutan Heydər Əliyevə xüsusi bir rəğbət bəsləyir, onu özlərinin himayədarı kimi qəbul edirdilər. Bütövlükdə əsrin Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsi Sumqayıtın da yüksəlişinin qızıl mərhələsidir. Həmin dövrdə məhz Heydər Əliyevin sayəsində şəhərimizin möhtəşəm tarixi yaranıb və yazılmışdır.

Təəssüf ki, sonrakı illərdə, xüsusilə müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan qrupların səbatsızlığı Azərbaycanda bütün sahələrdə olduğu kimi, iqtisadiyyatda da dərin böhrana səbəb olmuş, o cümlədən Sumqayıtda yaradılmış böyük iqtisadi potensial sıradan çıxarılmışdır. Düzdür, o dövrdə həm də keçmiş sovetlər ittifaqının bütün ölkələri arasında iqtisadi əlaqələr zənciri də qırılmışdır. Amma Rusiyanın, Belarusun, Qazaxıstanın, Ukraynanın sənaye müəssisələrində Azərbaycanda olduğu kimi ciddi problemlər yaranmamışdı. Güclü potensialının olmasına baxmayaraq, adıçəkilən ölkələrin sənaye müəssisələrindən fərqli olaraq, Sumqayıtın demək olar ki, bütün sənaye müəssisələrinin fəaliyyətində dərin tənəzzül baş vermişdi və bu vəziyyət bir daha təsdiq edir ki, o illərdə Azərbaycana rəhbərlik edənlər mövcud iqtisadi imkanlardan səmərəli istifadə etmək əvəzinə respublikamızı talan etmək, iqtisadiyyatını dağıtmaq yolunu tutmuşdular. Və əlbəttə ki, tamamilə antimilli siyasət yürüdən AXC-Müsavat cütlüyündən Azərbaycanın maraqları naminə müsbət fəaliyyət gözləməyə də dəyməzdi və məlum olduğu kimi, məhz bu qaragüruhun fəaliyyətinin nəticəsi olaraq 1993-cü ildə Azərbaycan müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi.

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə də Sumqayıtın inkişafı və şəhərin sənaye müəssisələrinin tənəzzüldən çıxarılması ilə bağlı məsələləri diqqət mərkəzində saxlamışdır. Təsadüfi deyil ki, Heydər Əliyev 1993-cü ildə Azərbaycan Prezidenti seçildikdən sonra iş qrafikinin gərginliyinə baxmayaraq, ilk ölkədaxili səfərini məhz Sumqayıta etmişdir. 1993-cü il dekabrın 18-də reallaşan həmin səfər zamanı Ulu Öndər şəhərimizdə quraşdırılmış yeni telefon stansiyasının açılışında iştirak etmiş, Tarix muzeyində olmuş, Şəhidlər Xiyabanı Kompleksini ziyarət etmiş, icra hakimiyyətinin işçiləri ilə görüşərək tapşırıq və tövsiyələrini vermişdir.

Heydər Əliyev Sumqayıta səfərləri zamanı müxtəlif tədbirlərdə iştirak etmiş, şəhər ictimaiyyəti ilə görüşmüşdür. Ən əsası o idi ki, Ulu Öndərin hər gəlişi əlamətdar hadisəyə çevrilərək Sumrayıtın inkişafına öz təsirini göstərmişdir. Bununla Ümummilli Liderin başlatdığı islahatların nəticəsi olaraq ötən əsrin 90-cı illərində Sumqayıtın yeni iqtisadi münasibətlər sisteminə adaptasiyası sürətlənmişdir. Şəhərin sənaye potensialının bərpası, mövcud müəssisələrin modernləşdirilməsi, elmi innovasiyaların tətbiqinin sürətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər tez bir zamanda müsbət nəticələrini göstərməyə başlamışdır. 2001-ci ildə isə Ulu Öndərin şəxsi dəstəyi ilə xarici investisiya cəlb edilməklə Sumqayıtda iri layihə həyata vəsiqə qazanmış, kimya sənayesinin inkişafında əvəzsiz rol oynayan buxar-generator qurğusu inşa edilmişdir.

## Qafqazın modern sənaye mərkəzi

Heydər Əliyevin Azərbaycanla bağlı arzuları çox idi. Müstəqil ölkəmizə rəhbərlik etdiyi 10 ildə böyük işlər görən Ulu Öndər Azərbaycanı daha yüksək zirvələrdə görmək istəyirdi. Ulu Öndərin bütün dövlətçilik fəaliyyəti, banisi olduğu bütün işlər respublikamızın qüdrətlənməsinə, güclü dövlətə çevrilməsinə, insanların sosial rifahının daha da yaxşılaşdırılmasına hesablanmışdı.

Eləcə də diqqət və qayğısını heç vaxt əsirgəmədiyi Sumqayıtla bağlı Heydər Əliyevin qarşıya qoyduğu strateji vəzifələr vardı. Ulu Öndər Sumqayıtın abad şəhərə, yenidən respublikamızın və o cümlədən Cənubi Qafqazın aparıcı sənaye mərkəzinə çevrilməsini və tarixi şöhrətini yenidən özünə qaytarmasını istəyirdi.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə artıq Azərbaycan öz tarixinin ən qüdrətli dövlətinə çevrilib. Bütün dünya Azərbaycanı Cənubi Qafqazın lider, aparıcı dövləti kimi qəbul edir. Azərbaycan habelə beynəlxalq səviyyədə güclü mövqeləri, qlobal məsələlərdə söz sahibi olan dövlət kimi tanınır.

Yaxşı xatirimizdədir, 2003-cü ildə prezident seçkilərindən öncə xalqa müraciətində Ulu Öndər demişdi: *"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".* Torpaqlarımızın işğaldan azad edilməsi ilə Müzəffər Ali Baş Komandan İlham Əliyev həm ata vəsiyyətini, həm də Ulu Öndərin ən əsas arzusunu yerinə yetirdi. Bu gün əminliklə deyə bilərik ki, Heydər Əliyevin ruhu rahatdır.

Eləcə də Sumqayıtla bağlı Ulu Öndərin müəyyən etdiyi vəzifələr uğurla və keyfiyyətlə yerinə yetirilib, şəhərimiz öz hədəflərinə layiqincə çatıb, şəhərimiz hələ sovet illərində iri sənaye mərkəzi kimi malik olduğu şöhrəti tam bərpa edib.

Hazırda şəhərdə onlarca kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materialları istehsalı müəssisələri fəaliyyət göstərir. Onların hər biri Azərbaycan iqtisadiyyatında böyük rol oynayan aparıcı istehsal müəssisələridir. "Azgüntex" Zavodu, tərkibinə çörək zavodu, taxıl anbarı, dəyirman və logistik mərkəz daxil olan "Sağlam qida" Aqrar-Sənaye Kompleksi, "Azərsun Holdinq"in kağız və karton emalı kombinatı və yağ istehsalı fabriki, "Gilan" Tekstil Parkı, Mis Emalı zavodu, "Alyans Tekstil" MMC-nin uniformalar istehsalı fabriki, "Azkontakt" MMC-nin beton boru və beton döşəmə daşı istehsalı müəssisəsi, "Texnoil" MMC mühərrik yağları istehsalı müəssisələri, Kimya Sənaye Parkındakı İnşaat Kimyəviləri Zavodu, "Tabaterra" QSC-nin tütün məmulatları























# arzuladığı şəhərə çevrilib

istehsalı fabriki, Əlvan Metallar və Ferroərintilər zavodu, pestisid və aqro-kimyəvi məhsulları, sürtkü yağları, polipropilen qurğusu, elektron təhsil avadanlığı, şüşə və saxsı məmulatları istehsalı müəssisələri, Sumqayıt Texnologiyalar Parkında müxtəlif istehsal sahələri üzrə ixtisaslaşmış zavodlar, "Azərtexnolayn" MMC-nin polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsalı zavodları Sumqayıtın sənaye şəhəri kimi şöhrətini artırmaqla bərabər, respublikada gedən inkişaf proseslərinə layiqli töhfələr verir. O cümlədən "SOCAR Karbamid" və "SOCAR Polymer" kimi zavodların yaradılması, nəinki Sumqayıtın, respublikamızın iqtisadi həyatında mühüm hadisəyə çevrilmişdir. "SOCAR Polymer" layihəsi son 45 ildə öz miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk belə layihədir. Bu zavodların hər biri respublikamızın ixrac imkanlarının yüksəlməsinə, gəlirlərinin artmasına layiqli töhfələr verir. Bu müəssisələrin yaradılması həm də son illərdə Sumqayıtda əhalinin məşğulluğunu əhəmiyyətli dərəcədə təmin etmişdir.

Prezident İlham Əliyevin 2011-ci il 21 dekabr tarixli fərmanı ilə yaradılan Sumqayıt Kimya Sənaye Parkı Azərbaycanda yaradılmış ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkıdır. Ərazisi 583,5 hektar təşkil edən Sumqayıt Kimya Sənaye Parkında indiyədək ümumi investisiyalarının həcmi təqribən 5,8 milyard manata yaxın olan 38 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 3,4 milyard ABŞ dollarından çox investisiya yatırılıb. Qeydiyyata alınmış 40 rezidentdən 23-ü fəaliyyət göstərir və onlar tərəfindən neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir.

İndiyədək Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən ümumilikdə 9,5 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, onun da 3,3 milyard manatdan çox hissəsi - təqribən 35 faizi ixrac olunub. 9 min nəfərə yaxın vətəndaşın daimi işlə təmin olunduğu parkda istehsal olunan məhsullar Türkiyə, Rusiya, Ukrayna, Belarus, Çin, Tayvan, Bolqarıstan, Rumıniya, Polşa, Niderland, İtaliya, Makedoniya, Litva, Avstriya, Estoniya, Danimarka, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Gürcüstan, Qırğızıstan, Braziliya, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Livan, İraq, Yaponiya, Amerika Birləşmiş Ştatları, Kanada və digər ölkələrə ixrac edilir. Məhsul ixrac olunan ölkələrin sayı 60-a yaxındır.

Sumqayıt üzrə 2024-cü ilin 3 ayının makroiqtisadi göstəriciləri də həm şəhərin sənaye mərkəzi kimi inkişafından, həm də bütövlükdə Sumqayıtda sosial-iqtisadi inkişafla bağlı qarşıya qoyulan vəzifələrin tam yerinə yetirilməsindən xəbər verir. Belə ki, bu dövrdə ümumi məhsul buraxılışı 1 milyard 250 milyon manat həcmində olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,6 faiz çoxdur. Bu dövrdə sənaye məhsulu istehsalının dəyəri 990 milyon manat təşkil edib və bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,9 faiz çoxdur. Bu inkişafın nəticəsində artıq neçə illərdir ki, Sumqayıt özü-özünü maliyyələşdirir, dövlət büdcəsindən dotasiya almır. 2003-cü ildə 327 min nəfərin yaşadığı Sumqayıtın indi 427 min nəfərdən artıq əhalisi var. Bu artımın özü şəhərin iqtisadi və sosial inkişafından xəbər verir.

## Ekoloji təmiz şəhər

Bir məsələni də xüsusi qeyd etməliyik ki, sənaye müəssisələrinin ekoloji baxımdan problemlər doğurması bütün dövrlərin aktual problemlərindən biri olub. Sənaye baxımından inkişaf etmiş bütün dövlətlərdə ekoloqlar bununla bağlı hər zaman həyəcan təbili çalıblar. Elə Sumqayıtın özündə də bəzi sənaye müəssisələrinin vaxtilə şəhərin ekologiyasına necə təsir göstərməsi yaşlı nəslin xatirindədir. Bu gün isə Sumqayıt Azərbaycanın ekoloji baxımdan ən təmiz şəhərləri sırasında yer alır. Çünki şəhərdə son dövrdə yaradılmış yeni sənaye müəssisələri tamamilə modern texnologiyalar əsasında fəaliyyət göstərdiklərindən ekoloji normalara tam cavab verirlər. Cənab Prezident İlham Əliyevin də şəhərin sənayesinin inkişafı ilə bağlı qarşıya qoyduğu əsas vəzifələrdən biri ekologiyanın qorunmasıdır.

Prezident hələ 2020-ci il aprel ayının 24-də Sumqayıt şəhərinə çəkilən magistral qaz kəmərinin açılışında bununla bağlı deyib: *"Bu müəssisələrin yaradılmasının və təməlinin qoyulmasının çox böyük əhəmiyyəti var, ilk növbədə, Sumqayıt şəhərinin inkişafı üçün. Sumqayıt hazırda nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye mərkəzidir. Eyni zamanda son illər ərzində Sumqayıtda yaradılmış bütün müəssisələr ən yüksək ekoloji standartlara cavab verir. Sumqayıt üçün bunun xüsusi əhəmiyyəti var. Çünki əvvəllər Sumqayıt ekoloji fəlakət zonası idi. Biz isə Sumqayıtı müasir sənaye mərkəzinə çevirərək ilk növbədə insanların sağlamlığını nəzərə almışıq".*

Prezident İlham Əliyevin Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafına dair təsdiq etdiyi beş milli prioritetdən biri "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" kimi müəyyən edilmişdir. Bu prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonası elan olunmuşdur və bu ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir.

Bu il həm də ölkəmizdə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçiriləcək. Belə mötəbər tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir. Bütün bunlardan irəli gələrək Prezident İlham Əliyevin sərəncamı ilə respublikamızda 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Böyük qürur hissi ilə deməliyik ki, Sumqayıt Azərbaycanda "yaşıl dünya" naminə çağırışların öz təcəssümünü uğurla tapdığı ünvanlardan biridir.

2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsindən irəli gələrək Sumqayıtda silsilə tədbirlər, o cümlədən ağacəkmə aksiyaları da həyata keçirilir. Ümumiyyətlə, adambaşına düşən yaşıllıq həcminə görə Sumqayıt respublikamızın şəhərləri arasında öncüllər sırasına çıxıb. Hələ bir neçə il əvvəl Sumqayıtda Dənizkənarı bulvarın yaradılması bu istiqamətdə görülən işlərin miqyasına aydınlıq gətirir.

## Gözəlliklər ünvanı

Sumqayıt son illər əsl tikinti meydanını xatırladıb. Prezident İlham Əliyevin tapşırığı və qayğısı ilə şəhərdə həyata keçirilən kompleks abadlıq və quruculuq işləri, möhtəşəm infrastruktur layihələrinin realaşdırılması, şəhər təsərrüfatının yenidən qurulması nəticəsində şəhərimizdə tamamilə yeni ab-hava yaranıb, inkişaf etmiş şəhərlərə məxsus standartlar formalaşıb.

Xüsusən 2015-ci ilin sonu, 2016-cı ilin əvvəllərindən həyata keçirilən layihələrin nəticəsində Sumqayıtın siması tamamilə dəyişib. Əzəmətli gözəlliyi ilə diqqəti cəlb edən Heydər Əliyev Mərkəzi, Yeni Azərbaycan Partiyasının inzibati binası, Bayraq Muzeyi, Gənclər Mərkəzi, Şahmat Məktəbi, Muğam Mərkəzi Sumqayıtın və şəhərimizin qonaqlarının böyük sevgi ilə üz tutduqları yeni və möhtəşəm ünvanlardır. "Kimyaçılar" Mədəniyyət Sarayının, Dram teatrının, Tarix muzeyinin, "Nizami" kinoteatrının yüksək zövqlə təmir olunaraq yenidən qurulan binaları şəhərimizin simasına yeni rəng qatıb. Məhkəmə Kompleksi, Mərkəzi Bankın Ehtiyat Sistemi binası, şəhər prokurorluğunun binası Sumqayıtın görkəminə əlavə gözəllik gətirən inşaat nümunələridir.

Bununla yanaşı, şəhərdə sosialyönümlü bir sıra infrastruktur layihələri də həyata keçirilib, o cümlədən Olimpiya və Paralimpiya İdman kompleksləri, Əlillərin Bərpa Mərkəzi, əlil və şəhid ailələri üçün ümumilikdə 240 mənzilli 5 yaşayış binası inşa olunub. 1 nömrəli Uşaq-Gənclər İdman Məktəbinin, 3 nömrəli Uşaq-Gənclər Şahmat-Dama İdman Məktəbinin binaları əsaslı təmir olunub, 2 "ASAN xidmət" mərkəzi fəaliyyətə başlayıb.

Sumqayıtın tibb müəssisələri də əsaslı təmir olunub. 1 nömrəli Şəhər Mərkəzi Xəstəxanası, 1 nömrəli doğum evi, 1,2 nömrəli qadın məsləhətxanaları, 1,4 nömrəli şəhər poliklinikaları, Uşaq Xəstəxanasının İnfeksion şöbəsi, Vərəm Xəstəxanası, 2 nömrəli uşaq poliklinikası, 3 nömrəli şəhər xəstəxanasının Poliklinika şöbəsi əsaslı təmir olunub. 1 nömrəli uşaq poliklinikası, 2 nömrəli şəhər poliklinikası, Onkoloji Xəstəxana, 4 nömrəli şəhər xəstəxanasında cari təmir işləri aparılıb. 1 və 2 nömrəli doğum evlərinin Reanimasiya şöbələri müasir tibbi avadanlıqlarla təchiz olunub. 1 nömrəli doğum evi 2018-ci ildən III səviyyəli Perinatal Mərkəz kimi fəaliyyət göstərir.

Sumqayıtda son olaraq icrası başa çatdırılan nəhəng layihələr sırasında Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunun yenidənqurulmasını və 2 saylı Sumqayıt Şəhər Xəstəxanası üçün yeni binanın tikintisini göstərə bilərik. Bu iki layihə şəhərin idman və tibbi infrastruktur baxımından imkanlarını daha da gücləndirib. Prezident İlham Əliyevin şəhərimizə xüsusi qayğısının ən bariz nümunələrindən olan Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda indi ən mötəbər futbol yarışlarının keçirilməsi mümkündür. 2 saylı Sumqayıt Şəhər Xəstəxanasının yeni binası isə 150 çarpayılıq olmaqla müasir tibbi xidmətlərin şəhər sakinləri üçün daha əlçatan olmasına geniş imkanlar yaradıb.

Bir məsələni də qeyd etmək yerinə düşər. Sumqayıt dəniz sahilində yerləşsə də, burada heç vaxt Dənizkənarı bulvar olmamışdı. Hələ 1974-cü ildə Sumqayıta şəhər statusunun verilməsinin 25 illiyi ilə bağlı Dram teatrının inzibati binasında keçirilən mərasimdə çıxış edən Ulu Öndər Heydər Əliyev bu məsələyə toxunmuş, şəhərdə bulvarın salınması ilə bağlı arzusunu ifadə etmişdi. Son illər Sumqayıtda həyata keçirilən kompleks quruculuq tədbirləri sırasında Ulu Öndərin bu arzusu da reallaşmışdır. Belə ki, şəhərdə həyata keçirilən möhtəşəm layihələrdən biri Dənizkənarı bulvarın yaradılmasıdır. 2016-cı ildə 5,2 km uzunluğunda 106 ha sahəsi olan bulvarın salınması şəhərimizin simasını daha da gözəlləşdirən bir quruculuq nümunəsinə çevrilib.

2016-cı il sentyabrın 27-də Sumqayıtda şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı Prezident İlham Əliyev yeni yaradılmış bulvar barədə demişdi: *"Sumqayıt bulvarı isə hesab edirəm ki, bir möcüzədir. Sumqayıt bulvarının yaradılması ilə bağlı mən hələ bir neçə il bundan əvvəl şəhər rəhbərliyi qarşısında vəzifə qoymuşdum. Sumqayıtlılar yəqin ki, xatırlayırlar, hətta bir neçə il bundan əvvəl mənim üçün təqdimat da keçirilmişdi. Hər zaman maraqlanırdım ki, işlər necə gedir. Məlumat verilirdi ki, orada çətinlik, burada çətinlik var. Ancaq bu gün Sumqayıt bulvarı artıq açılıb. Bu bulvarın yaradılmasında şəhər rəhbərliyinin xüsusi rolu, Sumqayıt sakinlərinin böyük rolu var. Mən çox istəyirdim ki, Sumqayıtda Bakı bulvarına bənzər bir bulvar olsun. Bu gün biz buna nail olduq".*

Onu da böyük qürur hissi ilə qeyd etmək istərdim ki, bir neçə il əvvəl Madriddə keçirilən "Global Trade Leaders Club"un XXIV Beynəlxalq Üstünlük və Liderlik Forumunda Sumqayıt bulvarı "İnternational Award for Excellence & Leadership" mükafatına layiq görülüb. Prezident İlham Əliyevin möcüzə adlandırdığı Sumqayıt bulvarının dünyanın diqqət mərkəzinə düşməsi fəxarət doğuran haldır.

Sumqayıtda torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlər zamanı şəhid olmuş şəhər sakinlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilib. 1992-ci ildə salınan Şəhidlər xiyabanı da 2021-ci ildə əsaslı şəkildə təmir olunmuş, kompleks yenidənqurma işləri aparılmış, ərazisi genişləndirilərək 1,2 hektara çatdırılmışdır. Yenidən qurulan Şəhidlər xiyabanında "Qalib Əsgər" abidəsi ucaldılıb, hündürlüyü 30 metr olan yeni bayraq dirəyi quraşdırılıb, şəhidlərin əziz xatirəsinə "Zəfər ağacı" abidəsi yaradılıb.

Son bir neçə ildə Sumqayıtda 3 məktəb üçün yeni bina tikilib. 2021-ci ilin sentyabrında istifadəyə verilən 1 nömrəli tam orta məktəbin yeni tikilmiş tədris binası 1800 şagird yerlikdir. Həmçinin şəhərin İnşaatçılar qəsəbəsində yerləşən 9 nömrəli tam orta məktəb üçün də yeni tədris binası tikilib. Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, məktəbin binası tam sökülərək yerində müasir tələblərə cavab verən 1176 şagird yerlik yeni bina inşa edilib.

Bu il yaradılmasının 20-ci ili tamam olan Heydər Əliyev Fondu da Sumqayıtda təhsilin inkişafına layiqli töhfələr verir. Belə ki, şəhərimizdəki 20 nömrəli tam orta məktəbin yeni binası Heydər Əliyev Fondu tərəfindən inşa olunub. Şəhərin 4-cü mikrorayon ərazisində inşa olunan 3 mərtəbəli məktəb binası 1100 şagirdlikdir.

Sumqayıtda şəhər təsərrüfatının yenilənməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu sahədə son dövrlərə qədər şəhər sakinlərini xüsusilə narahat edən problemlərdən biri liftlərlə bağlı idi. Ölkə rəhbərliyinin bu sahəyə olan diqqəti sayəsində qısa müddət ərzində şəhərin lift təsərrüfatı tamamilə yenilənib, istismar müddətini ötmüş 600-ə yaxın lift yenisi ilə əvəz edilib.

426 min nəfərin yaşadığı Sumqayıtın əsas inkişaf göstəricilərindən biri də burada müasir nəqliyyat infrastrukturunun yaradılması, bu sahədə yeni standartların tətbiqi ilə idarəetmənin təkmilləşdirilməsi və beləliklə, sərnişin daşınması sahəsində rahatlığın təmin olunmasıdır.

Sumqayıtda yaşayış binalarının fasadlarının əsaslı təmiri və binaların müasir qaydada üzlənməsi işləri də həyata keçirilib. Bu proseslə binaların memarlıq görünüşü saxlanılıb, aşınmaya məruz qalmış və piyadalar üçün təhlükə yaradan elementlər yenilənib. Fasadlama işləri zamanı binaların tarixi memarlıq elementləri, dizayn və naxışları olduğu kimi qorunub. 1200-dən artıq yaşayış binasına yeni dam örtüyü vurulub.

Quruculuq işləri çərçivəsində "Acı dərə" kanalının yaratdığı problem də aradan qaldırılıb. Məlum olduğu kimi, bu kanal şəhər sakinləri üçün çox böyük ekoloji təhlükə mənbəyi idi. Kanalın boruya salınması ilə bu təhlükə aradan qaldırılıb.

Sumqayıt keçmiş sovetlər birliyində dostluq, qardaşlıq, metallurqlar, kimyaçılar, energetiklər, inşaatçılar, əmək qəhrəmanları şəhəri kimi şöhrət qazanmışdı. Sumqayıt bu gün də dostluq məkanıdır, sənaye mərkəzidir, əmək qəhrəmanları ilə tanınan şəhərdir. Lakin bu gün Sumqayıt həm də gözəlliklər şəhəridir, möhtəşəm quruculuğun ünvanıdır. Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində həyata keçirilən kompleks quruculuq nümunələri Sumqayıtı gözəl, o cümlədən "ağıllı şəhər" konsepsiyasının tətbiq olunduğu modern, ekoloji baxımdan təmiz, "yaşıl şəhər"ə çevirib, sumqayıtlılara xoş ovqat və yeni standartlar bəxş edib. Prezident İlham Əliyevin ötən 20 ildə Sumqayıta 33 dəfə səfər etməsi də cənab Prezidentin şəhərimizə olan diqqət və qayğısının təcəssümüdür. Qədirbilən sumqayıtlılar isə bu diqqəti və qayğını hər zaman yüksək dəyərləndirirlər. Fevralın 7-də keçirilən prezident seçkilərinin Sumqayıtı əhatə edən seçki dairələri üzrə qeydə alınan nəticələri sumqayıtlıların Prezident İlham Əliyevə olan dərin etimadı ilə yanaşı, həm də təşəkkürlərinin real ifadəsinə çevrildi.

Yaratdığı inkişaf nümunələri ilə Sumqayıt bu gün Heydər Əliyevin arzuladığı bir səviyyəyə yüksəlib. Ulu Öndərin ideyaları və Prezident İlham Əliyevin inkişaf siyasəti şəhərin tərəqqisinin təməlində dayanan əsas prinsiplərdir. Prezident İlham Əliyevin diqqət və qayğısının nəticəsi olaraq Sumqayıt Azərbaycanın yeni inkişaf mərhələsində də qürurdoğuran inkişaf nümunələrinə imza atacaq.

**Zakir FƏRƏCOV,**
***Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı***
















1923 Azərbaycanın özü qədər əbədi 2024

# Heydər Əliyev missiyası



Bu gün Azərbaycan xalqı özünün dövlətçilik və müstəqillik tarixinin ən şərəfli mərhələsini yaşayır. Rusiya sülhməramlı kontingentinin Azərbaycanı tərk etməsi, Qazaxın Ermənistanın işğalı altında olan Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin Azərbaycana qaytarılması ilə bağlı razılığın əldə edilməsi Prezident İlham Əliyevin yaratdığı zəfər salnaməsinin növbəti təntənəsinə çevrilərək hər birimizin dərin sevincinə səbəb oldu.

Vətən müharibəsindəki Zəfərimizi və 2023-cü ildə bütün torpaqlarımız üzərində suverenliyimizin təmin olunmasını şərəfləndirən bu siyasi-diplomatik hadisələrin nəticəsi kimi 2024-cü il də tariximizə növbəti qürurdoğuran dövr kimi daxil olacaq. Eyni zamanda Azərbaycanın milli maraqlarının qətiyyətlə təmin olunduğunu nümayiş etdirən bu uğurların təcəssümü kimi xalqımız əlamətdar tarixləri indi daha böyük coşqu ilə qeyd edir. Ulu Öndər, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünü bütün torpaqlarımız üzərində milli suverenliyimizin tam təmin edildiyi bir tarixi şəraitdə qarşılamağımız isə daha əlahiddə məqamdır.

## Dövlətimizin etibarlı təməlinin müəllifi

Bütün inkişaf etmiş cəmiyyətlərin keçdiyi tarixi yol sübut edir ki, dövlətlərin və xalqların tərəqqisi, yüksəlişi üçün maddi imkanlar böyük rol oynasa da, bu, yetərli deyil. Hər bir dövlətin və xalqın taleyində lider amili bütün zamanlarda dövlətçilik və müstəqillik üçün vacib olan siyasi-iqtisadi şərtlərin fövqündə dayanır.

Çox tarixi hadisələrə varmadan Türkiyədə Atatürkün, Böyük Britaniyada Uinston Çörçillin, ABŞ-də Corc Vaşinqtonun, Almaniyada Otto Bismarkın və eləcə də adlarını çəkmədiyimiz digər tarixi şəxsiyyətlərin timsalında aydın görürük ki, dövlətlərin intibahı, qlobal siyasi səhnədə özünə layiqli yer tutması, nüfuzu həm də fenomen siyasi liderlərdən əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan Azərbaycanın müasir tarixi Ulu Öndər Heydər Əliyevin nəhəng siyasi fəaliyyətinin, xalq arasındakı misilsiz nüfuzunun mahiyyətində əsas amil kimi lider faktorunu şərtləndirir. Eyni zamanda onun dövlətin və millətin tarixində, gələcək inkişaf yolunun formalaşmasında, beynəlxalq aləmdə özünü təsdiq etməsində mütləq istinad olduğunu isbata yetirir.

Bütün siyasi fəaliyyətini, şərəfli ömrünü öz dövlətinə həsr edən, xalqına bağışlayan Ulu Öndər Heydər Əliyevin barəsində fikir yürüdərkən son 55 illik dövrü təhlil etmək vacibdir. Ona görə ki, Heydər Əliyevin yaratdığı şanlı irs Azərbaycanın bu günü, gələcəyi üçün dəyişməz mayakdır və bizlər bu irsi həm təbliğ etməli, həm də gələcək nəsillərə çatdırmalıyıq. Lakin o da aydındır ki, Heydər Əliyevlə bağlı düşüncələrimiz nə qədər əhatəli, müfəssəl olsa da, onun şəxsiyyətinin nəhəngliyini tam şəkildə ehtiva edə bilməz. Çünki müasir Azərbaycan dövlətinin istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə istisnasız olaraq bütün uğurları, o cümlədən müstəqilliyimizin xilası və dövlətçiliyimizin etibarlı təməllərinin yaradılması Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövrlərdəki tarixi proseslərdə lider amilini ətraflı təsvir etməyə isə cild-cild fundamental araşdırmalar, akademik əsərlər gərəkdir.

## Azərbaycanı liderlər cərgəsinə çıxaran rəhbər

Heydər Əliyev bütün tarixi mərhələlərdə, ən çətin anlarda öz xalqının yanında, daha doğrusu, önündə olub. Ötən əsrin 70-ci illərində respublikamızda tənəzzüldən tərəqqiyə keçid və nəticə etibarilə yaşanan milli, iqtisadi və sosial intibah birmənalı şəkildə Heydər Əliyevin adı ilə bağlıdır. Məlum olduğu kimi, həmin illər Azərbaycan ittifaq miqyasında inkişafına görə çox geri idi, müttəfiq respublikalar arasında sonuncu yerləri tuturdu. Lakin Ulu Öndərin təşəbbüsləri və nəzarəti ilə həyata keçirilən islahatlar nəticəsində iqtisadiyyatda geniş vüsətli dəyişikliklər baş verdi. Maşınqayırma, kimya, neft kimyası, elektron sənayesi, əlvan və qara metallurgiya, yüngül sənaye, yeyinti, emal müəssisələri inşa olundu, çoxsaylı strateji əhəmiyyətli müəssisələr yaradıldı. Məhz Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin strateji əhəmiyyətli müəssisələri Azərbaycanda inşa olundu.

Görülən məqsədyönlü tədbirlər nəticəsində qısa bir zamanda Azərbaycan aqrar əyalətdən inkişaf edən sənaye respublikasına çevrildi. Belə ki, 1980-ci ildə sənaye məhsulu istehsalının həcmi 1970-ci ilə nisbətən 2,9 dəfəyə qədər yüksəldi. Maşınqayırma sənayesində istehsalın həcmi 5,3 dəfə, kimya və neft-kimya sənayesində 3 dəfədən, yeyinti sənayesində 4 dəfədən çox artdı. Sənaye ilə yanaşı, kənd təsərrüfatı da inkişaf etdirildi. Əkinçiliyin ayrı-ayrı sahələri - pambıqçılıq, taxılçılıq, üzümçülük, tütünçülük, bağçılıq, bostan və tərəvəz, eləcə də heyvandarlıq məhsullarının istehsalı 1982-ci ildə 1969-cu illə müqayisədə 2,5 dəfədən çox artdı.

Paralel olaraq respublikanın yol infrastrukturu, nəqliyyat sistemi yenidən quruldu, dəmiryolu xətləri, geniş prospektlər tikilib istifadəyə verildi, Bakıda yeni metrostansiyalar inşa olundu. Əhalinin mənzilə olan tələbatının ödənilməsi istiqamətində böyükmiqyaslı layihələr həyata keçirilməyə başlandı. 1971-1982-ci illərdə respublikada 18 milyon 293 min kvadratmetr mənzil sahəsi tikilib istifadəyə verildi. Respublika ərazisində müasir şəhərsalma normalarına uyğun yeni qəsəbələr, yaşayış massivləri, parklar, küçə və meydanlar salındı, milli memarlıq xüsusiyyətlərini özündə əks etdirən elm, mədəniyyət, səhiyyə obyektləri, sanatoriya və kurort kompleksi yaradıldı.

Məhz Heydər Əliyevin sayəsində Azərbaycan ittifaq miqyasında sosial-iqtisadi göstəricilərinə görə sonuncu yerlərdən qabaqcıl mövqeyə, daha dəqiq desək, 14-cü yerdən liderlər cərgəsinə yüksəldi. Heydər Əliyev respublikamızda elə bir möhkəm iqtisadi-sosial baza yaratdı ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra da xalqımız onun bəhrəsini, müsbət təsirini hiss etdi. Həmin iqtisadi potensial Azərbaycan üçün böyük imkanlar açdı və bu gün də müstəqil dövlətimizə tam gücü ilə xidmət göstərir.

O dövr Heydər Əliyev Azərbaycanı yalnız sosial-iqtisadi inkişaf yoluna çıxarmamışdı, həm də bu intibah milli-mədəni, mədəni-ictimai sahələrdə gerçəkləşmişdi. Dövlət tədbirlərində ana dilində danışan, Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsinə nail olan, şair və yazıçılarımızı repressiyalardan xilas edən Ulu Öndər xalqımızın milli kimliyinin, mənəvi dəyərlərinin qorunması, yaşadılması, gələcək nəsillərə ötürülməsi üçün qeyri-adi əzmkarlıq, böyük fədakarlıqlar göstərmişdi. Bu baxımdan ilk dəfə o zaman xalqımız öz dahi oğlunun vətənpərvərliyinə, cəsarətinə, milli hisslərə bağlılığına şahidlik etmişdi.

Bu sırada Heydər Əliyevin təşəbbüsləri ilə gənclərimizin təhsil almaq üçün keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsini, azərbaycanlıların hərbi təhsilə daha yaxından cəlb edilmələri üçün Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılmasını xüsusi qeyd etməliyik. Keçmiş ittifaqın nüfuzlu təhsil ocaqlarında təhsil alan azərbaycanlı gənclər bu gün də Azərbaycanda həyatın bütün sahələrində fəal iştirak edirlər. Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin məzunları isə Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasına, tarixi Zəfərin qazanılmasına layiqli töhfələrini verdilər.

Tarixi hadisələrin sonrakı gedişi də sübut etdi ki, Heydər Əliyevin 1969-1982-ci illərdə gördüyü işlər gələcəkdə milli dövlətçilik ideyalarının hərəkətverici qüvvəyə çevrilməsi və cəmiyyətin bu ideya ətrafında səfərbər olması üçün münbit şərait yaratdı. Həmin dövr respublikada bərqərar edilən əsl işgüzarlıq mühiti, sosial ədalətə əsaslanan sağlam mənəvi-psixoloji ab-hava iqtisadi tərəqqinin yüksək həddə çatmasına, Azərbaycanın keçmiş ittifaq miqyasında nüfuz qazanmasına, hətta beynəlxalq səviyyədə tanınmasına imkan verdi.

Moskvada SSRİ rəhbərliyində işlədiyi dövrdə də Heydər Əliyev olduqca vacib sahələrə rəhbərlik edirdi. Prezident İlham Əliyevin ötən ay Rusiyaya işgüzar səfəri zamanı görüşlərdə səslənən fikirlər bir daha təsdiqləyir ki, Heydər Əliyevin ümumilikdə Sovet İttifaqındakı tarixi xidmətləri bu gün də Rusiyada böyük ehtiramla xatırlanır. Prezident İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşündə Heydər Əliyevlə bağlı səslənən fikirlər xalqımızın dahi oğlunun nə qədər böyük şəxsiyyət olduğunu növbəti dəfə nümayiş etdirdi.

Dünyanın fövqəldövlətləri sırasında olan Rusiyanın Prezidenti Vladimir Putinin *"BAM-ın tikintisinə başlanmasının yarıməsrlik yubileyi münasibətilə Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevi şəxsən təbrik etməkdən çox məmnunam. Onun atası, - bunu bütün BAM inşaatçıları yaxşı bilir, - Heydər Əlirza oğlu BAM-ın tarixində müstəsna, böyük rol oynayıb. Heydər Əlirza oğlu SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində Baykal-Amur Magistralının tikintisinə rəhbərlik edir və bu çətin layihənin həyata keçirilməsi üçün əlindən gələni əsirgəmirdi"* sözləri Ulu Öndərin tarixi xidmətlərinə verilən böyük dəyərdir. Yaxud BAM-ın tikintisində çalışmış və sonralar SSRİ nəqliyyat tikintisi nazirinin müavini olmuş Yefim Vladimiroviç Basinin fikirlərinə diqqət yetirək: *"Hökumət tərəfindən tikintiyə Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əlirza oğlu Əliyev nəzarət edirdi. O, möhkəm iradəli, böyük erudisiyaya malik və səriştəli bir insan idi. O, mənim taleyimdə də əhəmiyyətli rol oynayıb. Mənim taleyimdə o, BAM-ın tikinti rəisi - SSRİ nəqliyyat tikintisi nazirinin müavini vəzifəsinə təyin edilməyimdə də mühüm rol oynayıb"*. Bütün bu deyilənlər Rusiya ictimaiyyətində Heydər Əliyevin daim böyük minnətdarlıqla xatırlandığını göstərir.

Moskvadakı işlərinin çoxluğuna rəğmən, Heydər Əliyev doğma Vətəninin inkişafı ilə bağlı məsələləri diqqət mərkəzində saxlayırdı. Yüzlərlə faktdan yalnız birini xatırlayaq: O illərdə Heydər Əliyevin qətiyyəti nəticəsində Bakıda SSRİ miqyasında yeganə olan Bakı Dərin Dəniz Özülləri Zavodunun inşası başa çatdırılmasaydı, müstəqillik illərində neft sənayemizi sürətlə inkişaf etdirmək mümkün olmazdı.

## Xilaskar

Müasir Azərbaycanın 1969-cu ildən başlanan tarixi göstərir ki, son 55 ildə xalqımızın məruz qaldığı faciələr yalnız Ulu Öndərin siyasi hakimiyyətdə olmadığı illərdə baş verib. Təəssüf ki, o illər Heydər Əliyevdən sonra Azərbaycanda siyasi hakimiyyətdə olan şəxslər tarixi reallıqları düzgün dərk edə bilmədilər, qətiyyətsizlik nümayiş etdirdilər. Məkrli erməni iddialarının və keçmiş Dağlıq Qarabağdakı separatizmin qarşısının alınması üçün cəsarətli mövqe ortaya qoymadılar. Bu da Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının güclənməsinə gətirib çıxardı, daha sonra 20 Yanvar faciəsi baş verdi. Həmin ağır günlərdə də Heydər Əliyev heç nədən qorxmadan, böyük cəsarətlə haqq səsini ucaltdı.

Bütün vəzifələrindən istefa verən Heydər Əliyev ötən əsrin 80-ci illərinin sonunda, 90-cı illərin əvvəllərində heç bir vəzifə tutmasa da, yenə də öz xalqının yanında idi. Bu baxımdan Heydər Əliyevin 1990-cı ilin iyul ayında Moskvadan öz vətəninə gəlişi o dövr respublikamızda yeni baş qaldırmaqda olan istiqlal mücadiləsini yeni mərhələyə yüksəltdi. Bakıya gələn Heydər Əliyev daha sonra Naxçıvana getdi və bu qədim diyar öz böyük oğlunu böyük coşqu, sevgi ilə qarşıladı. Məhz Naxçıvanda Heydər Əliyevin qətiyyətli təşəbbüsləri ilə üçrəngli bayrağımızın ilk dəfə Naxçıvan Muxtar Respublikasının rəsmi bayrağı elan edilməsi, muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması, SSRİ-nin saxlanılması ilə bağlı referendumun Naxçıvanda boykot edilməsi xalqımızın müstəqillik uğrunda mübarizəsinin şərəfli səhifələridir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərinin ən mühüm mərhələsini isə müstəqilliyimizin ilk illərində həyata keçirdiyi böyük xilaskarlıq missiyası təşkil edir. Heydər Əliyev müstəqilliyimiz uğrunda siyasi mübarizənin önündə getmiş, öz qətiyyəti ilə bu mübarizəni daha da gücləndirmişdi. Lakin müstəqilliyimizin ilk illərində hakimiyyətə yiyələnən qüvvələrin səriştəsiz və naşı siyasəti, o cümlədən milli ideallara xəyanət etmələri müstəqilliyimizi itirilmək təhlükəsi qarşısında qoymuşdu. Amma o dövr məhz Heydər Əliyev faktoruna görə Azərbaycan cəmiyyəti sabaha olan inamını itirməmişdi.

Ulu Öndərin rəhbərliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis olunması da Heydər Əliyevə olan inamdan irəli gəlirdi. Hər kəs inanırdı ki, Azərbaycanı üzləşdiyi bütün problemlərdən yalnız Heydər Əliyev dühası xilas edə bilər. Beləliklə, ölkədə hərbi-siyasi qarşıdurmanın pik həddə çatdığı 1993-cü ilin iyun günlərində xalqın təkidli istəyi ilə Naxçıvandan Bakıya gələn Ümummilli Lider ilk gündən başlatdığı xilaskarlıq missiyasını şərəflə yerinə yetirdi. Tarix də sübut edir ki, əgər həmin ağır şəraitdə Heydər Əliyev proseslərə müdaxilə etməsəydi, müstəqilliyimiz itirilər və Azərbaycan dövlət kimi parçalanardı. Bu baxımdan Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçildiyi 15 İyun tarixinin təqvimə Milli Qurtuluş Günü kimi həkk olunması Ulu Öndərə olan ümumxalq minnətdarlığının bariz ifadəsidir.

Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışı Azərbaycanda tamamilə yeni iqtisadi-siyasi proseslərin meydana çıxması ilə nəticələndi. Ulu Öndərin siyasi dühası ilə dövlətimizin güclü və etibarlı təməli qoyuldu. Milli və dini mənsubiyyətindən asılı olmayaraq cəmiyyətimizin bütün təbəqələri Heydər Əliyevin müəllifi olduğu müasir dövlətçilik ideallarının və azərbaycançılıq ideologiyasının ətrafında sıx birləşdi. Sonrakı dövrlərdə də dövlətçiliyimizə qəsd edilməsinə cəhdlərin şahidi olduq. Lakin Ulu Öndər elə bir bünövrə yaratmışdı ki, heç bir qüvvə onu sarsıda və ya zəiflədə bilməzdi.

Ümummilli Liderin zamanın çağırışlarından irəli gələrək həyata keçirdiyi hüquqi dövlət quruculuğu, o cümlədən iqtisadi, sosial və aqrar islahatlar Azərbaycanın müasir dövrün tələbləri səviyyəsində yüksəlişini təmin edən mühüm amillər oldu. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması isə beynəlxalq səviyyədə Heydər Əliyevə olan inamın göstəricisi idi. Neft sazişi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, qlobal miqyasda mövqelərimizin gücləndirilməsi, dövlətimizin etibarlı iqtisadi təməlinin yaradılması baxımından lokomotiv rolunu oynadı.

Eyni zamanda Heydər Əliyev siyasi hakimiyyətə qayıdışı ilə Ermənistanın respublikamıza qarşı həyata keçirdiyi hərbi əməliyyatların qarşısını aldı. Ulu Öndərin yaratdığı nizami ordu cəbhənin müxtəlif istiqamətlərində uğurlu hərbi əməliyyatlar həyata keçirdi, Murov dağı və Füzuli rayonu istiqamətində ərazilərimizin bir qismi düşməndən geri alındı.

Bütövlükdə, xalqımızın dahi oğlu Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi indi tarixi uğurları ilə fəxr etdiyimiz güclü Azərbaycan dövlətinin yaranması ilə nəticələndi. Özünün dediyi kimi, ömrünün qalan hissəsini xalqına bağışlayan Ulu Öndərin adı tariximizə müasir Azərbaycan dövlətinin banisi və qurucusu kimi yazıldı. Heydər Əliyev respublikamız üçün elə bir yüksəliş kursunun əsasını qoyub ki, bu yol həm indi, həm də gələcəkdə Azərbaycanın inkişafına və güclənməsinə xidmət edəcək. Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə ötən 20 ildə Azərbaycanın keçdiyi möhtəşəm inkişaf yolu bunu aydın şəkildə təsdiq edən tarixi reallıqdır.

## Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Lider

2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev xalqımıza müraciətində demişdi: *"O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər"*.

Ötən 20 il Azərbaycanda həyatın bütün sahələrində baş verən dəyişikliklər, dövlətimizin tarixini şərəfləndirən hadisələrin yaşanması Heydər Əliyevin nə qədər uzaqgörən şəxsiyyət olduğunu təsdiq edir. İnkişafın, yüksəlişin ən əsas təsdiqi makroiqtisadi göstəricilərdir. Odur ki, bəzi statistik rəqəmlərə, əsas makroiqtisadi göstəricilərə nəzər yetirməklə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın 20 ildəki inkişafının nə qədər sürətli və məzmunlu olduğunu bilmək mümkündür.

Bu dövr ərzində Azərbaycanda ÜDM 7,1 milyard manatdan 133,8 milyard manata, dövlət büdcəsinin gəlirləri 1,2 milyon manatdan 34 milyard, müdafiə xərcləri 150 milyon ABŞ dollarından 6 milyard 421 milyon manata, strateji valyuta ehtiyatları 1,8 milyard dollardan 69 milyard ABŞ dollarına, orta aylıq əməkhaqqı 77,4 manatdan 1000, minimum pensiya 20 manatdan 280 manata çatıb. 2003-cü ildə Azərbaycanda adambaşına düşən ÜDM 888,6 ABŞ dolları olduğu halda, ötən ilin yekunlarına əsasən, bu rəqəm 13292,2 manata bərabər olub. Dövlət büdcəsinin sosial xərcləri 20 dəfədən çox, minimum əməkhaqqı 38, minimum pensiya 14 dəfə artıb.

Bu qürurdoğuran rəqəmlər o qədər çoxdur ki, onların cüzi hissəsini qeyd etdik. Əlbəttə, biz bu rəqəmlərə yalnız quru statistik göstəricilər kimi yanaşa bilmərik. Çünki bu rəqəmlərin hər birinin arxasında Prezident İlham Əliyevin siyasi iradəsi, qətiyyəti, düşünülmüş və əsaslandırılmış iqtisadi siyasəti, ən əsası vətən sevgisi, Azərbaycanı inkişaf etmiş dövlətlərin cərgəsinə çatdırmaq arzusu dayanır.

Bu illər ərzində Heydər Əliyevin əsasını qoyduğu enerji siyasətini qətiyyətlə davam etdirən Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin həyata vəsiqə almasını təmin edib. Bakı-Tbilisi-Qars dəmir yolu xətti, "Cənub qaz dəhlizi" kimi meqalayihələrin reallığa çevrilməsi İlham Əliyev siyasətinin növbəti qələbələri kimi tariximizə həkk olunaraq, ölkəmizdə gedən inkişaf proseslərinin sürətləndirilməsinə yol açıb, Azərbaycanın beynəlxalq mövqelərini əhəmiyyətli dərəcədə gücləndirib.

Bütün bu qürurdoğuran iqtisadi və sosial inkişaf nümunələrinin hər biri, Azərbaycanın tarixinin ən qüdrətli dövlətinə çevrilməsi göstərir ki, Heydər Əliyev siyasəti layiqincə davam etdirilmiş, Ulu Öndərin ideyaları həyata vəsiqə almışdır.

## Ulu Öndərin arzuları gerçəkləşdi

Heydər Əliyevin ən böyük arzusu torpaqlarımızı azad görmək idi və inanırdı ki, ərazilərimiz işğaldan mütləq qurtulacaq. Ulu Öndərin 2003-cü ildə xalqa müraciətində yer alan *"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"* sözləri də məhz bu inamdan irəli gəlirdi.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı kimi Prezident İlham Əliyev Ermənistanla aparılan danışıqlar dövründə vasitəçilərin Azərbaycanın milli maraqlarına uyğun olmayan heç bir təklif və təşəbbüsünü yaxına buraxmadı. Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verilməyəcəyini bəyan edən Prezident İlham Əliyev eyni zamanda bildirirdi ki, əgər danışıqlar nəticəsiz qalarsa, respublikamız müharibə yolu ilə torpaqlarını işğaldan azad edəcək. Bu məqsədlə Azərbaycan Silahlı Qüvvələrində müasir çağırışlardan irəli gələn islahatlar həyata keçirildi, ordumuzun döyüş imkanları ən yüksək səviyyəyə çatdırıldı.

2020-ci ilin Vətən müharibəsi cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə döyüş imkanlarını artıran Azərbaycan Silahlı Qüvvələrinin gücünün praktik təsdiqi oldu. Cəmi 44 gün ərzində torpaqlarımızın işğaldan azad edilməsi Prezident İlham Əliyevin qətiyyətinin, siyasi-diplomatik uzaqgörənliyinin təntənəsinə çevrildi. Çünki bu savaşda Azərbaycan yalnız Ermənistana deyil, dünya erməniliyinə və onlarla iş birliyində olan fövqəldövlətlərə qalib gəldi.

Ötən ilin sentyabr ayında isə Müzəffər Ali Baş Komandan İlham Əliyev dövlətçiliyimizi şərəfləndirən növbəti tarixi qələbəyə imza atdı. Dövlət başçısının sərkərdə qətiyyəti, hərbçilərimizin şücaəti ilə Qarabağdakı erməni separatçıları tam darmadağın edildilər. Bununla Azərbaycan bütün ərazisi üzərində milli suverenliyini təmin etdi, Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaratmaq kimi mənfur ideya tarixdən birdəfəlik silindi. Bununla cənab İlham Əliyev ərazimizdə 200 il ərzində mövcud olmuş erməni separatçılığına son qoydu.

Bu il fevralın 7-də keçirilən prezident seçkilərində xalqımız Vətən müharibəsindəki qalibiyyətin yaratdığı coşqu ilə iştarak etdi. İlk dəfə olaraq Azərbaycan dövlətinin bütün ərazilərində keçirilən və xalqımızın öz qalib Liderinin ətrafında sıx səfərbər olmasının növbəti təcəssümü olan bu seçki tariximizə həm də Zəfər seçkisi kimi həkk edildi. Seçkinin nəticəsi Azərbaycan xalqının Heydər Əliyevin ideyalarına sədaqətinin, torpaqlarımızın işğaldan azad olunmasını təmin edən Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlığının ifadəsinə çevrildi. Xalqımız Azərbaycanı tarixinin ən qüdrətli dövləti səviyyəsinə yüksəldən siyasətin ətrafında daha da sıx birləşərək, ötən 20 ildə qazandığımız uğurların yeni inkişaf dövründə də davamına səs verdi.

Yeni inkişaf dövrünü isə Azərbaycan yeni reallıqlarla qarşılayır. Qarabağın və Şərqi Zəngəzurun sürətlə bərpası, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı, Ermənistanla dövlət sərhədinin delimitasiyasının başlanması, Rusiya sülhməramlılarının ölkəmizin ərazisini tərk etməsi, dünya erməniliyinin anti-Azərbaycan siyasətinin fiaskoya uğradılması qədəm qoyduğumuz yeni tarixi mərhələnin hər birimizi fərəhləndirən hadisələridir.

## Heydər Əliyevin ideyalarını və irsini yaşadan fond

May ayının 10-da başqa bir əlamətdar hadisənin - Ulu Öndərin ideyalarını və irsini yaşatmaq üçün ictimai həyatın müxtəlif sahələrində fundamental layihə və proqramlar həyata keçirən Heydər Əliyev Fondunun yaradılmasının 20-ci ili tamam olur. Böyük məmnuniyyətlə qeyd etməliyik ki, respublikamızda həyatın bütün sahələrində Heydər Əliyev Fondunun fəaliyyətinə rast gəlmək mümkündür. Təsadüfi deyil ki, ötən 20 ildə fond gördüyü işlərlə Azərbaycanda müxtəlif istiqamətlərdə həyata keçirilən dövlət siyasətinə layiqli töhfələr verib.

Öz fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, qlobal miqyasda böyük nüfuz qazanan Heydər Əliyev Fondunun bütün nailiyyətlərinin təməlində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın əzmkarlığı dayanır. Mehriban xanım Əliyevanın təşkilatçılığı və təşəbbüsləri ilə Heydər Əliyev Fondunun sosial, mədəniyyət, humanitar və digər sahələrdə həyata keçirdiyi layihə və proqramlar ölkəmizdə təhsilin, səhiyyənin inkişafına, mədəni və tarixi dəyərlərimizin qorunmasına, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına, müxtəlif xəstəliklərdən əziyyət çəkən vətəndaşlarımızın, xüsusilə körpə və uşaqların müalicəsinə, aztəminatlı insanların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edib. Fond tərəfindən yüzlərlə məktəb və uşaq bağçasının inşası və təmiri, uşaq evlərinin yenidən qurulması, irsi və qan xəstəliklərinin qarşısının alınması, autizm və daundan əziyyət çəkən uşaqların müalicəsi ilə bağlı tibbi mərkəzlərin yaradılması həm də Mehriban xanımın vətənpərvərliyinin təcəssümüdür. COVID-19 pandemiyasının tüğyan etdiyi dövrdə və Vətən müharibəsi günlərində də Azərbaycan ictimaiyyəti bir daha Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrlə Mehriban xanım Əliyevanın vətənpərvərliyinə şahidlik etdi.

Bu gün Heydər Əliyev Fondu həm də Qarabağ və Şərqi Zəngəzurda çoxsaylı layihələr həyata keçirir. Fond tərəfindən Şuşada və işğaldan azad edilmiş digər şəhər və kəndlərimizdə görülən işlər bir daha Mehriban xanımın vətən sevgisini təcəssüm etdirir. Bütövlükdə isə bu layihələr Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurda başlatdığı bərpa və quruculuq prosesinə ən böyük ictimai dəstəkdir.

*Prezident İlham Əliyev qeyri-adi tarixi nailiyyətlərimizin memarı olaraq, həm də Ulu Öndər Heydər Əliyevin bütün arzularını həyata keçirdi. Ən əsası isə Azərbaycanı Heydər Əliyevin arzuladığı zirvəyə ucaltdı.*

**Ağalar VƏLİYEV,**
***Milli Məclisin deputatı***

1923 *Azərbaycanın özü qədər əbədi* 2024

**Azərbaycanın XX əsr tarixinə öz adını qızıl hərflərlə yazmış, böyük dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur. Ümummilli Lider Heydər Əliyev geniş və çoxşaxəli fəaliyyəti ilə dövlətimizin quruculuq tarixində, milli məfkurənin formalaşmasında, ictimai-siyasi həyatında əsaslı dönüş yaratmışdır. Ulu Öndər Heydər Əliyev əsrin əvvəllərindən formalaşan demokratik ənənələrin yaşanmasında və inkişafında, milli-mədəni irsimizin qorunmasında və təbliğində əvəzsiz rol oynamış, Azərbaycanı bütün dünyaya tanıtmışdır. Onun xalqımız qarşısındakı xidmətləri misilsizdir.**



# Azərbaycan dövlətinin xilaskarı və memarı

Böyük istedadı və uzaqgörən siyasəti sayəsində Heydər Əliyev müasir bəşər tarixində iki müxtəlif ictimai-siyasi quruluşda hakimiyyət zirvəsinə yüksəlməyə nail olmuşdur. Onun Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə milli şüurun oyanışı naminə həyata keçirdiyi kompleks tədbirlər təkcə ədəbi-mədəni sferaları əhatə etməmişdir. Həmçinin elm, təhsil, səhiyyə, kadr hazırlığı, sosial-iqtisadi sahələrdə həyata keçirdiyi məqsədyönlü tədbirlərin uğurlu nəticələri bir neçə onillikdən sonra Azərbaycanın müstəqil dövlət kimi mövcudluğuna etibarlı zəmin hazırlamışdır.

Məlum olduğu kimi, müstəqilliyin ilk illərində respublikada baş alıb gedən siyasi hərc-mərclik, hakimiyyət uğrunda çəkişmələr dövlətimizə ağır zərbələr vururdu. Belə bir şəraitdə bütün həyatını xalqına və Azərbaycanın müstəqil dövlət quruculuğuna həsr etmiş Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqımızın itmiş inamını özünə qaytarmaqla ölkənin yeni inkişaf dövrünün əsasını qoydu. Təbii ki, həmin illərdə xalqımızın Ümummilli Lider Heydər Əliyevi təkidlə tələb etməsinin bir çox səbəbləri var idi: 1970-80-ci illərin əvvəllərində gördüyü işlər, ən ağır məqamlarda xalqla birlikdə olması, 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verməsi, onun rəhbərliyi ilə 3 sentyabr 1991-ci il Naxçıvan Ali Sovetinin sessiyasında "Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında" məsələ müzakirə edilərək kommunist partiyasının fəaliyyətinin dayandırılması haqqında qərar verilməsi, Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət bayrağının ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında Dövlət bayrağı kimi qəbul edilməsi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirərək "sovet sosialist" sözlərinin çıxarılması və digər bir-birindən mühüm addımlar yalnız onun 1993-cü ildə xilaskarlıq missiyasını uğurla həyata keçirə biləcəyini göstərirdi. Xalqın iradəsi və təkidli tələbi ilə 1993-cü ildə siyasi hakimiyyətə qayıdan Ulu Öndər Azərbaycanı xaos və böhrandan çıxardı, vətəndaş müharibəsinin qarşısını aldı. Onun məqsədyönlü siyasəti ilə milli-mənəvi dəyərlərimiz bərpa edildi, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında dönüş yarandı, beynəlxalq normalara uyğun sivil və hüquqi dövlət quruculuğu başlandı. Milli Ordunun formalaşması, nizami silahlı qüvvələrin yaradılması, torpaqların müdafiəsi ilə bağlı mühüm addımlar atıldı.

Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində və ölkədə sabitliyin təmin edilməsində Ermənistanla Azərbaycan arasında 1994-cü ilin mayında imzalanmış müvəqqəti atəşkəs haqqında saziş mühüm rol oynadı. Bu, Heydər Əliyev diplomatiyasının böyük uğuru idi. Belə ki, atəşkəs sazişinin imzalanması dövlət quruculuğu istiqamətlərində olduğu kimi, respublikanın silahlı qüvvələrində də islahatlar keçirilməsinə zəmin yaratdı. Silahlı Qüvvələrdə müasir yeniliklərin tətbiqi, vahid rəhbərlik əsasında döyüş əməliyyatlarının planlaşdırılması, qoşunların təxribatçı və siyasi ünsürlərdən təmizlənməsi Azərbaycan Ordusunu daha da gücləndirdi.

Ölkə həyatının bütün sahələrini əhatə edən hərtərəfli hüquqi, siyasi və iqtisadi islahatlar həyata keçirilməyə başlandı və bunun sayəsində Azərbaycan dərin tənəzzüldən inkişaf yoluna çıxdı, siyasi sabitlik formalaşdı, qanunçuluğun və hüquqi qaydaların bərpası istiqamətində kompleks tədbirlər həyata keçirildi.

İlk növbədə dövlətin təməlinin möhkəm siyasi-hüquqi əsaslar üzərində qurulması üçün müstəqil Azərbaycan Respublikasının Konstitusiyası hazırlandı. 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyada əksini tapan mütərəqqi prinsiplər Azərbaycanda hüquqi islahatların aparılmasına hərtərəfli zəmin yaratdı.

Ulu Öndərin rəhbərliyi altında hazırlanaraq qəbul edilən yeni və müstəqil Azərbaycanın ilk Konstitusiyası insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxardı, bununla da hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ hüquqi baza yaradıldı.

Heydər Əliyev Azərbaycanın müstəqil dövlət kimi təşəkkülü və inkişafını təmin etmək üçün, hər şeydən əvvəl, mövcud iqtisadi potensialdan mümkün qədər səmərəli istifadə etməyi, onu artırmağı, həmin sərvətləri xalqın həyat səviyyəsinin yüksəldilməsi məqsədinə yönəltməyi əsas vəzifə hesab edirdi. Ulu Öndər Heydər Əliyevin bazar iqtisadiyyatı sisteminə keçid şəraitində müstəqil milli iqtisadiyyatın formalaşdırılması ilə bağlı həyata keçirdiyi iqtisadi strategiya aşağıdakı 5 fundamental prinsipə əsaslanırdı:

- ölkədə makroiqtisadi sabitləşmənin təmin olunmasına;
- sistemin tranformasiyası ilə bağlı bütün istiqamətlər üzrə əsaslı iqtisadi islahatların aparılmasına;
- bütün səviyyələrdə bazar iqtisadi münasibətlərinin liberallaşdırılmasına;
- ölkədə demokratiyanın və sosial ədalətin bərqərar olunmasına;
- Azərbaycanın strateji milli maraq və mənafelərini qorumaqla dünya iqtisadiyyatına fəal inteqrasiya olunmasına əsaslanırdı.

Heydər Əliyevin xalqımız qarşısında başlıca xidmətlərindən biri dövlət müstəqilliyinə yiyələnmiş Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirməsi olmuşdu. Həmin konsepsiya xalqımızın gücü, geosiyasi gerçəkliklər və digər mühüm meyarlar əsas götürülməklə tərtib edilmişdi. Heydər Əliyevə görə çoxukladlı bazar iqtisadiyyatının başlıca parametrlərinin hazırlanması keçid dövrünün ağrılarını sonadək yaşamayan yeni sistemə keçidə gətirib çıxarmışdır ki, bununla Azərbaycan dünya iqtisadiyyatına inteqrasiya olunacaqdır: Azərbaycan istiqlaliyyət qazandığı zamandan bu yana öz yaşamını, dövlətini, iqtisadiyyatını vacib sayaraq azadlıq şərtləri əsasında qurur. Sözsüz ki, 70 ildə başqa sosial-iqtisadi mühitində mövcud olan ölkə üçün bu üsul kifayət qədər absurd görünə bilərdi. Ancaq əlavə olaraq iqtisadiyyatda mövcud olan problemlərin həll edilməsi, sosial-iqtisadi böhranın aradan qaldırılması və Azərbaycanı dünya iqtisadi sisteminə aid edilməsi üçün iqtisadiyyatın tərəqqisini dünyəvi normalara uyğun şəkildə bərpa etmək üçün vahid yoldur.

Müəllifi Heydər Əliyev olan inkişaf strategiyasının tətbiqinə 20 sentyabr 1994-cü il tarixində dünyanın inkişaf etmiş ölkələrinin ən məşhur neft müəssisələrinin Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) ilə bağladığı və Azərbaycanın Xəzər dənizindəki bölməsində yerləşən "Azəri", "Çıraq" və "Günəşli" neft yataqlarından hasilatın pay bölgüsü və onların birgə işlənməsini nəzərdə tutan "Əsrin müqaviləsi" ilə başlanmışdır.

"Əsrin müqaviləsi" imzalandığı zamandan bu günə kimi Azərbaycan Respublikasının sosial-iqtisadi və siyasi cəhətdən inkişaf etməsində əhəmiyyətli rola sahib olmaqla, onun xarici ölkələrlə qarşılıqlı əlaqələr qurması və bu əlaqələri genişləndirməsində, eləcə də dünya birliyi dövlətləri sırasında öz mövqelərini möhkəmləndirməsində ən vacib amillərdən birinə çevrilmişdir. Azərbaycanın daxilində mürəkkəb iqtisadi və ictimai-siyasi böhranların hökm sürdüyü, Ermənistanın hərbi təcavüzünün davam etdiyi, 20 faiz torpaqlarının işğal edildiyi bir şəraitdə "Əsrin müqaviləsi"nin hazırlanması və imzalanması prosesini eyni zamanda dünyanın müxtəlif güc qütblərinin geosiyasi mübarizəsi də müşayiət edirdi. Lakin nəticədə üç ildən artıq müddətdə xarici neft şirkətləri ilə aparılan danışıqlar regionda mühüm maraqlara sahib olan böyük dövlətlərlə qarşılıqlı olaraq faydalı əməkdaşlığa, ən əsası da, dövlətimizin milli mənafe və maraqlarını əsas götürən sazişin imzalanmasına gətirib çıxardı. Bununla da Azərbaycanın iqtisadi tənəzzül və siyasi böhran şəraitindən milli dirçəliş mərhələsinə keçid etməsi üçün böyük imkanları yarandı. Bundan sonra Azərbaycan dövləti Heydər Əliyevin başçılığı ilə bu imkanlardan maksimal dərəcədə faydalanmaq siyasətini yeritməyə başladı.

Dünyanın tərəqqi etmiş ölkələrinin Azərbaycanın karbohidrogen sərvətlərinə marağını doğru dəyərləndirən Heydər Əliyev dövlətin milli marağına xidmət edən çoxkombinasiyalı siyasi-diplomatik xətt tərtib etmişdi. Bu xətt üçün "açıq qapı" və balanslaşmış siyasət prinsipləri xüsusi əhəmiyyət kəsb edirdi. "Əsrin müqaviləsi" Heydər Əliyev təşəbbüsü ilə tərtib edilmiş yeni neft strategiyasının təməlinin qoyulmasına, BTC və BTƏ neft və qaz kəmərlərinin inşa etdirilməsinə və Azərbaycanın energetika sektorundakı mövqelərinin ciddi formada gücləndirilməsinə səbəb oldu.

Azərbaycanın "Əsrin müqaviləsi"nin imzalanmasında başlanan yolunu yüksək qiymətləndirən Heydər Əliyev müəyyənləşdirdiyi neft strategiyasının başlıca məqsədinin Azərbaycanın zəngin təbii sərvətlərindən, eləcə də karbohidrogen resurslarından xalqın rifahı naminə istifadə olduğunu qeyd etmişdi.

Azərbaycanın dünya birliyinə inteqrasiyanın davamlı şəkildə həyata keçirilməsi və neft strategiyasının müasir uğurları Heydər Əliyevin əsasını qoyduğu strategiyanı müasir şəraitin tələblərinə uyğunlaşdıraraq davam etdirən Prezident İlham Əliyevin çevik və uzaqgörən siyasi fəaliyyəti ilə bağlıdır. Azərbaycan 2003-cü ildən sonra Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş layihələrin işə düşməsi nəticəsində daha sürətlə inkişaf edərək dünyada sözü eşidilən ölkəyə çevrilmişdir. Beynəlxalq aləmdə çox az qlobal enerji layihələri var ki, Azərbaycan onun iştirakçısı olmasın. Azərbaycan enerji təhlükəsizliyi sahəsində Avropanın etibarlı tərəfdaşına çevrilmişdir. Türkiyə və Azərbaycan liderlərinin məqsədyönlü fəaliyyətləri daha bir meqaproyektin meydana çıxmasına səbəb oldu. 2012-ci ildə "Şahdəniz-2" layihəsi üzrə çıxarılacaq resursların daşınması üçün TANAP-ın inşasına dair razılaşma əldə olundu. Azərbaycan qazının davamlı və sabit şəkildə Avropa İttifaqı ölkələrinə ixracı istiqamətində önəmli tədbirlər həyata keçirildi. TANAP-dan əlavə TAP qaz boru kəmərinin tikintisi ilə bağlı da sənəd imzalandı.

Heydər Əliyevin regionda yürütdüyü siyasət nəticəsində tarazlıq əldə edildikdən sonra xarici neft şirkətləri ilə genişmiqyaslı, qarşılıqlı faydalı əməkdaşlığın əsası qoyuldu. Azərbaycan "Əsrin müqaviləsi"nin imzalanmasından sonra ABŞ, Kanada, Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya, Çin, Koreya kimi ölkələri təmsil edən şirkətlərlə yanaşı, Rusiya və İrana məxsus şirkətlərində mövqelərini nəzərə almışdı. 1994-2003-cü illər ərzində həmin şirkətlərlə ARDNŞ arasında enerji sahəsində 22 müqavilə imzalanmışdı. ARDNŞ ilə bağlanan hasilatın pay bölgüsü tipli müqavilələrin şərtlərinə görə, xarici investorlar kommersiya riskini öz üzərinə götürərək kəşfiyyat işləri aparmalı idilər. Əsas tezis ondan ibarət idi ki, əgər işlər uğurla nəticələnməzsə, yəni kommersiya əhəmiyyətli ehtiyatlar aşkarlanmazsa, xarici şirkətlərin məsrəfləri ödənilmir. Bununla belə, əgər yataq açılardısa, onda əldə olunan mənfəətin 70-80 faizi və səmt qazının hamısı pulsuz olaraq Azərbaycana çatmalı idi. Müəyyən olunmuş qrafikə görə, əməliyyat kampaniyalarında yerli işçilərin payı bütün səviyyələrdə bir neçə il ərzində 50 faizdən 90 faizədək artırılmalı idi. Sosial-siyasi cəhətdən bu məqama yanaşsaq, onun əhəmiyyətini görə bilərik. Bu, minlərlə yerli vətəndaşın işlə təmin olunması və ölkədə sosial-iqtisadi sabitliyin maksimum təmin edilməsi demək idi.

Heydər Əliyevin neft və kommunikasiya diplomatiyası ona gətirib çıxarmışdı ki, müstəqilliyin ilk illərində Azərbaycana müxtəlif məhdudiyyətlər və sanksiyalar tətbiq edən dövlətlər ölkəmizin mövqelərini dəstəkləməyə, onunla çoxtərəfli əməkdaşlığa nail olmağa və Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizamlanmasına səs verməyə başlamışdılar.

Beləliklə, Azərbaycan çoxvektorlu və tarazlaşdırılmış müstəqil xarici siyasət həyata keçirərək həyati əhəmiyyətə malik layihələrə imza atdı. Bu müqavilələrin imzalanması ilə Heydər Əliyev böyük dövlətlərin siyasi dəstəyini qazanmağa, müstəqilliyimizi daha da gücləndirməyə nail olmuşdur. Enerji amilini diplomatiyanın əsas alətlərindən birinə, eləcə də xarici siyasətin prioritet məsələlərinə çevirməklə Heydər Əliyev Azərbaycanın təhlükəsizliyini bölgəsəl və qlobal təhlükəsizlik sistemi ilə sıx surətdə əlaqələndirmiş oldu.

Heydər Əliyevin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirdiyi xarici siyasət nəticəsində müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, əlaqələrinin yaxın dövr üçün prioritetləri, istiqamətləri, aparıcı strategiyası müəyyənləşdirildi. 2001-ci ilin əvvəlində Azərbaycan Avropa Şurasına üzv qəbul edildi, ölkəmiz beynəlxalq təşkilatlar və dünya dövlətləri tərəfindən tanındı.

Demokratiyanın inkişafı, demokratik cəmiyyət quruculuğunun yolu söz, fikir və mətbuat azadlığından keçir. Ulu Öndərin "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 1998-ci il 6 avqust tarixli Fərmanı ilə senzura ləğv olundu və mətbuat sahəsində də köklü islahatlara başlanıldı.

Heydər Əliyev tərəfindən həyata keçirilən genişmiqyaslı məhkəmə-hüquq islahatları nəticəsində ölkədə qanunun aliliyi bərpa edildi. Humanizm prinsiplərinə zidd olan cəza növləri və məcburiyyət tədbirləri ləğv olundu. 1998-ci il fevralın 10-da cəza siyasətinin humanistləşdirilməsi məqsədilə Azərbaycanda ölüm cəzası ləğv olundu.

Beləliklə, Ulu Öndər Heydər Əliyevin ideyaları və başladığı islahatlar taleyüklü iki missiyanın- xilaskarlıq və quruculuq missiyasının öhdəsindən məharətlə gəldi. Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar Azərbaycanı tənəzzüldən böyük və heyrətamiz inkişaf yoluna gətirib çıxardı.

Qarabağ münaqişəsinin zəfərlə nəticələnməsinin təməlində də məhz Heydər Əliyev siyasi kursunun əsas prinsipləri dayanır. Ulu Öndərin Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlməsindən başlayaraq davam edən Azərbaycan Ordusunun döyüş qabiliyyətinin və əzminin artırılması, vətənpərvərlik ruhunun yüksəldilməsi, ən müasir silahlarla və hərbi texnikalarla təchiz edilməsi sahəsində görülmüş işlər bu böyük uğurun əsasını qoydu.

Azərbaycanın imzasını imzalar içində tanıdan dahi şəxsiyyət, uzaqgörən siyasi xadim, Ulu Öndər Heydər Əliyev bu ölkənin qurulmasının, yaradılmasının, sabitliyinin, firavanlığının müəllifidir, ən başlıcası, Azərbaycanın bir ölkə kimi dünya xəritəsindən silinməsinin qarşısını alan xilaskardır!

Hər bir Azərbaycan vətəndaşının borcu Heydər Əliyevin şah əsəri olan Azərbaycanı qoruyub yaşatmaq, onun ideyalarını uğurla həyata keçirməkdir.

**İlqar ABBASOV,**
***Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi, general-mayor***

**Şuşanın taleyinə qara hərflərlə yazılan bir gün var: 8 may 1992-ci il. Bu təqvim Azərbaycan tarixinə vurulan bir damğa kimi 28 il bizi göynətdi. Həmin göynərti və sızıltı ilə düz 28 il Şuşa həsrəti, Şuşa nisgili yaşadıq. Üç on ilə yaxın Şuşa tərəfə boylandıq, dumanlı dağlarını uzaqdan seyr etdik, Xarıbülbülünə yaxınlaşa bilmədik, Cıdır düzündə gəzintiyə çıxmadıq. Şuşa da bizsiz soldu, saraldı. 28 il Şuşa əsarətdə qaldı, əsirlikdə can verdi...**




# Ötən illərin Şuşa həsrətini bu günün sevinci və sabahın xoşbəxtliyi əvəz edir

Düşmən həmin illərdə cürbəcür məkrli planlar quraraq Şuşaya zülm etdi, daşını daş üstə qoymadı, Topxana meşəsini qırdı, çaylarını qurutdu, sərvətini talayıb daşıdı, maddi-mənəvi abidələrinə sahib çıxmağa çalışaraq qədim yurd yerlərini viran qoydu. Bir sözlə, Azərbaycanın göz bəbəyi olan Şuşada şuşalıq qalmasın deyə vəhşi xislətindən əl çəkmədi. Çalışdı ki, bu gözəl diyarı xalqın qəlbindən söküb atsın. Amma bacarmadı, hədəfə aldığı son dayanacağa gedib çıxa bilmədi, arzusu gözündə qaldı. Şuşanın suyunu içib, havasını udan nadanlar anlamadılar ki, bu yurdun qeyrətli oğulları o torpağı sadəcə qol gücünə almağa qadirdirlər. Dərk edə bilmədilər ki, bir gün igid oğullar qəflətən başlarının üstünü alacaq.

1992-ci il mayın 8-nə keçən gecə erməni silahlı birləşmələri Şuşa şəhərinin işğalı ilə bağlı əməliyyat keçirdi. Şəhərin intensiv artilleriya zərbələrinə tutulması səhər saat 6-dək davam etdi. Azərbaycanın bu qədim, zəngin tarixə və mədəniyyətə malik şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən ələ keçirilməsi ilə Qarabağın işğalı başa çatdırıldı. Qarabağın gözü, zümrüdü 28 illik bir zaman kəsiyində solub-saraldı. Amma Şuşanın başında qopan tufanlar, üzərindən əsən yellər onu sındıra bilmədi. Baxmayaraq ki, işğal günü ermənilər 480 sakini amansızlıqla öldürdülər, 600 nəfəri yaraladılar, 552 uşaq valideynini itirdi, taleyi hələ də məlum olmayan 68 nəfər əsir və girov götürüldü, 22 mindən artıq insan məcburi köçkün oldu, lakin şəhər bu günlərə məğrur duruşu, əyilməz vüqarı ilə gəlib çatdı. Həmin vüqarı, qüruru Prezident İlham Əliyev Şuşa səfərlərinin birində dilə gətirərək belə dedi: "Şuşa Azərbaycan şəhəridir. Şuşanın təməlini, - hamımız yaxşı bilirik, - 1752-ci ildə Pənahəli xan qoymuşdur. İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik".

Ötən 28 ildə Şuşadakı bir sıra tarixi-mədəniyyət abidələri düşmən tərəfindən talan edildi. Bu siyahıya Xan və Qaxal mağaraları, Şuşa qalası da daxil olmaqla bütövlükdə 279 dini, tarixi və mədəni abidə daxildir. Ermənilər Azərbaycana məxsus olan bir çox abidəni məhv etdilər, bununla ürəkləri soyumadı, bəzilərini də erməniləşdirməyə çalışdılar. 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, 8 mədəniyyət evini, 14 klubu, 20 kitabxananı, 2 kinoteatrı, 3 muzeyi, Şərq musiqi alətləri fabrikini, Dövlət Rəsm Qalereyasını, Uşaq Sağlamlıq Məktəbini məhv etdilər. Dağıdılan tarixi məkanlar arasında Xurşidbanu Natəvanın, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin, Xan Şuşinskinin, Sadıqcanın evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri və daha neçə-neçə digər abidələr var idi. Bu sıraya məşhur Şuşa qalası, memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası, məbədgah və məscidlər, bütövlükdə 279 dini, tarixi və mədəni abidə də daxildir. Şuşa həmin dağıntılarla, talan olunmuş görkəmi ilə özümüzə qayıtdı, Azərbaycan əsgərinin və zabitinin qanı, canı ilə alındı. 8 Noyabr günü bütün dünya bildi ki, bu şəhər çox qiymətli, çox dəyərlidir. O, təkcə Qarabağın deyil, bütövlükdə azərbaycanlıların döyünən ürəyidir, alınmaz qalasıdır. Bunu 2020-ci ilin Zəfər günündə bütün qəlbimizlə bir daha anladıq. Ulu Öndər Heydər Əliyevin dediyi bu fikirlərin əhəmiyyətini başa düşdük: "Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir".

Nə yaxşı ki, Şuşanın işğalı daha çox onilliklər çəkmədi. İşğalın 28-ci ili Şuşaya qayıdış ili kimi tarixə yazıldı. 8 may işğal gününü 8 Noyabr Zəfər Günü əvəzlədi. Həmin gün təkcə Azərbaycan xalqının deyil, bütövlükdə türk dünyasının qeyd etdiyi bayramların ən gözəli, ən əzizi oldu. Ali Baş Komandan 8 Noyabr günü Şəhidlər xiyabanında, üstəlik də hərbi geyimdə xalqa müraciət edərək Şuşanın azad edilməsi xəbərini verdiyi an yaşadığımız hisslər, axıtdığımız sevinc göz yaşları tarixboyu yaddaşlardan silinməyəcək. Böyük qürurla bu xəbəri xalqına çatdırması dövlət başçısının da həyatının ən xoşbəxt günlərindən biri oldu. "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Azad günlərini yaşayan müqəddəs şəhərim, biz sənin qoynunda əbədi yaşayacağıq!" deyən dövlət başçısının da sevincdən doğan kövrəkliyini və titrək səsini hər kəs hiss etdi. O gün əlində əsa olan qoca da, körpə uşaq da "28 illik həsrət, qubar sona çatdı" deyib küçələrə axışdı.

İndi Şuşa görkəmini dəyişib, havası, suyu da yenilənib sanki. İllərin o tayında qalan işğal günləri tarixə dönüb. Cıdır düzünün, Daşaltı dərəsinin üzü gülür, Topxana meşəsi rahat nəfəs alır, Xarıbülbül çiçəyi Günəşə boylanaraq ətrini ətrafa yayır. Natəvanın, Bülbülün, Üzeyirin heykəli doğma vətəninə qayıdıb. Ay-ulduzlu, üçrəngli Azərbaycan bayrağı Şuşa qalasında məğrur-məğrur dalğalanır. Doğma sakinlərinə qovuşan Şuşa azad günlərini yaşayır, Gövhər ağa məscidindən yüksələn azan səsi düşmənin qulağını deşir.

Bu gün 8 may 2024-cü ildir. Daha vətəndə vətən həsrəti, Şuşa nisgili yoxdur. İndi Şuşa həm Azərbaycanın, həm türk, həm də islam dünyasının mədəniyyət mərkəzidir. Şuşanın rəmzi olan Xarıbüblbül və muğam festivallarının keçirildiyi şəhərdir. Bundan böyük xoşbəxtlik olarmı? Bizə bu xoşbəxtliyi yaşadan, qələbə sevincini daddıran Müzəffər Azərbaycan Ordusu və Müzəffər Ali Baş Komandan İlham Əliyev oldu. Bu gün şəhidlərin ruhu şaddır, Azərbaycan əsgərinin canı, qanı ilə açdığı cığırla Zəfər yolu çəkilib. Bu yol bütün Azərbaycanı, dünyanı cənnət Şuşaya aparır. Zəfər yolu irəli getsə də, biz dönüb keçmişə baxaraq o günlərin kədərini, acısını unutmuruq. Daha hər il mayın 8-də Şuşaya "ağı" demirik, "Şuşanın işğaldan azad olunacağı gün uzaqda deyil" inamına bürünərək özümüzə təsəlli vermirik. O gün gəldi və biz o təsəllini deyil, böyük Zəfərin unudulmaz sevincini yaşadıq. Ötənlərin kədərini bu günün sevinci və sabahın qüruru ilə silib atdıq. İndi biz Azərbaycanın dilbər guşəsi, Qarabağ xanlığının tarixi paytaxtına sahib çıxaraq onu qoruyuruq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Sərhəd dirəklərinin quraşdırılması münasibətlərin normallaşması üçün önəmli addım oldu

**İkinci Qarabağ müharibəsi Azərbaycanın Zəfəri ilə başa çatdı. Şanlı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında illərdən bəri torpaqlarımızı işğalda saxlayan erməniləri diz çökdürdü.**

Biabırçı məğlubiyyətə uğradılan Ermənistanı kapitulyasiya aktına imza atmağa məcbur etdi. Amma rəsmi İrəvan müxtəlif bəhanələr gətirərək imza atdığı üçtərəfli Bəyanata əməl etmədi. Azərbaycanın qazandığı zəfərləri ilə regiona gətirdiyi yeni reallıqlarla barışmaq istəməyən Ermənistan yenə də xəyallarla yaşayırdı, itirdiyi mövqeləri geri qaytaracağını zənn edirdi. Buna görə də ölkəmizin sülh təkliflərindən boyun qaçırır, danışıqlar masası arxasına oturmurdu.

Amma illər keçdikcə xəyalların gerçəkləşməyəcəyini anlayan Ermənistan Azərbaycanın tələblərini yerinə yetirməkdən başqa yolunun qalmadığını gördü. Yalnız bundan sonra İrəvan Azərbaycanla sərhədlərin dəqiqləşdirilməsini qəbul etdi. Hadisələrin gedişi göstərdi ki, Ermənistan Qərbdəki havadarlarından istədiyi dəstəyi ala bilmədi. Çünki rəsmi Bakı həmin ölkələrin Azərbaycana qarşı əsassız təzyiq cəhdlərini vaxtında qətiyyətli şəkildə zərərsizləşdirdi. Antiterror tədbirlərindən sonra ölkəmizə qarşı təzyiq cəhdləri aradan qaldırıldı. Fransa və Ermənistanın əsassız iddialarla BMT-nin Təhlükəsizlik Şurasında ölkəmiz əleyhinə qərarların qəbuluna yönələn səyləri də iflasa uğradı.

Beləliklə, illərdən bəri separatizmi dövlət siyasəti səviyyəsinə qaldıran Ermənistan Azərbaycana qarşı qanlı təcavüzkarlıq və işğalçılıq siyasətindən əl çəkib münasibətlərin normallaşdırılması üçün razılığa gəldi. Sülh masası arxasına keçmək istəməyən, müxtəlif manipulyasiyalarla prosesdən yayınan Ermənistan ölkəmizin siyasi və diplomatik iradəsi qarşısından, nəhayət, aprel ayının ortalarında geri çəkildi.

Aprelin 19-da Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının, eləcə də delimitasiya və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşü iki ölkə arasında uzun illərdən bəri davam edən gərginliyin azaldılması, yekun sülh sazişi layihəsi üzərində aparılan işin sürətləndirilməsi baxımından önəmli addım oldu. Əldə olunmuş razılaşmaya əsasən, sərhəd xətti Bağanis (ER) - Bağanıs Ayrım (AR), Voskepar (ER) - Aşağı Əskipara (AR), Kirants (ER) - Xeyrimli (AR) və Berkaber (ER) - Qızılhacılı (AR) yaşayış məntəqələri arasında bilavasitə keçəcək, beləliklə, Qazax rayonunun işğal altında olan 4 kəndi birinci mərhələdə Azərbaycana təhvil verilir. Tərəflər sərhədin bütün digər hissələrinin, o cümlədən anklav və eksklav məsələləri üzrə delimitasiya prosesini davam etdirmək barədə də razılığa gəliblər.

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Azərbaycan Respublikası Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Ermənistan Respublikası Komissiyasının 8-ci görüşünün yekunlarına əsasən əldə edilmiş razılaşmalara müvafiq olaraq, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası sərhədində iki ölkənin ekspert qrupları ərazidə geodeziya ölçmələri əsasında koordinatların dəqiqləşdirilməsi prosesinə başlayıblar. Artıq iki dövlət arasında sərhəd dirəkləri quraşdırılıb. Verilən məlumatlara görə, bu istiqamətdə işlər davam edir.

İki ölkə arasında sərhəd dirəklərinin quraşdırılmasına başlanması son dərəcə mühüm əhəmiyyət daşıyan hadisədir. Bu həm də rəsmi İrəvanın Bakının birbaşa sülh danışıqları təşəbbüsünü qəbul etməsi deməkdir. Bu, Prezident İlham Əliyevin müdrik rəhbərliyi, qətiyyətli siyasəti və diplomatik məharəti ilə Azərbaycan dövlətinin qazandığı növbəti tarixi uğurdur.

Delimitasiya prosesi özlüyündə asan, tez bir zamanda başa gələn iş deyil. Bu, mürəkkəb, xeyli vaxt tələb edən geotexniki bir prosesdir. Mövcud istiqamətdə aparılan danışıqlarla bağlı yekun qərarın verilməsi xeyli zaman tələb edir. Sərhədin delimitasiya olunmuş hər hissəsindən sonra müvafiq protokol imzalanır, sonra ərazidə nişanlama işləri aparılır, sərhəd dirəkləri qurulur. İki ölkə arasındakı sərhədin delimitasiya və demarkasiyası tamamilə başa çatdıqdan sonra bununla bağlı yekun sənəd imzalanır və qeydə alınması üçün BMT-yə göndərilir.

Hadisələrin gedişatı açıq-aydın göstərir ki, Azərbaycan nəzərdə tutduğu bütün prinsiplərində ardıcıldır, qətiyyətlidir. Uzun illərdən sonra ilk dəfədir ki, Azərbaycan və Ermənistan arasında sərhəd dirəkləri qurulur. Ümid etmək olar ki, bu addımlar yekun sülh müqaviləsinə aparan etibarlı sülhün təhlükəsizliyinə təminat verəcək. İkinci Qarabağ müharibəsindən qalib çıxmış qüdrətli Azərbaycanın diktə etdiyi xətlə qurulan sərhəd dirəkləri yaxın zamanlarda Vətənimizə, xalqımıza əmin-amanlıq və sülh gətirəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Mingəçevirdə "Heydər Əliyev müasir Azərbaycanın xilaskarı və qurucusudur" mövzusunda elmi konfrans keçirilmişdir

**Mingəçevir Dövlət Universitetində (MDU) şəhər icra hakimiyyəti və MDU-nun birgə təşkilatçılığı ilə Ümummilli Liderin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev müasir Azərbaycanın xilaskarı və qurucusudur" mövzusunda respublika elmi konfransı keçirilib.**



Konfrans iştirakçıları əvvəlcə universitetin foyesində Ulu Öndərin abidəsi önünə gül dəstələri qoyaraq ehtiramlarını bildirmişlər.

Şəhər ictimaiyyətinin, universitetin professor-müəllim heyətinin, tələbələrin, media nümayəndələrinin iştirak etdikləri tədbiri açan MDU-nun rektoru Şahin Bayramov Ulu Öndərin Azərbaycanın tərəqqisi, inkişafı, təhsilimizin yüksəlişi, dünya arenasında özünə layiq yer tutması naminə gördüyü işlərdən danışmışdır. Sonra şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov "Heydər Əliyev: Azərbaycanın dövlət müstəqilliyini əbədiləşdirən dahi" mövzusunda məruzə ilə çıxış etmişdir. Bildirmişdir ki, hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanları var: "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş müdrik dövlət xadimi və tarix yaradan dahi şəxsiyyət kimi düşmüşdür. Onun Azərbaycanda rəhbərliyinin hər iki dövrünə təhlili yanaşma göstərir ki, bu dahi şəxsiyyət uğurlu, uzaqgörən, məqsədyönlü fəaliyyəti ilə ölkəmizi müstəqil dövlət kimi formalaşmağa hazırlamış və zəruri məqamda bu müstəqilliyin qorunub saxlanılmasını və əbədiləşdirilməsini təmin etmişdir". İ.İsmayılov xatırlatmışdır ki, ötən əsrin 60-cı illərində keçmiş ittifaq dövlətinin tərkibində olan Azərbaycanda durğunluq hökm sürürdü, respublika iqtisadi göstəricilərinə görə çox geridə qalırdı: "Bu çətin dövrdə 1969-cu il iyulun 14-də Heydər Əliyev Azərbaycana rəhbər seçilmişdir. Respublikaya rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə qısa müddətdə respublikamızın sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrinin inkişafında böyük sıçrayışa nail oldu və 1969-1982-ci illər Azərbaycan tarixinə intibah dövrü kimi düşdü. Həmin illər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublikada 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektlər istifadəyə verildi. 630 min yeni iş yeri açıldı, sənaye məhsulları istehsalı 2,7, kənd təsərrüfatı məhsulları istehsalı 2,7, neft hasilatı 2,8 dəfə artdı. Bir neçə su anbarı istifadəyə verildi, paytaxta 3 magistral su kəməri çəkildi, Bakı Dərin Özüllər Zavodu istifadəyə verildi, ümumilikdə 20,4 min kilometr asfalt yollar çəkildi. 1970-ci illərin sonunda Azərbaycan sosial-iqtisadi inkişaf səviyyəsinə görə ittifaqın ən qabaqcıl respublikaları sırasına çıxdı. Ulu Öndər kadr potensialının artırılmasına böyük əhəmiyyət verirdi. 1969-1982-ci illərdə 770-ə qədər məktəb binası istifadəyə verilmiş, ali məktəblərin sayı 12-dən 17-yə çatdırılmış, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərində yerləşən 170-dən çox nüfuzlu ali məktəbdə 250-dən çox ixtisas üzrə 17 minədək azərbaycanlı gəncin təhsil alması təmin edilmişdir".

ŞİH-in başçısı vurğulamışdır ki, bu gün insanlar həmin tarixi vərəqlədikcə Heydər Əliyev zəkasının, düşüncəsinin, müdrikliyinin böyüklüyünü bir daha hiss edir, Ümummilli Liderin respublikamız, xalqımız üçün misilsiz xidmətlər göstərdiyinin şahidi olurlar: "Ulu Öndər 1982-1987-ci illərdə Moskvada yaşadığı və işlədiyi dövrdə də Azərbaycana diqqət və qayğısını əsirgəmir, respublikamızın ictimai, mədəni həyatı ilə daim maraqlanırdı. Onun həyatının 1990-1993-cü illər dövrü də tarixi hadisələrlə zəngin olmuşdur. Heydər Əliyev həmişə, hər zaman, ən ağır anlarda belə xalqının yanında olmuş, xalqın səsinə səs vermişdir. 1990-cı ilin 20 Yanvar faciəsinin səhəri günü Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlib həyatını təhlükə qarşısında qoyaraq ozamankı SSRİ rəhbərliyinin anti-Azərbaycan siyasətini ciddi tənqid edərək bəyanat vermişdir".

1991-1993-cü illərdə Naxçıvana rəhbərliyi dövründə Heydər Əliyev tərəfindən Azərbaycanın müstəqilliyi yolunda mühüm addımlar atıldığını deyən natiq muxtar respublikanın adından "Sovet Sosialist" sözlərinin çıxarıldığını, üçrəngli milli bayrağımızın ilk dəfə Naxçıvanda dövlət bayrağı kimi qəbul olunduğunu xatırlatmışdır.

Ulu Öndərin ikinci dəfə hakimiyyətə qayıdışından danışan ŞİH-nin başçısı bildirmişdir ki, dövlət müstəqilliyinin bərpa edildiyi ilk illərdə bütün sahələrdə dərin tənəzzülə uğrayan Azərbaycan böyük təhlükələrlə, hətta müstəqilliyini itirmək və parçalanmaq təhlükəsi ilə üz-üzə qalmışdı: "O dövrkü iqtidarın vaxtında yürüdülən yanlış siyasət nəticəsində iqtisadi tənəzzül dərinləşmiş, inflyasiya görünməmiş həddə çatmış, xalqın yaşayış səviyyəsi son dərəcə pisləşmiş, ictimai-siyasi böhran, vətəndaş müharibəsi, ölkənin parçalanma təhlükəsi yaranmışdır. Ermənistanla müharibə vəziyyətində olan Azərbaycanda nizami ordu yaradılmamışdır, vahid komandanlıq yox idi, silahlı dəstələr müəyyən qüvvələrin ambisiyalarına xidmət edirdilər. Belə ağır dövrdə xalqın təkidi ilə hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi, ölkəmizi xaos və anarxiyadan qurtardı. Bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısı alındı, dövlətçiliyimiz hər cür sui-qəsddən, dövlət çevrilişi cəhdlərindən qorundu və ölkəmiz dayanıqlı inkişaf yoluna çıxdı".

1994-cü il sentyabrın 20-də Gülüstan sarayında dünyanın 7 ölkəsinin məşhur neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanmasından, bu sazişin ölkəmizin bütün dünyada neft ölkəsi kimi tanınmasına xidmət etdiyindən bəhs edən natiq ölkə daxilində bir çox sahədə genişmiqyaslı islahatların həyata keçirilməsinə başlanılmasını da diqqətə çatdırdı. İ.İsmayılov onu da qeyd etdi ki, dünyanın ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır: "Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə oldu, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edildi, ölkəmizin beynəlxalq təşkilatlarla əlaqələri genişləndirildi. 1993-2003-cü illərdə Azərbaycanın sosial iqtisadi inkişafı yeni mərhələyə qədəm qoydu".

İkinci Qarabağ müharibəsində qazanılmış parlaq qələbə Ulu Öndərin hazırladığı güclü dövlət-güclü ordu konsepsiyasının təntənəsidir. 30 il işğal altında qalan torpaqlarımız məhz bu konsepsiyanın nəticəsində 2020-ci ildə Ulu Öndərin siyasi varisi, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və 2023-cü ilin sentyabrında azad olundu, ərazi bütövlüyümüz təmin edildi. Bu, XXI əsrdə analoqu olmayan bir dönüş idi. Azərbaycan dünyaya qalib ölkə kimi təqdim olundu. Bu, dövlətimizin başçısının qətiyyətli rəhbər və sərkərdə olmasının, xalqın birliyinin təntənəsidir. İndi azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Bu gün Azərbaycan dünyada ən sürətlə və dinamik inkişaf edən dövlətlərdən biridir. Ölkənin iqtisadi qüdrətinin artması onun müstəqil siyasət yeritməsinə, əhalinin rifah halının ildən-ilə yüksəldilməsinə imkan yaradır. Regionun gündəliyini bu gün Azərbaycan diktə edir. Dünya gücləri Azərbaycanın yaratdığı yeni reallıqlarla hesablaşır. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq nəhəng transmilli nəqliyyat və enerji layihələri həyata keçirən Azərbaycanın bugünkü təşəbbüsü dünyanın aparıcı dövlətləri tərəfindən dəstəklənir, ölkəmizə iqtisadi-siyasi dividendlər qazandırır.

Bütün bunlardan danışan İ.İsmayılov Ulu Öndərin Mingəçevirə və mingəçevirlilərə diqqət və qayğısından da söz açdı: "Ulu Öndərin şəxsi təşəbbüsü və rəhbərliyi ilə Cənubi Qafqazın ən nəhəng istilik-elektrik stansiyasının tikintisi Mingəçevirdə həyata keçirilib. Azərbaycan DRES-in tikintisinin başlanması ilə əlaqədar həmin ərazidə qəsəbənin tikintisinə başlanıldı. Az müddət ərzində burada 37 min kvadratmetr mənzil sahəsi tikildi, 20 kilometrə yaxın dəmir yolu çəkildi, ümumilikdə tikintiyə 12 mindən çox adam cəlb olundu. Məhz Ulu Öndərin göstərişi ilə bu gün 20 mindən çox əhalinin yaşadığı "Energetiklər" yaşayış massivi salınmış, onlarca çoxmərtəbəli yaşayış evləri, iki orta ümumtəhsil məktəbi, 4 uşaq bağçası, doğum evi, tibb məktəbi, uşaq musiqi məktəbi, mədəniyyət və digər sosial obyektlər tikilib istifadəyə verilmişdir. "Azərbaycan İES"in birinci enerji bloku 1981-ci il oktyabrın 20-də Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə istifadəyə verilmişdir".

Natiq daha sonra bildirmişdir: "Müasir Azərbaycan dövlətinin yaradıcısı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin qalib davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında bütün ölkəmiz, o cümlədən Mingəçevir şəhəri gündən-günə inkişaf edir. Prezident İlham Əliyev mənsub olduğu siyasi kursa sadiq qalaraq elektroenergetika sahəsini və bu sahədə xüsusi çəkisi olan Mingəçevir şəhərini daim diqqət mərkəzində saxlayır. Prezidentin tapşırığı ilə Mingəçevir şəhərində böyük abadlıq işləri aparılmış, 1300-dən çox ailə üçün 3 məcburi köçkün qəsəbəsi salınmış, "İzolit", "Kür Elektron Avadanlıqları" zavodları, "Sənaye parkı" yaradılmışdır. Dünya səviyyəsində 3-cü yerdə olan Avarçəkmə bazası yenidən qurulmuş, Tarix muzeyi, Heydər Əliyev Mərkəzi, Gənclər evi, Dövlət Rəmzləri muzeyi, "ASAN xidmət", 5 ümumtəhsil məktəbi, 2 məktəbəqədər təhsil müəssisəsi, dördulduzlu 3 hotel tikilmiş, 12 məktəb, 4 uşaq bağçası, şəhər mərkəzi xəstəxanası, Dram teatrı, bir neçə mədəniyyət müəssisəsi və digər müəssisələr əsaslı təmir edilmiş, "Mingəçevir SES" və "Azərbaycan İES" yenidən qurulmuş, Politexnik İnstitutunun bazasında Mingəçevir Dövlət Universiteti formalaşdırılmış, Turizm Kolleci və turizm infrastrukturu yaradılmışdır".

Konfransda Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini Əli Hüseynli "Heydər Əliyev - Azərbaycan xalqının əsl milli azadlıq və müstəqillik ideyasının banisi", AMEA-nin birinci vitse-prezidenti akademik Arif Həşimov "Heydər Əliyev və Azərbaycan elminin inkişafı", AMEA Folklor İnstitutunun direktoru akademik Muxtar İmanov "Heydər Əliyev və milli mənəvi dəyərlər", "Azərenerji" ASC-nin Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutunun direktor müavini Aytək Babayeva "Heydər Əliyev - innovativ texnologiyaların Azərbaycan enerji sistemində tətbiqi bazasının qurucusudur", YAP Mingəçevir şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev "Azərbaycançılıq məfkurəsinin inkişafında Heydər Əliyev irsi" mövzularında məruzələrlə çıxış etmişlər.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Mədəniyyət və incəsənət xadimlərinə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı təqdim edilib

**Mayın 7-də Milli Azərbaycan Tarixi Muzeyində mədəniyyət və incəsənət xadimlərinə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalının təqdim edilməsi mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalına layiq görülmüş mədəniyyət və incəsənət xadimlərinə medallar təqdim edilib.

Tədbirdə Azərbaycan mədəniyyətinə, incəsənətinə göstərdiyi davamlı dəstəyə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıq ifadə olunub.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, bir qrup mədəniyyət və incəsənət xadimi Ümummilli Lider Heydər Əliyev irsinin tədqiqi və təbliği, azərbaycançılıq ideyasının həyata keçirilməsi, ölkənin sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafında, həmçinin dövlət idarəçiliyində və ictimai-siyasi sahədə xidmətlərinə görə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunub.

# "Ölüm axtaran qadın" film layihəsi Polşa Kino İnstitutunun dəstəyini qazanıb

**Bakı Media Mərkəzinin "Ölüm axtaran qadın" tammetrajlı sənədli film layihəsi Polşa Kino İnstitutunun beynəlxalq müştərək istehsal müsabiqəsinin qalibi olub.**

AZƏRTAC xəbər verir ki, müsabiqənin nəticəsinə görə, Polşa Kino İnstitutu layihəyə maliyyə dəstəyi göstərəcək. Filmin montajı, səs tərtibatı, rəng korreksiyası və distribusiyası Polşada polyak mütəxəssislər tərəfindən aparılacaq.

Azərbaycanın film layihəsi ilk dəfədir Polşa Kino İnstitutunun maliyyə dəstəyini əldə edir. Bu dəstək üçün yüzlərlə layihə müraciət edib. Qalib gələn 2 layihədən biri də "Ölüm axtaran qadın"dır.

Filmin Baş prodüseri Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva, rejissoru Fariz Əhmədov, ssenari müəllifi Fariz Əhmədov və İsmayıl İman, operatorları Mateuş Çuxnovski (Polşa), Daniel Quliyev, redaktorları Rasim İsmayılov və Esmira Əyyub, kreativ prodüserləri Maçey Driqas (Polşa) və Tahir Əliyev, ko-prodüseri Vita Zelakeviciute (Polşa) və prodüseri Orman Əliyevdir.

Film qadın minaaxtaranların işğaldan azad olunmuş ərazilərdəki fədakar fəaliyyətindən bəhs edir. Qadın minaaxtaranlar layihəsi Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) tərəfindən həyata keçirilir.

"Ölüm axtaran qadın" film layihəsi Azərbaycan Respublikası Kino Agentliyinin 2023-cü ildə keçirdiyi müsabiqənin də qaliblərindən biridir. Filmin çəkilişləri yekunlaşmaq üzrədir. Film Bakı Media Mərkəzi ilə Polşanın "Drygas Film Production" şirkətinin birgə istehsalıdır.




# Media nümayəndələrinin iştirakı ilə autizm haqqında maarifləndirmə seminarı keçirilib

**Mayın 7-də Medianın İnkişafı Agentliyi, "Birgə və Sağlam" İctimai Birliyi və DOST Agentliyinin "Könüllü DOST" proqramının birgə təşkilatçılığı ilə birliyin nəzdindəki Autizm Mərkəzində seminar keçirilib və mediatur təşkil edilib.**



AZƏRTAC xəbər verir ki, tədbirin keçirilməsində məqsəd media nümayəndələrini autizm haqqında məlumatlandırmaq və mərkəzdə autizmli şəxslərə verilən xüsusi təhsil xidməti ilə tanış etmək olub.

Maarifləndirmə seminarında çıxış edən Autizm Mərkəzinin mütəxəssisi Aynur Qəribova xəstəliyin əlamətləri, həmin şəxslərin təhsili və cəmiyyətə inteqrasiyasının əhəmiyyəti barədə məlumat verib, iştirakçıların suallarını cavablandırıb.

Sonra Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov və media nümayəndələri Autizm Mərkəzinin fəaliyyəti ilə yaxından tanış olublar. "Birgə və Sağlam" İctimai Birliyinin sədri Aytən Eynalova bildirib ki, 10 ildir fəaliyyət göstərən mərkəzin yeni binasının açılışı Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə baş tutub. Hazırda mərkəzlərdə Prinston Uşaq İnkişaf İnstitutunun təlim modeli - ABA Terapiya (Tətbiqi Davranış Analizi) əsasında 100-ə yaxın autizmli uşaq və gəncə 50-dən çox mütəxəssis tərəfindən xüsusi təhsil verilir.

Qeyd edək ki, DOST Agentliyinin "Könüllü DOST" proqramının həyata keçirdiyi "İnklüzivlik ayı" layihəsi çərçivəsində autizmli uşaq və gənclərin, həmçinin DOST və Media könüllülərinin iştirakı ilə təkrar emal ustad dərsində hazırlanmış işlər nümayiş etdirilib. Sonra onlar media nümayəndələri ilə birgə rəmzi ağacı rəngləyiblər.

Sonda mərkəzin nəzdində fəaliyyət göstərən Kaşalata Kafedə birliyin autizmli gənclərdən ibarət "Mavi Ürəklər" xor və ritm qrupunun konsert proqramı təqdim edilib.

# Vladimir Putin and içdi

## Rusiya hökuməti istefaya göndərildi

**Mayın 7-də Rusiya Prezidenti Vladimir Putin ölkə hökumətinin istefası haqqında fərman imzalayıb. Müvafiq sənəd hüquqi aktların saytında yerləşdirilib. Eyni zamanda o, istefa vermiş hökumətə yeni Nazirlər Kabineti formalaşana qədər fəaliyyət göstərməyi tapşırıb.**



Həmin günün əvvəlində, inaqurasiya zamanı Putin and içərək yeni müddətə Rusiya Federasiyasının Prezidenti vəzifəsinin icrasına başlayıb. Böyük Kreml Sarayına 2,6 minə yaxın qonaq toplaşıb. Prezident nitqində ölkə vətəndaşlarına onlara göstərilən etimadı doğruldacaqlarına söz verib və rusiyalıların birliyinin vacibliyini qeyd edib.

Beşinci dəfə Rusiya Prezidenti postuna gələn Vladimir Putin inaqurasiyadan sonra xüsusi hərbi əməliyyatın (SVO) iştirakçılarına müraciət edib: "Mən qəhrəmanlarımızın, xüsusi hərbi əməliyyat iştirakçılarının, Vətən uğrunda döyüşən hər kəsin qarşısında baş əymək istəyirəm. Rusiyanın taleyini bugünkü və gələcək nəsillər naminə özümüz və yalnız özümüz müəyyən edəcəyik". Prezident bildirib ki, "mənim üçün Rusiya xalqlarının maraqları və təhlükəsizliyi hər şeydən üstün olacaq. Siz, Rusiya vətəndaşları, Rusiya Federasiyasının kursunun düzgünlüyünü təsdiqlədiniz. Biz vahid və böyük xalqıq və birlikdə bütün maneələri dəf edəcəyik, planlaşdırdığımız hər şeyi həyata keçirəcəyik".

Rusiya dövlət başçısı qeyd edib ki, ölkəsi Qərb dövlətləri ilə dialoqdan imtina etmir: "Biz dialoqdan imtina etmirik, seçim onlarındır, söhbət mümkündür, amma güc, təkəbbür və şəxsi istisnalıq mövqeyindən deyil. Mürəkkəb dünyada biz özümüzü təmin etməliyik və rəqabət aparmalıyıq. Gələcək onilliklər ərzində Rusiyanın inkişafında etibarlı davamlılığı təmin etmək lazımdır. Biz daxili iğtişaşların və təlatümlərin faciəvi qiymətini xatırlamalıyıq, buna görə də Rusiya Federasiyasının siyasi sistemi sabit olmalıdır. Biz Rusiyanın qüdrətini gücləndirəcək nəsillər yetişdirməli və tərbiyə etməliyik. Sabitlik sərtlik demək deyil, bizim sistem çevik olmalıdır".

V.Putin vurğulayıb ki, Rusiya Avrasiya inteqrasiyası üzrə tərəfdaşları ilə birlikdə dünya nizamının formalaşdırılması istiqamətində fəaliyyətini davam etdirəcək. Prezident inaqurasiya nitqini "birlikdə qalib gələcəyik" sözləri ilə yekunlaşdırıb.

Prezidentin andiçmə mərasimindən dərhal sonra Rusiya hökuməti istefa verib. Yeni hökumətin formalaşdırılması proseduru Nazirlər Kabinetinin sədrinin təyin edilməsi ilə başlayır. Dövlət Duması namizədi təsdiqlədikdən sonra bu barədə fərman prezident tərəfindən imzalanır. Təyin edildikdən sonra bir həftə ərzində hökumət başçısı federal icra hakimiyyəti orqanlarının strukturu ilə bağlı təkliflərini prezidentə təqdim edəcək.

Xatırladaq ki, Vladimir Putin Rusiyada keçirilən prezident seçkilərində 87,28 faiz səslə qalib gəlib. Əsas ümumrusiya səsverməsi üç gün ərzində - martın 15-dən 17-dək baş tutub. Ümumi seçici fəallığı 77,44 faiz təşkil edib. Mərkəzi Seçki Komissiyasının (MSK) rəhbəri Ella Pamfilova bu rəqəmləri ölkənin müasir tarixində rekord göstərici adlandırıb. Vladimir Putin ölkəyə 2030-cu ilə qədər rəhbərlik edəcək.

*Rizvan HİLALOĞLU,*
*"Azərbaycan"*

# Sumqayıtda ailə dəyərləri mövzusunda tədbir keçirilib

**Sumqayıtda şəhər icra hakimiyyətinin təşkilatçılığı ilə "Ailə dəyərləri-uşaqdan böyüyə" adlı tədbir keçirilib. YAP Sumqayıt şəhər təşkilatının inzibati binasında təşkil olunan tədbirdə öncə Dövlət himni səsləndirilib və şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib.**



Şəhərin idarə, müəssisə, təşkilat rəhbərlərinin və Uşaq Səfirlər Məclisinin üzvlərinin iştirak etdikləri tədbirdə çıxış edən ŞİH başçısının müavini Ülviyyə Müzəffərova bildirdi ki, ailə, milli-mənəvi dəyərlərin təcəssümü, daşıyıcısıdır. O da vurğulandı ki, ailə dəyərlərinin qorunmasında gender bərabərliyi xüsusi rol oynayır. Cəmiyyətin inkişaf kodeksini müəyyənləşdirən gender bərabərliyi isə qadınlara təhsil verilməsindən keçir.

Çıxış edənlər - YAP Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov, Sumqayıt şəhər Polis İdarəsinin bölmə rəisi Azər Bağırov, şəhər Veteranlar Şurasının sədri Sovet Şükürov və digərləri təşkil olunan tədbirin əhəmiyyətindən danışdılar.

Diskussiya formasında davam etdirilən tədbirin sonunda uşaq hüquqlarının qorunması mövzusunda keçirilən anket sorğuda qalib gələn 14 nömrəli tam orta məktəbin şagirdi Leyla Qəmbərovaya şəhər icra hakimiyyətinin Fəxri fərmanı təqdim olundu.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan Körfəz ölkələri arasında ən çox seçim edilən səyahət istiqamətidir

**Körfəz Əməkdaşlıq Şurasına üzv olan ölkələr üzrə (BƏƏ, Bəhreyn, Səudiyyə Ərəbistanı, Qətər, Oman, Küveyt) hazırlanan hesabatda Azərbaycan səyahət istiqaməti kimi üstünlük verilən 10 ölkə arasında 38 faizlə birinci pillədə yer alıb.**




Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, "Connecting Travel Insight Report" adlanan hesabat tanınmış "Jacobs Media" şirkəti tərəfindən hazırlanaraq mayın 7-də "ATM Dubai 2024" çərçivəsində təqdim olunub. Hesabatda göstəricilər cari ilin məlumatlarını əhatə etməklə uçuş tutumunun həcmlərinə uyğun olaraq orta artıma müvafiq hesablanıb. Azərbaycanla yanaşı, onluqda Misir, Tailand, Böyük Britaniya, İtaliya, Fransa, Gürcüstan, İsveçrə, Türkiyə və Maldiv Respublikası kimi ölkələr sıralanıb.

Tədbirdə çıxış edən Ümumdünya Səyahət və Turizm Təşkilatının (WTTC) Baş icraçı direktoru Culiya Simpson Azərbaycanın, həmçinin "Hotel Dayanıqlılığının Əsasları" proqramına qoşulmasını qeyd edərək bu təşəbbüsü yüksək qiymətləndirdiyini vurğulayıb.

Qeyd edək ki, 2024-cü ilin yanvar-aprel aylarında Yaxın Şərq regionundan ölkəmizə səfər edənlərin sayında ötən ilin eyni dövrü ilə müqayisədə 51 faiz artım müşahidə olunub.

# "EFES - 2024" təliminə cəlb edilən növbəti heyətimiz Türkiyəyə yola düşüb



**Türkiyə Respublikasının İstanbul və İzmir şəhərlərində 49 ölkədən ümumilikdə 1567 nəfərdən ibarət şəxsi heyətin iştirakı ilə keçirilən "EFES - 2024" çoxmillətli təlimi davam edir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan Ordusunun çoxmillətli təlimin döyüş atışlı praktiki məşqlərinə cəlb edilən şəxsi heyəti Türkiyəyə yola salınıb.

"EFES - 2024" çoxmillətli beynəlxalq təlimi mayın 30-dək davam edəcək.

## ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

### Birinci Qarabağ müharibəsi şəhidi Elşad Qayımov Xaçmazda dəfn olunub



**Birinci Qarabağ müharibəsi şəhidi Elşad Qayımovun cəsədinin qalıqları mayın 7-də Xaçmazda dəfn olunub. AZƏRTAC xəbər verir ki, 1994-cü ilin fevral ayında Füzulidə şəhidlik zirvəsinə ucalan qəhrəman döyüşçü ölümündən 30 il sonra doğma yurdunda torpağa tapşırılıb.**

Dəfn mərasimində şəhidin ailə üzvləri ilə yanaşı, Xaçmaz Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xaçmaz rayon şöbəsinin, hüquq-mühafizə orqanlarının, rayon ictimaiyyətinin nümayəndələri, qazilər və kənd sakinləri iştirak ediblər.

Elşad Şirin oğlu Qayımov 8 yanvar 1974-cü ildə Xaçmaz rayonunun Hacıqurbanoba kəndində doğulub. 1992-ci ildə hərbi xidmətə yollanıb. Birinci Qarabağ müharibəsində Füzuli rayonunun yaşayış məntəqələri uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla döyüşüb. 1994-cü ildə valideynlərinə Elşadın yaralandığı barədə məlumat verilib. Amma bütün hospitalları, xəstəxanaları axtarsalar da, ondan xəbər ala bilməyiblər. Sonradan şəhid olduğu müəyyənləşsə də, dəfn edildiyi yer barədə məlumat yox idi.

Aparılan araşdırmalardan sonra Elşad Qayımovun Beyləqan rayonunun Şəfəq qəsəbəsində yerləşən "Peyğəmbər" qəbiristanlığında naməlum şəhid kimi basdırıldığı müəyyənləşib.

Dəfn mərasimində şəhidlərimizin ruhuna dualar oxunub, xalqımıza və dövlətimizə sülh və əmin-amanlıq arzulanıb, şəhidin məzarına tər güllər düzülüb, əklil qoyulub.

### Otuz bir il əvvəl itkin düşən Vüqar Həsənovun Edillidə aşkarlanan nəşinin qalıqları Sabirabadda torpağa tapşırılıb



**Otuz bir il əvvəl Füzuli uğrunda gedən döyüşlərdə itkin düşən şəhid Həsənov Vüqar Telman oğlunun Edilli kəndində kütləvi məzarlıqda aşkarlanan nəşinin qalıqları doğulduğu Sabirabad rayonunda torpağa tapşırılıb.**

AZƏRTAC xəbər verir ki, şəhid Vüqar Həsənovun nəşi ailəsinin yaşadığı və doğulub boya-başa çatdığı Sabirabad rayonunun Muğan Gəncəli kəndinə gətirilib. Vida mərasimi keçirilib, cənazə namazı qılınaraq şəhidlərimizin ruhuna dualar oxunub. Sonra şəhidin nəşi kənd qəbiristanlığına gətirilib.

Dəfn zamanı şəhidlərimizin ruhuna dualar oxunub, Vüqar Həsənovun nəşi torpağa tapşırılıb.

Qeyd edək ki, 1992-ci ildə Vətənin dar günündə döyüşlərə qoşulan Vüqarın ilk döyüş yolu Laçın ərazisindən başlayıb. Füzulinin Mirzəcamallı, Qobu Dilağarda, Qızılqaya ərazilərində gedən döyüşlərdə düşmənin bir çox texnikasını və canlı qüvvəsini məhv edib. 1993-cü il avqustun 6-da Füzuli rayonunun Üçtəpə yüksəkliyi uğrunda gedən döyüşlərdə ayağından yaralanıb. O gündən sonra ailəsi ondan xəbər ala bilməyib.

İkinci Qarabağ müharibəsində torpaqlarımız azad edildikdən sonra Vüqar Həsənovun nəşinin qalıqları 2022-ci ilin oktyabrında Xocavəndin Edilli kəndində tapılan kütləvi məzarlıqda aşkarlanıb.

# İdman ölkəsinin növbəti uğuru

## Bakının dünyanın "İdman paytaxtı" seçilməsi Azərbaycanda bu sahədə görülən işlərə verilən yüksək qiymətdir






**İdman paytaxtına çevrilən Bakıda ən nüfuzlu beynəlxalq yarışların təşkili Azərbaycana böyük imic qazandırıb.**

"Bakı-2015" ilk Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, XV Avropa Gənclər Olimpiya Festivalının, "Formula-1" yarışlarının, Futbol üzrə Avropa Çempionatının final mərhələsinin 4 qarşılaşmasının, UEFA Avropa Liqasının finalının və müxtəlif idman növləri üzrə təşkil olunan dünya və qitə birinciliklərinin Azərbaycana həvalə edilməsi son illər ölkəmizdə bu sahədə görülən işlərə verilən ən yüksək qiymətdir. Elə bunların nəticəsidir ki, Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası Bakı şəhərini 2026-cı il üçün dünyanın "İdman paytaxtı" seçib.

Beynəlxalq təşkilatdan ölkəmizə göndərilmiş rəsmi məktubda Bakı şəhərinin bu statusa layiq görüldüyü bildirilib. Azərbaycanda əhalinin sağlamlığının möhkəmləndirilməsi, yüksək standartlara uyğun mövcud idman infrastrukturu və idmanın təbliği üçün görülən nümunəvi fəaliyyət yüksək qiymətləndirilib.

Sevindirici haldır ki, bu gün Azərbaycan idmanı inkişafının ən yüksək dövrünü yaşayır. Hər il müxtəlif nüfuzlu beynəlxalq yarışların Azərbaycanda keçirilməsi və atletlərimizin turnirlərdə qazandığı yüksək nəticələr ölkəmizə dünyada böyük imic qazandırıb. Elə ötən bir ildə keçilən yola nəzər salsaq, böyük nailiyyətlər qazanıldığını görə bilərik.

Ümumiyyətlə, 2023-cü il ərzində Azərbaycan idmançıları Avropa və dünya çempionatlarında, kubok yarışlarında, digər rəsmi beynəlxalq turnirlərdə 1472 medal qazanıblar. İdmançılarımız Avropa Oyunları, MDB Oyunları kimi mötəbər turnirlərdə qüvvələrini sınayıblar. Əsas millilərlə yanaşı, yeniyetmələr, gənclər və veteranlar da beynəlxalq turnirlərdə uğurlu çıxışlarla yadda qalıblar.

Ötən il Azərbaycan 3 dünya çempionatına evsahibliyi edib. Bakıda taekvondo üzrə 26-cı, atıcılıq üzrə 53-cü və hərbçilər arasında güləş üzrə 36-cı dünya çempionatı təşkil edilib. Həmçinin idman gimnastikası, bədii gimnastika, Şahmat üzrə Dünya Kuboku, "Formula-1" üzrə Azərbaycan Qran-prisi üçün idmançılar ölkəmizdə səfərdə olublar.

Yola saldığımız ildə ən yaddaqalan idman hadisələrindən biri Polşada keçirilən III Avropa Oyunları idi. Avropa Oyunlarında Azərbaycanı 86 idmançı 13 növdə təmsil edib. Atletlərimiz 11 medal qazanıblar ki, bunlardan 3-ü qızıl, 2-si gümüş və 6-sı bürünc əyarlıdır.

Yunan-Roma güləşi üzrə Azərbaycan millisi Serbiyanın paytaxtı Belqradda reallaşan dünya çempionatında tarixi uğura imza atıb. Eldəniz Əzizli (55 kq) və Rafiq Hüseynov (82 kq) dünya çempionu olublar, Murad Məmmədov (63 kq), Həsrət Cəfərov (67 kq) və Sənan Süleymanov (77 kq) gümüş medal qazanıblar. Həsrət Cəfərov və Sənan Süleymanov Paris-2024 Yay Olimpiya Oyunlarına lisenziya əldə ediblər. Yığmamız 120 xal toplayaraq ilk dəfə komanda hesabında dünya çempionu olub. Sərbəst güləşçilərdən Osman Nurməhəmmədov (92 kq) və Maqomedxan Maqomedov (97 kq) dünya ikincisi olublar. Maqomedxan Maqomedov həm də olimpiadaya lisenziya əldə edib.

Azərbaycanın qrup hərəkətləri komandası Bakıda keçirilən Bədii Gimnastika üzrə 39-cu Avropa Çempionatının qalibi adını qazanıb. Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokinadan ibarət komanda üç lent və iki topla yarışın qalibi olub. Bundan başqa, böyüklərdən ibarət komandamız çoxnövçülükdə üçüncü yeri tutub. Gimnast Zöhrə Ağamirova isə topla yarışda bürünc mükafata yiyələnib.

Eyni zamanda Azərbaycan dünyanın ən böyük idman tədbirlərindən biri olan "Formula-1" üzrə dünya çempionatına ötən mövsüm 7-ci dəfə evsahibliyi etdi. Azərbaycan Qran-prisi maraqlı və gərgin mübarizə ilə yadda qaldı. 500 milyondan artıq tamaşaçı kütləsinə malik yarışı 60-dan çox ölkədən çoxlu sayda azarkeş paytaxtımızda tribunalardan izlədi.

Ötən il minifutbol üzrə milli komandamızın dünya çempionatında uğurlu çıxışı, "Qarabağ" klubunun isə avrokuboklarda ardıcıl 10-cu dəfə qrup mərhələsinə vəsiqə qazanması, ardınca Avroliqada 1/8 final mərhələsinə yüksəlməsi yaddaqalan idman hadisələri sırasındadır.

Bu gün işğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda Prezident İlham Əliyevin rəhbərliyi ilə geniş abadlıq-quruculuq işləri gedir. Azad edilmiş ərazilərdə müasir tələblərə cavab verən idman infrastrukturunun qurulması da əsas diqqət mərkəzindədir. Heç şübhə yoxdur ki, tezliklə yeni olimpiya idman komplekslərinin, digər idman müəssisələrinin inşa ediləcəyi əsas məkanlardan biri də işğaldan azad edilən ərazilərimiz olacaq. Dünyanın ən mötəbər idman yarışlarının keçirildiyi məkanlardan biri də məhz Qarabağ və Şərqi Zəngəzur olacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Azərbaycan QHT-ləri Təpəbaşı məhəlləsi ilə əlaqədar UNESCO-nun Baş direktoruna açıq məktub ünvanlayıblar

**Azərbaycan QHT-ləri Təpəbaşı məhəlləsi ilə əlaqədar UNESCO-nun Baş direktoru Odri Azuleyə açıq məktub ünvanlayıblar. AZƏRTAC məktubu təqdim edir: "Biz - Azərbaycan vətəndaş cəmiyyətinin təmsilçiləri UNESCO-nun Baş direktoru xanım Odri Azuleyə müraciət edərək Ermənistan Respublikasında Azərbaycan xalqının maddi-mədəni irsinin dağıdılmasını dayandırmaq üçün təşkilatı hərəkətə keçməyə çağırırıq.**

Azərbaycanlıların tarixən yaşadıqları Ermənistan Respublikasında azərbaycanlılara məxsus bütün irsə münasibətdə məhvetmə siyasəti aparılıb, tarixi izlərin silinməsinə cəhd edilib. Burada 1870-ci ildə qeydiyyata alınmış 269 məsciddən bu gün yalnız 1-i qalıb, azərbaycanlılara məxsus yüzlərlə qəbiristanlıq dağıdılıb.

Vaxtilə azərbaycanlıların yaşadıqları, qurub-yaratdıqları bir şəhər olan İrəvanda tarixi adı dəyişdirilərək "Kond" adlandırılan Təpəbaşı məhəlləsi Ermənistanda Azərbaycan mədəni irsinin son qalıqlarından biridir.

Biz Ermənistanda Azərbaycan mədəni irsinin dağıdılmasının dayandırılması və dağıdılmışların bərpası üçün beynəlxalq hüququn normaları və mexanizmləri çərçivəsində UNESCO ilə dialoq və qarşılıqlı fəaliyyətə hazır olduğumuzu bəyan edirik. Xüsusilə UNESCO-nu dünya mədəni irsinin unikal nümunəsi kimi Təpəbaşı məhəlləsini öz mühafizəsinə götürməyə çağırırıq. Monitorinq işlərində UNESCO ilə sıx işləməyə hazırıq.

Ermənistan hakimiyyətinin Təpəbaşı daxil olmaqla, mədəniyyət abidələrinə qarşı təcavüzü İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Beynəlxalq Pakta, Ümumdünya mədəni və təbii irsin qorunması, Qeyri-maddi mədəni irsin qorunması, İrqi ayrıseçkiliyin bütün formalarının aradan qaldırılması haqqında konvensiyalara ziddir.

Eyni vandalizm siyasəti işğal dövründə Qarabağda və Şərqi Zəngəzurda da yürüdülüb. Vaxtilə həyat qaynayan, yüzlərlə tarixi, mədəni abidənin qorunduğu həmin ərazilər böyük xarabalıqlara çevrilib. Təəssüf edirik ki, işğal dövründə çoxsaylı müraciətlərə və çağırışlara baxmayaraq, UNESCO bir dəfə də olsun bu məsələləri araşdırmayıb, əraziyə faktaraşdırıcı missiya göndərməyib.

Biz UNESCO-nu Ermənistan Respublikasına faktaraşdırıcı missiya göndərmək, Təpəbaşı məhəlləsi ilə bağlı təxirəsalınmaz tədbirlər görmək üçün cəsarət nümayiş etdirməyə dəvət edirik. Bu məsələlərdə UNESCO ekspertləri ilə müzakirələrə və onlara əlavə məlumatlar təqdim etməyə hazırıq.

**İmzalar:**

Fuad Məmmədov - "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası
Əziz Ələkbərli - Qərbi Azərbaycan İcması
Fariz Xəlilli - "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi
Nərminə Ağayeva - "İrəvan Mədəni İrsinin Təbliği" İctimai Birliyi
Hacı Abdulla - "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyi
Umud Rəhimoğlu - Beynəlxalq Avrasiya Mətbuat Fondu
Novella Cəfərova - D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyəti
Səadət Bənənyarlı - "Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi" İctimai Birliyi
Səltənət Qocamanlı - "İnsan Hüquqlarının və Qanunçuluğun Müdafiəsi" İctimai Birliyi
Mübariz Əsgərov - "Obyektiv" Milli Dəyərlərin Təbliğinə Dəstək İctimai Birliyi
Zaur İbrahimli - "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyi
Şəhla Nağıyeva - "Sönməz Məşəl" Mədəni Əlaqələr İctimai Birliyi
Şeyda Allahverdiyeva - "ICOMOS Azərbaycan" İctimai Birliyi
Qəmər Bağırova - Cəfər Cabbarlı adına Mədəniyyət, Elm və Təhsilin İnkişafına Yardım İctimai Birliyi
Ülviyyə Bəbirova - "Mədəniyyət Könüllüləri" İctimai Birliyi
Türkay Qasımzadə - Azərbaycan Mədəni İrsinin Qorunması və Turizmə Dəstək Assosiasiyası
Esmira Fuad - Əbədi Turan Kitab Fondu
Azər Allahverənov - "Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İctimai Birliyi
Elçin Mirzəbəyli - "Bakı Natiqlik Məktəbi" İctimai Birliyinin sədri
Sevda Tahirli - Mirzə Ələkbər Sabir Fondu
Şahin Qədirov - "Zirvə" Mədəniyyət və İncəsənət İctimai Birliyi
Fəridə Mirişova- "İz" Mədəniyyətin İnkişafına Dəstək İctimai Birliyi
Səməd Vəkilov - "Müvəkkil Hüquq Mərkəzi" İctimai Birliyi.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi Bakı Şəhər Prokurorluğunun Prokurorluqda istintaqa nəzarət şöbəsinin prokuroru

**MÜŞVİQ ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov və nazirliyin kollektivi Əməkdar müəllim, iqtisad elmləri doktoru, professor

**QƏZƏNFƏR ƏLİ OĞLU ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini Adil Əliyevə əzizi

**AYDIN ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyevə əzizi

**AYDIN ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Səbail rayonundan Vuqar Zeynalov Azərbaycan Respublikası Milli Məclis Sədrinin müavini Adil Əliyevə əzizi

**AYDIN ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4337
Sifariş 1010

Qiyməti 60 qəpik